Xalqın qəzeti!

# Xalq qəzeti

№ 261 (30377) 30 noyabr 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

# Azərbaycan dövləti qüdrətli və sarsılmazdır

## Prezident İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin yeni inzibati binalarının açılışında iştirak edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin yeni inzibati binalarının açılışında iştirak edib.**

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısına məlumat verildi ki, inşasına 2021-ci ilin martında başlanmış inzibati binaların tikintisi bu ilin avqustunda yekunlaşıb. İnşaat işləri müasir standartlara uyğun aparılıb, binalar bütün zəruri avadanlıq və inventarlarla təmin olunub, burada əməkdaşların xidməti fəaliyyətlərini səmərəli həyata keçirmələri üçün hər cür şərait yaradılıb.

Əvvəlcə foyedə quraşdırılmış monitorda son illər ərzində Dövlət Təhlükəsizliyi Xidmətinin mərkəzi aparatında və ərazi orqanlarında aparılan əsaslı tikinti-quruculuq işlərindən bəhs edən videoçarx nümayiş olunub.

*(ardı 2-ci səhifədə)*

# Dünya Bankı Azərbaycanda "yaşıl keçid"i yüksək qiymətləndirir




**Dünyada aşağı karbon tutumlu iqtisadiyyata keçid və dayanıqlıqla bağlı investisiyalar, eləcə də siyasi islahatlar Azərbaycanın da iqtisadi maraqlarına uyğundur. Bu barədə Dünya Bankı Qrupunun Azərbaycana dair İqlim və İnkişaf Hesabatında nikbin məlumat verilir.**

Sənəddə bildirilir ki, iqlimlə bağlı operativ tədbirlər Azərbaycana aşağı karbon yüklü iqtisadiyyata qlobal keçidlə bağlı yaranan riskləri minimuma endirməyə və xalqın həyat səviyyəsini qorumağa kömək edə bilər. Ölkə iqtisadiyyatının ümumi daxili məhsulun üçdə birini, ixracın isə 90 faizini təşkil edən neft-qaz sektorundan əhəmiyyətli dərəcədə asılı olduğunu bildirən sənəd müəllifləri qeyd edirlər ki, neft ehtiyatlarının azaldığı və daha 25 il kifayət edəcəyinin gözlənildiyi bir şəraitdə kompleks və səmərəli dekarbonizasiya səyləri iqtisadiyyatı şaxələndirməyə, həmçinin "yaşıl hidrogen" hasilatında və kənd təsərrüfatında yeni artıma rəvac verəcək.

*(ardı 7-ci səhifədə)*

# Qabrielyanın "Bakıda yaşamaq" arzusu

**Bilənlər bilir, bilməyənlər üçün diqqətə çatdıraq ki, Ermənistanda "Girdman–Şirvan–Naxçıvan" ümumermənі birliyi adlı təşkilat var. Təşkilatın rəhbəri isə Ermənistan parlamentinin hakim "Vətəndaş sazişi" partiyasından olan deputatı Vilen Qabrielyandır. Bu şəxs 1983-cü ildə Bakıda anadan olub. Onun sırf Bakıya fokuslanaraq, nələri söylədiyinə diqqət yetirəcəyik. Ancaq əvvəlcə bu şəxsin rəhbərlik etdiyi təşkilatın adına nəzər salaq.**

*(ardı 3-cü səhifədə)*

# Sərhəddə görüş İrəvan üçün "test imtahanı"dır

**Bu gün Ermənistan–Azərbaycan sərhədində ikitərəfli görüşün keçirilməsi planlaşdırılıb. Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistana sülh müqaviləsinin bağlanması üçün danışıqları bu formatda bərpası çağırışını edib. Rəsmi Bakı görüş yeri kimi Azərbaycan–Ermənistan sərhədini göstərib. XİN-in "Sərhəddə görüşməyə və birbaşa danışıqlara hazırıq", – müraciətinə Ermənistan tərəfi müsbət yanaşdığını açıqlayıb.**



Bakının bu təşəbbüsünə qərbli sülh vasitəçilərinin də loyal yanaşması müşahidə olunur. Elə Ermənistan rəsmilərinin dilindən də sülh sazişi ilə bağlı nikbin proqnozlar verilməkdədir. İki gün əvvəl Hayastan parlamentinin spikeri Alen Simonyan İrəvan üçün şərtlərin məqbul olacağı təqdirdə Azərbaycan və Ermənistan arasında yaxın 15 gün ərzində sülh sazişinin imzalana biləcəyini açıqlayıb: "Arzu edilsə, qarşıdakı 15 gün ərzində sülh sazişi imzalana bilər. Deyə bilərik ki, biz bütün fundamental məsələlərdə razılığa gəlmişik. Bu prosesə xələl gətirməmək üçün təfərrüatı açıqlamaq istəmirəm".

Spikerin sensasion xarakterli bəyanatı öz yerində, Ermənistan tərəfinin vasitəçi olmadan görüş təklifinə müsbət yanaşması yaxşı haldır. Təşəbbüsün müəllifi kimi Azərbaycanın bu barədə narahatlığı yoxdur. Ermənistan tərəfi isə buna qədər daim hansısa problemi ortaya atıb. İrəvan sülh danışıqlarını Avropada, xüsusilə də, Brüsseldə davam etdirmək istəyir. Moskva platformasından imtina etməsi onu göstərir ki, Ermənistan hakimiyyəti Qərbin, yəni Fransanın vasitəçiliyi olmadan sülh masasının arxasına oturmağa acizdir və ya qorxur. Məhz buna görə sərhəddə görüş Paşinyan üçün, bir növ, "Müstəqil dövlət və siyasi iradə" fənnindən test imtahanı sayıla bilər. Bu imtahanın nəticəsi təkcə baş nazirin sonrakı aqibəti üçün deyil, eyni zamanda, Ermənistanın gələcəyi baxımından böyük əhəmiyyət kəsb edir.

*(ardı 4-cü səhifədə)*

# Senatorlar və "paraşütçülər"



**Xalq yazıçısı Anarın bu yazısı 3 il bundan qabaq Azərbaycan və rus dillərində mətbuatda dərc olunmuş, fransız dilinə çevrilmişdir. E.Makron hökumətinin və Fransanın dövlət qurumlarının artıq ədalətli şəkildə həll olunmuş Qarabağ məsələsi ilə bağlı ölkəmizə qarşı yeni təxribatlar törətdiyi günlərdə həmin yazını oxuculara təqdim edirik.**

*(ardı 4-cü səhifədə)*

# Ermənistanın Aİİ-yə sədrlik oyunu



Səhifə ⇨ 3

# Qarabağı əsarətdə saxlamış xuntanı xortlatmaq cəhdləri



**Hazırda Ermənistan cəmiyyətində müzakirə olunan məsələlərdən biri də Azərbaycanın sentyabrın 19–20-də keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində varlığına son qoyulan separatçı xunta rejiminin "mühacirətdəki hökumət" formasında qalıb-qalmaması ilə bağlıdır. Hayastanın müxtəlif rəsmi şəxsləri ictimai çıxışlarında bu ideyaya qarşı olduqlarını bildiriblər.**

*(ardı 8-ci səhifədə)*

# Prezident İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin yeni inzibati binalarının açılışında iştirak edib



(əvvəli 1-ci səhifədə)



Bildirildi ki, binanın giriş hissəsində Ümummilli lider, Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, bu orqanların inkişafında müstəsna xidmətləri olan Heydər Əliyevin barelyefi qoyulub, Ulu öndərin arxiv sənədlərinin nümayiş olunduğu guşə və dahi şəxsiyyətin mənalı ömrünün 25 ilini həsr etdiyi təhlükəsizlik orqanlarındakı fəaliyyətini əks etdirən fotoşəkillərdən ibarət stend yaradılıb.

Sonra dövlətimizin başçısı xarici xüsusi xidmət orqanları ilə qurulan tərəfdaşlıq münasibətlərinin səviyyəsini və tarixini simvolizə edən muzeydə sərgilənən eksponatlara baxıb.

Qeyd edildi ki, binada Dövlət Təhlükəsizliyi Xidmətinin mərkəzi aparatının bəzi struktur bölmələrinin yerləşdirilməsi nəzərdə tutulur. Bina iş və iclas otaqlarından, rəhbər və şəxsi heyət üçün ikimərtəbəli yeməkxanadan ibarətdir.



Dövlətimizin başçısı xidməti otaqlarla və burada əməkdaşlar üçün yaradılan şəraitlə yaxından tanış olub.

Ali Baş Komandan İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı dəstəsinin istifadə etdiyi xüsusi vasitələrə, silahlara, avadanlıqlara, dron cihazlarına və xüsusi təyinatlı avtomobillərə də baxış keçirib.

Həmçinin Azərbaycan Prezidentinə digər inzibati binada yerləşən və ən son texnoloji yenilikləri özündə birləşdirən kriminalistika, əməliyyat və şəbəkə idarəetmə mərkəzləri təqdim olunub, cinayət işlərinin təhqiqatı və müvafiq əməliyyat tədbirlərinin həyata keçirilməsi istiqamətində bu mərkəzlərin imkanları barədə məruzə edilib.

Prezident İlham Əliyev şəxsi heyətin fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədilə yaradılmış və müasir idman avadanlıqları ilə təchiz edilmiş mərkəzlə də yaxından tanış olub.

Sonda Prezident İlham Əliyev şəxsi heyətə xidməti fəaliyyətlərində uğurlar arzulayıb, əməkdaşların öz vəzifələrini bundan sonra da layiqincə yerinə yetirəcəklərinə inamını ifadə edib.

**AZƏRTAC**

## Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının əməkdaşlarının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası təhlükəsizlik orqanlarının kadrlarının hazırlanması sahəsində xidmətlərinə, öz xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Məmmədova Kamina Qavil qızı

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Allahverdiyev Extibar Yadulla oğlu – polkovnik
Əliyev Elçin Alastun oğlu – polkovnik
Əmirov Ziyafət Məsim oğlu – polkovnik
İsmayılov Azər Valeh oğlu – polkovnik
Nəsirov Elşad Haqverdi oğlu – polkovnik
Fətullayeva Mehparə Dayış qızı – polkovnik-leytenant
Məhərrəmov Namiq Əliəddin oğlu – polkovnik-leytenant.

**2.** Təhsil sahəsində xidmətlərinə görə Akif Padar oğlu Orucəliyevə "Əməkdar müəllim" fəxri adı verilsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 noyabr 2023-cü il**

## Suqovuşan–Kəlbəcər (9 km)–Ağdərə–Ağdam avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Otuz üç kilometr uzunluğu olan Suqovuşan–Kəlbəcər (9 km)–Ağdərə–Ağdam avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 4,5 milyon (dörd milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 noyabr 2023-cü il**

## Azərbaycan–Əlcəzair əməkdaşlığı inkişaf edir



**Noyabrın 29-da Xarici İşlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Əlcəzairin Xarici İşlər və Xaricdəki Milli İcma Nazirliyinin baş katibi Lounes Magramane ilə görüşüb.**

Görüşdə Azərbaycanla Əlcəzair arasında mövcud dostluq və əməkdaşlıq münasibətlərinin genişləndirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparılıb, iki ölkə arasında siyasi dialoqun, məsləhətləşmə mexanizminin, parlamentlərarası əməkdaşlığın və qarşılıqlı yüksək səviyyəli səfərlərin əhəmiyyəti vurğulanıb.

Görüşdə iki ölkə arasında enerji, kənd təsərrüfatı, humanitar, səhiyyə və digər sahələrdə əməkdaşlığın perspektivləri, regional və çoxtərəfli formatlarda əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dönəmində irəli sürülmüş təşəbbüslərin təsisatın yenidən dirçəlməsi istiqamətində mühüm rol oynadığı təqdir olunub. Əlcəzairin BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsinin əhəmiyyəti vurğulanıb, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gücləndirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Söhbət zamanı müqabil tərəf Azərbaycana qarşı hərbi təcavüzün tarixi, postmünaqişə dövründə Cənubi Qafqaz regionunda dayanıqlı sülhün təsis edilməsi barədə ölkəmizin baxışı barədə məlumatlandırılıb.

**Milli Məclisdə**

# Hərbi qulluqçuların sosial müdafiəsi gücləndiriləcək və pensiya təminatı möhkəmləndiriləcək



**Dünən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib. Komitə sədri Musa Quliyev "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim etdi.**

Komitə sədri qanun layihəsinin silahlı qüvvələrimizin daha da gücləndirilməsi, hərbçilərin kadr hazırlığı, təhsili, xidmətkeçmə, sosial müdafiə və pensiya təminatları sahəsində hüquqi bazanın möhkəmləndirilməsi məqsədi ilə hazırlandığını bildirdi.

Sonra deputat Arzu Nağıyev qanun layihəsinə təklif olunan dəyişikliklər barədə deputatlara ətraflı məlumat verib. O, qanun layihəsinin hərbi qulluqçuların pensiya və təhsil almaq hüququ, o cümlədən, xidmətkeçmə müddətləri ilə bağlı dəyişikliklərin nəzərdə tutildüğunu diqqətə çatdırdı..

Hərbi qulluqçuların potensialından daha uzun müddət və səmərəli istifadə edilməsinə yönəlik dəyişikliklərdən danışan A.Nağıyev qeyd etdi ki, sənəddə hərbi qulluqçuların təhsil almaq imkanları genişləndirilir. O, layihədə qadınların həqiqi hərbi xidmətdə ehtiyatda olmalarının son yaş hədlərinin kişi hərbi qulluqçularla bərabərləşdirilməsinin gender bərabərliyinin təmininə xidmət etdiyini bildirdi. Hərbi qulluqçuların formalaşmış təcrübəsindən daha uzun müddət istifadə etmək məqsədilə hərbi qulluqçu kimi pensiyaya çıxmaq üçün minimum xidmətkeçmə tələbinin 20 təqvim ilindən 25 təqvim ilinə çatdırılması hərbi qulluqçuların pensiya təminatında hər hansı azalmanı istisna etməklə, bir sıra qurumların hərbi qulluqçularının pensiya təminatında artımı nəzərdə tutur. Belə ki, minimum xidmət müddətinin artırılması ilə yanaşı, həmin dövrə görə qulluq stajına əlavənin 50-dən 65 faizə qaldırılması təklif edilib.

Müdafiə Nazirliyinin Hüquq İdarəsinin rəisi Elçin Əliyev vurğulayıb ki, parlamentin müzakirəsinə təqdim olunmuş layihə hərbi qulluqçuların potensialından daha uzun müddət və səmərəli istifadə edilməsinə və onların peşəkarlığının və sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial sığorta və pensiya siyasəti şöbəsinin müdiri Elnur Abbasov isə qanun layihəsinin hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsinin və pensiya təminatının möhkəmləndirilməsinin daha səmərəli təşkilinə imkan yaratdığını bildirib.

Sənədin müzakirəsində deputatlar çıxış edərək layihə ilə bağlı fikirlərini bildirdilər.

Sonda qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olundu.

**Ə.BƏDƏLOV**
**XQ**

# 17 laçınlı ailə də yurduna qovuşub

**Dünən daha 63 laçınlının yurd həsrəti bitib.**



Köçürülən ailələr Abşeron rayonunda, Bakı və Sumqayıt şəhərləri ərazisindəki yataqxana, sanatoriya, keçmiş pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış keçmiş məcburi köçkün ailələrindən ibarət olub.

Bununla da Laçın şəhərində 363 ailə, yeni 1389 nəfərin daimi məskunlaşması təmin olunub.

**XQ**

# Qabrielyanın "Bakıda yaşamaq" arzusu

## "Girdman–Şirvan–Naxçıvan" ümumermәni birliyinin fəaliyyəti nəyə hesablanıb?



(əvvəli 1-ci səhifədə)

Girdman, Şirvan və Naxçıvan. Bu təmiz türk adlarını daşıyan qurum həm də ümumermәni birliyi kimi tanınmağa iddialıdır və Ermənistanda qeydiyyatdan keçib. Təsəvvür edə bilirsinizmi, Azərbaycanda bir təşkilat Qukasyan, Quqark, Noyemberyan rayonlarının adlarını daşıyır? Mümkün deyil. Hərçənd, Ermənistanın rayonlarına diqqət yetirəndə görürsən ki, onların çoxunun adı erməni dilində deyil. Məsələn, vaxtilə Ermənistan SSR-in tərkibindəki Qəmərli, Cəlaloğlu, Düzkənd, Qarabağlar, Üçkilsə, Vedi, Zəngibasar, Allahverdi, Amasiya, Basarkeçər və sair təmiz türk toponimi olan rayon adları olub. Müstəqillik illərində onların bir çoxu erməniləşdirilsə də, Ermənistanda yenə də türk toponimlərinə rast gəlinməkdədir. Yəni, nə edirlərsə, silib qurtara bilmirlər. Əslində, bəlkə böyük ölçüdə nəyisə silməyə xüsusi səy də göstərmirlər. Çünki xəstəlik məntiqsizlik doğurur. Sadə bir misalla fikrimizi isbatlayaq. Ermənilər dolmanın onların milli yeməyi olduğunu dünyaya car çəkirlər. Amma dolma türk sözüdür. Elə bu ad hər şeyi deyir. Hayların ağlına gəlmir ki, heç olmasa, adı dəyişdirsinlər. Dediyimiz kimi, xəstəlikləri düşünməyə imkan vermir. Elə haqqında söz açdığımız "Girdman-Şirvan-Naxçıvan" ümumermәni birliyi də xəstə təfəkkürün məhsuludur. Aşkar görünür ki, bu birlik ekstremist, separatçı niyyət güdən, ərazi iddiasına köklənmiş təşkilatdır.

Beləliklə, "Girdman-Şirvan-Naxçıvan" ümumermәni birliyi Azərbaycandan olan məcburi köçkünlərin hüquqlarının müdafiəsinə və bərpasına girişib. Qurumun rəhbəri olan deputat V.Qabrielyan mövcud istiqamətdə bütün resursları toplayacaqlarını vurğulayıb. Resurslar hansı məqsəd üçün səfərbər edilir? "Hazırda ictimai təşkilatımız tərəfindən itirilmiş əmlakın mövcud əsaslar üzrə inventarlaşdırılmasının daha dəqiq və düzgün aparılmasına dair genişmiqyaslı işlər görülür. Burada problemlərimiz var. Bildiyiniz kimi, soydaşlarımızın heç də hamısının sənədləri tam olmadığı üçün çətinliklər yaranır. Mövcud verilənlər bazasını təhlil edərək və yeni məlumatlar toplayaraq, biz hər şeyin daha dəqiq olmasına çalışacağıq. Söhbət yüz milyardlarla rubldan gedir", – deyə V.Qabrielyan bildirib.

Erməni deputat onu da vurğulayıb ki, rəhbəri olduğu birlik tezliklə yeni internet saytı yaradacaq. Dünyanın istənilən yerində yaşayan və Azərbaycandan qovulmuş ermənilər bu platformaya daxil olaraq, özlərinin əmlak itkisi ilə bağlı məlumatları orada yerləşdirmək imkanı qazanacaqlar. Çünki, guya, onların əksəriyyətinin şəxsi mülkiyyəti və mülkiyyət hüquqları iri-miqyaslı talan və zorakılıq nəticəsində köklü şəkildə pozulub. "Girdman-Şirvan-Naxçıvan" ümumermәni birliyinin qeyd edilən istiqamətdə beynəlxalq strukturlarla da işi öz gündəliyinə daxil etdiyini deyən V.Qabrielyanın sözlərinə görə, 2023-cü il sentyabrın 19-da Qarabağda baş verənlər, Azərbaycanın hərəkətləri nəticəsində 100 mindən çox ermənin zorla köçürülməsi 1988–1992-ci illərdəki proseslərin oxşarıdır: "Beynəlxalq strukturlar o dövrdə baş verən və bugünkü məcburi köçə səbəb olan hadisələrə lazımi siyasi qiymət verməlidir. Əgər beynəlxalq ictimaiyyət vaxtında düzgün qiymət versəydi, biz sentyabrın 19-da olan vəziyyətə gəlməzdik".

V.Qabrielyanın fikirlərindəki bir məqam təqdir oluna bilər. Azərbaycandan qovulmuş ermənilər ritorikasına baş vuran deputat Qarabağdan köçənləri də bu siyahıya daxil edir. Halbuki, erməni siyasi dairələri, o cümlədən, ölkə iqtidarı hazırda elə görüntü formalaşdırır ki, sanki Azərbaycanın sentyabrın 19-da keçirdiyi və cəmi 23 saat 43 dəqiqə davam etmiş lokal xarakterli antiterror tədbirləri Qarabağın işğalı idi. İndiki halda Qabrielyanın fikirləri məsələnin tam əksi deməkdir. Əlbəttə, mümkündür ki, erməni deputat bunun fərqində deyil.

Digər tərəfdən, belə görünür ki, Ermənistan hakimiyyəti Azərbaycanda yaşamış ermənilərin mülkiyyət hüququ ilə bağlı məsələni qaldırmaqla, ölkəmizə ziyan vurmağa çalışır. İndiyədək də belə ediblər. Bununla bağlı beynəlxalq məhkəmə instansiyalarında qaldırılmış iddialar var. Görünür, hazırda erməni iqtidarı məsələni daha sistemli şəkildə qoymaq niyyətindədir. Yəni, Paşinyan və komandası Azərbaycana qarşı ərazi iddiası məntiqini bir qədər fərqli tərzdə irəli sürməyə üstünlük verir. Məsələn, Ermənistanın Avropa İnsan Haqları Məhkəməsinə təqdim etdiyi başlıca mövzulardan biri də erməni milli mirası kimi adlandırılmış cəfəngiyyatdır. Bu cəfəngiyyatın tərkib hissəsi olaraq, məsələn, Ağdamdakı hansısa abidənin, guya ermənilərə məxsusluğunun təsdiqlənməsi iddiası qabardılır. Təsəvvür edin ki, torpaq Azərbaycanındır, ancaq Ermənistan istəyir ki, həmin abidənin sənədi ona məxsus olsun. Daha doğrusu, "məxsusluq" beynəlxalq məhkəmənin qərarı ilə təsdiqlənsin. Niyə? Çünki Ağdamdakı abidənin Ermənistana aidliyi məhkəmə qərarı ilə təsdiqlənirsə, deməli, gələcəkdə tikilinin yerləşdiyi torpağın da Ermənistana aidliyinin mübahisələndirilməsi mümkündür. Təbii ki, mübahisə üçün güc lazımdır. İrəvanın hazırkı davranışının perspektivi üçün də başlıca amil məhz gücdür. Yəni, avantüristlər güclü olacaqları təqdirdə, yenidən ölkəmizə qarşı çıxıb işğalçılıq siyasəti aparmağı hesablayırlar.

Bəli, V.Qabrielyanın fikirləri, eləcə də onun təşkilatının planlaşdırdığı sözügedən fəaliyyət erməni məkrinin növbəti nümunəsidir. Həm də ona görə ki, bu şəxs Ermənistanda yaşayan və özlərinin tarixi torpaqlarından zorla qovulmuş yüz minlərlə azərbaycanlını nəzərə almır. 1988–1992-ci illərin hadisələrindən danışanda, gərək bu məqamı da düşünəydi. Düşünmür və sırtıqcasına deyir ki, sülh müqaviləsi imzalandıqdan sonra, Bakıda yaşamaq üçün müraciət edəcək: "Azərbaycan dəqiq təminat verməlidir ki, 100 min erməni doğulduğu yerə, Azərbaycan Respublikasına gedib yaşasın. Ermənistan da, şübhəsiz ki, istənilən başqa ölkənin vətəndaşlarının təhlükəsizliyinə təminat verməlidir".

Məsələnin qoyuluşuna diqqət yetirək. Azərbaycan dövləti 100 min ermənin doğulduğu yerdə, Azərbaycan Respublikasında yaşamasına təminat versin, Ermənistan isə başqa ölkənin vətəndaşlarının təhlükəsizliyinə. Burada azərbaycanlıların Ermənistanda yaşamaq hüququndan söz açılmır. Nəzərə alaq ki, başqa ölkələr anlayışı genişdir. Bu anlayışa ingilis, fransızlar, hollandlar və sair daxildir və onsuz da rəsmi İrəvan onların Ermənistanda yaşamalarına təminat verir. Elə Azərbaycanda da başqa ölkə vətəndaşlarının təhlükəsiz şəraitdə ömür sürmələri üçün hüquqi mexanizmlər mövcuddur. Nəyə görə, ermənilərlə bağlı ayrıca təminat mexanizmi olmalıdır? Məgər, Ermənistan eyni addımı atmaq istəyirmi, yaxud istəyərmi? Əlbəttə, yox. Halbuki, bu ölkədə doğulmuş azərbaycanlıların sayı, dediyimiz kimi, yüz minlərlədir. Üstəlik, Azərbaycanda yaşamış ermənilərdən fərqli olaraq, Ermənistan adlanan ərazi onların tarixən bağlı olduqları məkandır. Yəni, onlar ermənilər kimi haradansa həmin əraziyə köçürülməyiblər.

Bəli, kifayət qədər düşünülmüş və incə şəkildə məkrli niyyət güdməyə hesablanmış fikirləri söyləməsinə baxmayaraq, erməni sosial şəbəkə seqmentində, az qala, xalq düşməni kimi qiymətləndirilmiş V.Qabrielyan "Bakıda erməni tarixi-mədəni izləri" adlı sərginin keçirilməsi təşəbbüsü ilə də çıxış edib. Əlbəttə, Bakıda ermənilər yaşayıblar, ancaq paytaxtımızda hansı erməni tarixi-mədəni izi var? Tutalım, ayrı-ayrı abidələr var. Məsələn, mərkəzdə erməni kilsəsini götürək. Amma bu o deməkdirmi ki, Bakıda tarixi erməni izi var?

Ancaq İrəvanda, ümumən, Ermənistanın çox yerində son dərəcə böyük azərbaycanlı irsi mövcuddur. Bu mirası onilliklərdir silirlər, amma silib axırına çıxa bilmirlər. Qabrielyanın gedib çıxdığı 1988–1992-ci illərə diqqət yetirək. Həmin illərdə Ağkilsə kəndinin sakinlərinin deportasiyasından sonra ustad Aşıq Ələsgərin qəbirüstü abidəsi, həmçinin Ağudi abidəsi, Aşağı Şorca kəndinin qəbiristanlığı, İrəvan şəhərindəki Dəmirbulaq məscidi məhv edilmişdi. İrəvandakı Göy məsciddə aparılan təmir-bərpa işlərindən sonra, onu "Fars məscidi" adlandırdıqları kimi, Cəfərabad kəndindəki orta əsrlərə aid Əmir Səəd məqbərəsi də "Türkmən məqbərəsi" kimi qələmə verilib. Belə "yanaşmaların" sayı-hesabı yoxdur.

Ümumən, erməni vandalları azərbaycanlıların tarixi-etnik torpaqlarındakı izlərini silməklə yanaşı, onlara məxsus toponimlərə qarşı da soyqırımı həyata keçiriblər. Monoetnik erməni dövlətində əvvəllər azərbaycanlıların yaşadıqları 703 yaşayış məntəqəsinin adlarını dəyişdirərək erməniləşdiriblər. Qərbdə demokrat kimi qiymətləndirilən Paşinyanın partiyadaşı olan Qabrielyan, həqiqətən, səmimi olsaydı, gərək, bunlardan da danışaydı. Danışmır, əvəzində ortaya saxta beynəlmiləlçiliklə pərdələnmiş məkrli niyyət qoyur. "Dünya yeni yaranmayıb, elə dövlətlər var ki, bir-biri ilə müharibə edib, sonra sülh şəraitində yaşayıb və daha sonra yenidən müharibəyə başlayıblar və s. Əlbəttə ki, müharibə faciəvi bir vəziyyətdir, lakin buna baxmayaraq, bütün bunlardan sonra belə icmalar bir-biri ilə barışmağa çalışmalıdırlar", – deyən erməni deputat qaçqınların geri qayıtmaları məsələsinin hər iki tərəfdə müzakirəsini vacib sayırsa, ilk növbədə, öz təşkilatını buraxmalı və ya onu adını, nizamnaməsini dəyişdirib başqa məşğuliyyət tapmalıdır. Yəni, əvvəlcə, ümumən, yanaşmasının səmimiliyini göstərməlidir. Əminik ki, bunu etməyəcək. Çünki, o, xroniki erməni xəstəliyindən əziyyət çəkir. Deputatın diqqətə çatdırdığımız fikirləri bunun bariz göstəricisidir.

**Ə.RÜSTƏMOV**
**XQ**

**Ermənistan sanki ər evindən küsüb getmiş gəlindir, onun geri qayıtmasını istəyənlər var. Əlbəttə, gəlinin qohum-əqrəbaları da bu barədə söz açırlar. Obrazlı desək, ər evi isə Rusiyadır.**

Əlqərəz, Ermənistan parlamentinin spikeri Alen Simonyan bildirib ki, ölkəsi Avrasiya İqtisadi İttifaqının dekabrda keçiriləcək Sankt-Peterburq Sammitində iştirak etməlidir. Nəzərə alaq ki, sammit ərəfəsində MDB liderlərinin ənənəvi qeyri-formal görüşünün təşkili də planlaşdırılır.

Bir yandan, düşünmək mümkündür ki, İrəvan Moskva ilə son zamanlar yaranmış gərginliyi aradan qaldırmaq məqsədi güdür. Axı, Ermənistan üzvü olduğu və Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Belarusun paytaxtı Minskdə keçirilmiş toplantısında iştirakdan imtina

Bu yerdə Ermənistanın rotasiya qaydasında Rusiyanın hakim rol oynadığı KTMT-yə sədrliyini yada salaq. Qeyd edək ki, bu sədrlik 2022-ci ilə təsadüf etmişdi. Həmin vaxt rəsmi İrəvan quruma rəhbərliyini özünün anti-Rusiya və anti-Azərbaycan ritorikasının başlıca predmetinə çevirmişdi. Mövcud xüsusda 2022-ci ilin noyabrında KTMT-nin İrəvanda baş tutmuş sammitini yada salaq. Rusiya Prezidentinin də qatıldığı həmin tədbirdə baş nazir N.Paşinyan, faktiki olaraq, təşkilatı faydasız bir qurum kimi təqdim etmişdi. O çalışmışdı ki, KTMT 2022-ci ilin sentyabrında Azərbaycanla sərhəd gərginliyinə siyasi qiymət versin, bununla bağlı qərar

# Ermənistanın Aİİ-yə sədrlik oyunu

## yaxud "anti-KTMT ssenarisi"nin davamı



etməmişdi. Özü də məsələ, kifayət qədər, dramatik şəkil almışdı. Belarus Prezidenti Aleksandr Lukaşenko Paşinyana zəng edərək, necə deyərlər, onun başına ağıl qoymaq istəmiş, lakin niyyəti reallaşmamışdı. Görəsən, indi nə olub ki, vəziyyət dəyişib? Bəlkə İrəvan Moskva ilə durumu daha da kəskinləşdirməkdən vaz keçib? Yoxsa, ölkənin xarici siyasətində nələrsə dəyişib? Bu suallara cavab kontekstində bir vacib məsələni yazının son bölümündə diqqətə çatdıracağıq. Ancaq hələlik mövzu ilə bağlı digər məqamların üzərində dayanaq.

***

Qeyd edək ki, Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov hələ A.Simonyandan da əvvəl bildirmişdi ki, Ermənistan baş nazirinin dekabrın sonunda MDB dövlət başçılarının Sankt-Peterburqda keçiriləcək qeyri-rəsmi görüşünə gələcəyinə, habelə orada Avrasiya İqtisadi İttifaqının rəsmi sammitində iştirak edəcəyinə dair siqnal alıb. Maraqlıdır ki, Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu məsələdə Uşakov kimi nikbin görünmür. "Mənə elə gəlir ki, biz ümidlərə deyil, konkret faktlara söykənərək, reallığa əsaslanan mövqe formalaşdırmalıyıq. Gəlin, konkret hərəkətləri gözləyək, sonra onlara münasibət bildirəcəyik", – deyə M.Zaxarova dünənki ənənəvi brifinqində bildirib.

Ancaq Zaxarovadan fərqli olaraq, Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun açıqlaması müəyyən qədər ümidverici təsir bağışlayır. Hərçənd, o, jurnalistlərin sualını cavablandırarkən, dövlət başçısının iş cədvəlində N.Paşinyanla söhbətin hələ olmadığını vurğulayıb. Ancaq Peskov onu da bildirib ki, erməni baş nazirin MDB-nin dekabrın sonunda Rusiyada keçiriləcək qeyri-rəsmi sammitində iştirakı gözlənilir və bu, danışıqlar üçün əla fürsət olacaq. Belə qənaətə gəlirik ki, Uşakov nikbindir, Zaxarova inanmır, Peskov isə bir qədər də amiranə davranır. Sonuncu, təxminən, bunu deyir: Nikol görüşmək və danışmaq istəyirsə, Sankt-Peterburqa gəlsin.

Yenidən Ermənistan parlamentinin spikerinin fikirlərinə qayıdaq və bir məqama diqqət yetirək. O, ölkəsinin Avrasiya İqtisadi İttifaqının Sankt-Peterburq zirvəsində iştirak etməli olduğunu deyir. Yəni, məsələnin İrəvan üçün mötəbərliyi üzərində dayanır. Başqa sözlə desək, iştiraka Ermənistanın milli maraqları baxımından yanaşdığını ortaya qoyur. Ona da diqqət yetirək ki, Simonyan MDB dövlət başçılarının qeyri-formal görüşündən bəhs etmir. Sual olunur: erməni spiker nə üçün eyni vaxtda keçiriləcək iki toplantıdan birini əsas tutur? Səbəb çox sadədir. Çünki İrəvan rotasiya qaydasında Avrasiya İqtisadi İttifaqına sədrliyi öz üzərinə götürəcəkdir: "Biz Avrasiya İqtisadi İttifaqının sədr ölkəsi oluruq. Qərar (Rusiyaya getməklə bağlı -red.) hələ qəbul edilməyib, lakin mən şəxsən hesab edirəm ki, Aİİ-yə sədrlik üçün Ermənistan (qurumun sammitində – red.) iştirak etməlidir".

çıxarsın və yekunda KTMT ilə Bakı arasında hərbi gərginlik yaşansın. Lakin Nikol istəyini gerçəkləşdirə bilməmiş və həmin andan Ermənistan–KTMT ziddiyyətləri açıq müstəviyə çıxmışdı.

***

Şübhə yoxdur ki, Paşinyan indi də eyni addımı Avrasiya İqtisadi İttifaqı müstəvisində atmağa çalışacaq. Yəni, onun öz ölkəsinin quruma sədrliyini İrəvanın anti-Azərbaycan fəaliyyəti müstəvisinə gətirəcəyi birmənalıdır. Təşkilata sədrlik məhz buna görə vacibdir.

Əlbəttə, erməni iqtidarı onu da yaxşı bilir ki, istəyinin alınması, demək olar ki, mümkünsüzdür və özünün siyasi sərmayəsini məhz bu amilin üzərinə də yatırmağı düşünür. Deməli, Aİİ müstəvisində də Bakıya qarşı hansısa addım atmaq mümkün olmasa, habelə Ermənistanın fantastik təqdimata malik iqtisadi iddiaları gerçəkləşməsə, o zaman KTMT-ni gözdən salmaq üçün istifadə olunan "metodlar", daha doğrusu, manipulyasiyalar yenidən, bu dəfə Aİİ-yə qarşı dövriyyəyə girəcək. Müvafiq olaraq, qurumun Ermənistan üçün lazımsızlığı məntiqi qabardılacaq.

***

Bəli, yekunda Rusiyanın hakim rol oynadığı bütün platformaların mənasızlığı görüntüsünü formalaşdırmaq, Paşinyanın qarşısında duran ən mühüm vəzifədir. Buna görə A.Simonyan Sankt-Peterburq Sammitində iştirakı mütləq sayır. O, bunun üçün ümumi qərarın verilməsinin vacibliyindən danışsa da, tam aydındır ki, şəxsi fikri kimi irəli sürdüyü məsələ ətrafında artıq razılığa gəlinib. Erməni spiker heç də öz yanından bu barədə söz açmaz, əminliklə danışmazdı.

Çox güman ki, Rusiyada da Ermənistanın "niyyətindən" xəbərdardırlar. Bilirlər ki, İrəvan Aİİ-yə sədrliklə qurumun daxilinə, belə demək mümkünsə, saat mexanizmli bomba yerləşdirmək istəyir. Ona görə də M.Zaxarova məsələ barədə söz düşərkən, spektik danışır. Peskov isə Rusiya–Ermənistan dialoqu baxımından sırf MDB-nin qeyri-rəsmi sammitinə köklənir. Yəni, Aİİ-nin toplantısının adını çəkmir. Belə olduqda, maraqlı sual yaranır: Paşinyan, eyni zamanda, həm Aİİ-nin, həm də MDB-nin tədbirində iştirak edəcəkmi? Yaxud Nikol Qərbdəki "dostlarından" bu tədbirlərdən hansında iştirakın icazəsini alıb? Hələlik məsələ barədə söz açmaq çətin olsa da, ehtimal var ki, Nikolun MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak "imkanı olmayacaq", başqa "vacib işləri" çıxacaq. Axı, o, MDB Dövlət Başçıları Şurasının bu ilin oktyabrında Bişkekdə keçirilmiş iclasına qatılmamış və durumu işlərinin çoxluğu ilə "əsaslandırmışdı". İndi daha "vacib" işləri ola bilər. Məsələn, tam mümkündür ki, yeni il qabağı Paşinyanı evdə yolka bəzəmək kimi əlahiddə vəzifə gözləsin...

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Senatorlar və "paraşütçülər"

(əvvəli 1-ci səhifədə)

Televiziya kanalları Fransa senatının mövcud olmayan bir "dövləti" tanımaq barədə tələsik və biabırçı tövsiyyəsini xəbər verdi. "Euronews" bir fransız senatorunun boşboğazlığını ləzzətlə tamaşaçılara çatdırdı. Həmin senator "Azərbaycanın işğal etdiyi əraziləri dərhal azad etməsini" tələb edəndə istər-istəməz düşündüm: Bu cənab satın alınmış təxribatçıdır, ya başdan xarabdır?

Birdən-birə altmış il bundan qadaq oxuduğum mətn yadıma düşdü. Qəribədir ki, təkcə bu mətnin məzmunu və ruhu deyil, Romen Rollanın həmin mətnə epiqraf kimi verilmiş sözləri də xatirəmdə canlandı. Dəqiqləşdirmək üçün kitabxanamda "İnostrannaya literatura" jurnalının 1958-ci il 6-cı nömrəsini tapdım.

Bəli, belədir, Anri Alleqin "İşgəncəli istintaq" yazısına klassikin sözləri epiqraf qoyulub: "Rəzil fransızları ifşa edərkən mən Fransanı müdafiə edirəm" Romen Rollan. "Jan Kristof".

Onu da xatırladım ki, 1964-cü ildə Əlcəzairdə turist səfərində olarkən Azərbaycanlı qonaqlar, o cümlədən, ərəbşünas bacım Fidan həmin bu Anri Alleqlə də görüşüblər və o başına gələn müsibətləri, kitabında yazdığı kimi, onlara da danışıbdır.

İndi mən mərhum fransız jurnalistinin damarlarda qan donduran dəhşətli şəhadətnaməsini 62 ildən sonra yenidən oxuyuram. Bu şəhadətnamə Əlcəzair xalqının öz azadlığı uğrunda mübarizəsinə qarşı fransız müstəmləkəçilərinin necə vəhşiliklərə əl atmaları barəsindədir.

Namuslu fransız jurnalisti Anri Alleq öz qəzetində bu mubarizə haqqında həqiqəti yazdığı üçün cəlladların çənginə keçir və silahdaşlarını satmadığına görə görünməmiş işgəncələrə dözməli olur.

Cəlladların əlinə yeni keçənlər bir-birindən xəbər alırlar: "Çoxdan həbs olunmusan? İşgəncə veriblər? Kim, paraşütçülər, ya polislər"?

O uzaq illərdə ən qəddar işgəncələri verənlər "paraşütçülər" imiş.

"Bu ağzınacan dolu həbsxanada hər hücrə iztirablar məskənidir. Birinci mərtəbədə ölümə məhkumlar yerləşdiriliblər. Səksən nəfər dustaq, ayaqları qandallı. Gözləyirlər. Bəraət ya edam gözləyirlər. Hər axşam məhkumlar saman döşəklərində qovrula-qovrula qalır, düşünür ki, sabah onu nə gözləyir. Bəlkə, bu ömrünün son səhəri olacaq. Amma elə o ölümə məhkumların kamerasından qadağan olunmuş mahnılar səslənir – öz azadlığı uğrunda mübarizə aparan xalqın bağrından qopmuş gözəl mahnılar.

Gecələr işgəncəyə məruz qalanların dəhşətli bağırtılarını eşidirdim. Bu bağırtılar daim qulaqlarımda səslənəcək. İşgəncələrdən üzülmüş insanlar pıçıltıyla qədim ərəb duaları oxuyurdular".

Öz "sərgüzəştlərindən" də bəhs edən Anri Alleq özü tətbiq olunan işgəncələrin çeşidlərini göstərir. Döyülmək və alçaldılmaq, bədəninin müxtəlif yerlərinə sancılmış elektrik məftilləriylə buraxılan cərəyan, aclıq və susuzluq – cəlladların vəhşi fantaziyasının uydurduğu ən müxtəlif işgəncə növləri.

Bütün bunlar o ölkədə baş verir ki, əsr yarım bundan qabaq Azadlıq, Bərabərlik, Qardaşlıq şüarlarını irəli sürmüşdü.

Amma "paraşütçülər" bu bəlağətli sözlərə məhəl qoymurlar. Onlardan biri boğazını yırtır: "Bəli, – bura gestapodur. Sən bilirsən gestapo nədir? Sənin o fahişə respublikanı havaya sovuracayıq".

Çox-çox illər bundan öncə "Gecə düşüncələri"ndə yazmışdım: "Ən mütərəqqi insanların, düşünən və namuslu intellektualların da şüurlarında demokratik dəyərlərin yer tutması birmənalı məsələ deyil. Belə adamların beyinlərində Bərabərlik, Azadlıq və Demokratiya idealları imperiya sevdasıyla qaynayıb qarışır. Fransanın azadlıq və müstəqillik aşiqləri, alman işğalçılarına qarşı əlisilahlı vuruşan vətənpərvərlər bu ülvü amallarıyla bərabər, "Fransa Əlcəzairi" kimi müstəmləkəçi əqidəyə da sadiq idilər".



Belə olan surətdə "paraşütçülərdən" nə gözləyəsən? Onların əxlaqına, daha doğrusu, əxlaqsızlığına görə özlərinin nail olduqları müstəqillik müstəmləkələrə aid deyil: "Öz vətənimizlə qürur duymaq yalnız– bizim hüququmuzdur, kölə etdiyimiz yerli əhalinin – "tuzemetslərin" milli qürur hissi ola bilməz".

Doğrudanmı, fransız senatorları (onlar isə əksəriyyət imiş) elə bisavaddırlar ki, bilmirlər Azərbaycan Ermənistanın yox, Ermənistan Azərbaycan torpaqlarının 20 faizini zəbt edib. Azərbaycanın ərazi bütövlüyü isə bütün dünya, o cümlədən, Fransa tərəfindən tanınıb. BMT-nin erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması barədə dörd qətnaməsinə rəğmən Fransa Minsk qrupunun həmsədrlərindən biri kimi bu qətnamələrin yerinə yetirilməsi üçün heç bir əməli iş görməyib, yalnız uzun illər ərzində mənasız və nəticəsiz boş danışıqlarla başımızı qatıb. Guya ki, problemi sülh yoluyla həll etmək istədiklərini bəyan edərkən ermənilər bir tərəfdən "keçilməz" istehkamlar tikir, o biri tərəfdən tutduğu torpaqlarda yaşayış evlərini və memarlıq abidələrini, məscidləri və provoslav kilsələrini dağıdır, çoxəsrlik ağacları kəsir, meşələri yandırırdılar.

Fransız senatorları nə istədiklərini əməlli-başlı dərk edirlərmi? Onlar müzəffər ordumuzun azad etdiyi Azərbaycan torpaqlarından çıxmasını tələb etdikdə ağızları deyəni qulaqları eşidirmi?

O ki, qaldı xalqın öz müqqətdəratını həll etmək məsələsinə, erməni milləti Ermənistan Respublikasında öz müqqətdəratını artıq həll edib. Haçansa köçdüyün və məskən saldığın hər hansı yerdə öz müqəddəratını yenidən həll etmək nə deməkdir? Hələ bu kimdənsə qopartdığın, qamarladığın, mənimsədiyin torpaqlarda "müstəqil dövlət" qurmaq təşəbbüsü bir yana dursun.

Yəni, fransız senatorları bunu başa düşmür? Qətnamənin lehinə səs verən senatorların Qarabağ haqqında hansı bilgiləri var? Bilirlərmi ki, Qarabağın dağlıq hissəsi XIX əsrdə Azərbaycanın Qarabağ xanlığına daxil idi, sovet vaxtı isə Azərbaycan Respublikasının tərkibində muxtar vilayət idi.

Parisdə, Barışıq meydanında fransız vilayətlərinin simvolik heykəlləri ucaldılıb. Birinci cahan hərbində Kayzer Almaniyası Fransanın Elzas və Lotarinqiya əyalətətlərini ələ keçirəndə bu əyalətlərin heykəllərinin üstünü örtüblər. Ta İkinci Dünya müharibəsinin sonunda Fransa bu vilayətlərini geri alana qədər.

Bu gün Fransa və Almaniya Avropada cici-bacıdırlar. Karantinə qədər kansler Angela Merkel və Prezident Emmanuel Makron hər dəfə görüşəndə quc-quc, mac-mac öpüşürdülər. Niyə görə fransız senatorları öz hökümətlərinə tövsiyyə etmir ki, alman şəhəri Strasburqu alman bacısına qaytarsın, həm də Korsikanı müstəqil dövlət kimi tanısın. Qarabağdakı ermənilərdən iki-üç dəfə çox erməninin yaşadığı Marsel isə qədim erməni şəhəri elan olunsun.

Bax, ikili standartlar məsələsi burada zühur edir. Bəziləri üçün qətiyyən məqbul olmayan məsələ başqalarına asanlıqla təlqin edilir.

Senatorlar azad etdiyimiz torpaqlarda tarixi və dini abidələrin qorunmasının qeydinə qalırlar. Tutalım, Bakının mərkəzində erməni kilsəsinin sağ-salamat qalmasından xəbərləri yoxdur. Tutalım, Azərbaycanın bir sıra Avropa ölkəsində tarixi abidələrin, o cümlədən, xristian abidələrinin bərpası üçün ayırdığı vəsaitdən bixəbərdirlər. Qərb müxbirlərinin azad edilmiş Azərbaycan ərazilərindən çəkdikləri kadrları da görməyiblərmi? – Yerlə yeksan olunmuş şəhərlərimizi, kəndlərimizi, dağıdılmış və təhqir olunmuş məscidləri? Xarici dövlətlərin Bakıdakı diplomatları öz gözləri ilə görmür və ölkələrinə məlumat vermirlərmi ki, vandallar vaxtilə abad şəhərlərimizi nə günə qoyublar Xarabazara çevrilmiş Ağdam, Fizuli, Cəbrayıl… Qadağan olunmuş kaset bombaları ilə tar-mar olmuş Tərtər… Bu barədə bir şey eşitməyiblər? Əlbəttə, eşidiblər də, bilirlər də. Amma min əzab çəkmiş günahsız dinc əhali, yaralanmış insanlar, yaxınlarını, körpə uşaqlarını itirmiş valideynlərə bir kəlmə təsəlli sözü deməyə dilləri gəlmir bu "humanistlərin". Hərbi caniləri ittiham etməyi heç düşünmürlər də.

Qərbin ağıllı insanları (hansılar ki, əlbəttə daha çoxdur) nəhayət, anlayacaqlarmı ki, ikili standarlara aludəçiliyin sonu var. Və beyinləri yalançı təbliğatla doldurulmuş kütlələr bir gün qəzəb və qisas hissləri ilə alışacaqlar?

Söz azadlığı – hər bir normal insanın arzusudur. Amma bu ideyanın girovuna çevrilərək bayağı karikatürlərə haqq qazandırmaq olarmı? Dünyada yüz milyonlarla müsəlmanın ləyaqətini, qürurunu, müqəddəs duyğularını təhqir edən ucuz karikatürlər – söz azadlığının rəmzidir?

Əlbəttə, bütün vicdanlı insanlar məktəb müəlliminin qətlini hiddətlə qınayır. Amma axı həmin bu müəllim az yaşlı şagirdlərinə peyğəmbəri lağa qoyan pornoqrafik karikaturu nümayiş etdirirmiş. Söz azadlığı minlərlə günahsız insanın qanı bahasına təsdiq oluna bilməz. Söz azadlığının həmin o adı bədnam "Şarli Ebdo" dərgisində Suriyalı qaçqının – balaca uşağın meyitini lağa qoyan murdar şəklə dəxli yoxdur

Nə səbəbdən bəzi terror aktları, haqlı olaraq, məzəmmət olunur, amma eyni cür başqaları, məsələn, erməni terroristlərinin Parisin Orli hava limanında törətdikləri partlayış qisas kimi qələmə verilir (nəyin "qisası"– yüz il bundan əvvəl baş vermş faciəvi hadisələrin Orli sərnişinlərinə nə aidiyyatı var?).

Avropanın başbilənləri, intelektualları düşünürlərmi ki, hadisələrə ikili standarlarla yanaşmaq, ikili əxlaqla münasibət göstərmək dəhşətli nəticələrə gətirib çıxara bilər – həm Şərqdə həm də Qərbdə…

Yazımın sonunda Anri Alleqin mətnindən bir sitat da gətirim: "Qoy bilsinlər ki, əlcəzairlilər cəlladları böyük fransız xalqıyla eyniləşdirmirlər. Fransız xalqından çox şey öyrənmişik, bu xalqla dostluğumuzdan qürur duyuruq. Amma Fransa xalqı bilməlidir ki, onun adından cəlladlar nələr edir".

Gözəl sözlərdir. Mən də böyük fransız mədəniyyətinə – onun ölməz mütəfəkkürlərinə, şairlərinə, romançılarına, rəssamlarına dərin hörmət bəsləyirəm.

Onu da bilirəm və ona da inanıram ki, "paraşütçülərin" mənəvi varislərindən başqa, Anri Alleqin və bütün namuslu insanların Fransası da var. Və onlar – ədalətli fransızlar, senat əksəriyyətindən fərqli olaraq, bu xalqın böyük çoxluğunu təşkil edirlər.

***ANAR***

**29 noyabr 2020**



**Şəkildə: Soldan 3-cü Anri Alleq**

(əvvəli 1-ci səhifədə)

Bəzi ekspertlər Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin birbaşa sərhəddə imzalana biləcəyi versiyasını da irəli sürürlər.

**Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev sülh müqaviləsinin Azərbaycan və Ermənistanın qarşısında duran əsas vəzifə olduğunu bildirib:** "Ermənistan tərəfi cidd-cəhdlə danışıqların kiminsə vasitəçiliyi ilə aparılmasına çalışır. Hətta, baş nazir tərəfindən ABŞ, Fransa və Almaniyanın vasitəçiliyi ilə danışıqlara çağırışlar edilir. Biz dəfələrlə münaqişənin bitdiyini, əsas məsələnin sülh müqaviləsinin imzalanması olduğunu bildirimişik. Bu, Azərbaycan və Ermənistana aid məsələdir və sülhün əldə olunması hər iki ölkənin qarşısında duran vəzifədir".

Əslində, sülh müqaviləsinin imzalanmasında İrəvanın Bakıdan daha maraqlı olmasına diqqəti çəkən A.Nağıyev Azərbaycanın 5 prinsipdən ibarət sülh paketini Ermənistana təqdim etdiyini deyir: "Həmin prinsiplərlə onları dəfələrlə tanış etmişik. İndi Paşinyan da 3 prinsip məsələsini ortalığa atıb. Hamıya aydın oldu ki, regiondan min kilometrlərlə uzaqdakı vasitəçinin sülhün bərqərar olmasında iştirakı inanılmazdır. Sülh müqaviləsi yoxdursa, bölgədə iqtisadi, siyasi və digər proseslərin inkişafı üçün problemlər qalacaq. Amma sülh müqaviləsi imzalanmasa da, Azərbaycan diktə edən tərəf kimi daxili və xarici siyasətini aparmaqdadır".

Deputat sülh müqaviləsinin istənilən sərhəd rayonunda imzalanmmasını da mümkün sayır: "Sülh müqaviləsi istənilən rayonumuzda imzalana bilər. Ermənistan və onun havadarlarının sərhəddə görüşə razılıq verməsi əsas məsələdir. Çünki son zamanlar bir daha Ermənistanın müstəqil xarici siyasətinin olmadığı aşkar görünür. Bakı üçün sülh sazişinin harada imzalanmasının elə də böyük əhəmiyyəti yoxdur".



Politoloq E.Şahinoğlu hesab edir ki, yaradılacaq qrup sülh sazişinin mətni, eyni zamanda, sərhədin müəyyənləşdirilməsi və komunikasiyaların açılması üzərində işləməlidir: "Bu təqdirdə danışıqlardan irəliləyiş gözləməyə dəyər. Əks halda, danışıqlar üçün kənarda seçilən məkan yenə böyük güclərin maraqlarının kəsişmə nöqtəsi olacaq. Həmin vasitəçi dövlətlərdə qarşıdan gələn seçkiləri və aktorların başlarının daxili məsələlərə qarışacağını nəzərə alsaq, danışıqların bu formatı əlverişli sayılmır. İdeal variant birbaşa dialoqdur. Düzdür, Paşinyan bu cür üzbəüz təmaslardan ehtiyat edir. Amma onu da anlamamış deyil ki, sülh sazişinin imzalanmasının yubadılması, hər şeydən əvvəl, onun özünə və ölkəsinə zərər verəcək. Əgər o, Azərbaycan və Türkiyə ilə barışsa, sülhə nail olsa, tarixdə satqın kimi kimi deyil, "uğur hekayəsi"nə malik Hayastan rəhbəri kimi qala bilər. Artıq 2023-cü il başa çatır və sülhə bütün ümidlər yeni – 2024-cü ilə qalır. Yeni il sərhəddə keçiriləcək ilk görüşdə müəyyən irəliləyişin olacağını deyə bilərik".

# Sərhəddə görüş İrəvan üçün "test imtahanı"dır

## Ermənistanın gələcəyi Paşinyanın bu sınaqdan necə çıxacağından asılıdır



Əgər bu gün şərti sərhəddə nəzərdə tutulan ikitərəli təmas reallaşarsa, bu, Ermənistan və Azərbaycanın baş nazirlərinin müavinlərinin rəhbərlik etdiyi işçi qrupların beş aylıq fasilədən sonra beşinci görüşü olacaq.

* * *

Nikol Paşinyan ATƏT-in Parlament Assambleyasının İrəvanda keçirilən son iclasında dediyi "sülh sənədini imzalamağa hazırıq" ifadəsində səmimidirsə, onda Azərbaycanın sərhəddə görüş təklifini qəbul etməlidir. Əgər İrəvan bu təklifə, doğrudan da, səmimi yanaşarsa, bu zaman qısa müddət ərzində sual yaradan bir sıra məsələlər razılaşdırıla, hətta sülh müqaviləsinin ilkin çərçivə sazişi imzalana bilər.

Aydın məsələdir ki, pinsipial olaraq çərçivə sənədi imzalananda onun maddələrini hazırlamaq üçün müəyyən vaxta ehtiyac duyulur. Sərhəd xəttinin müəyyənləşməsi, onun delimitasiya və demarkasiyası vaxt aparan texniki məsələlərdir. Məhz bundan sonra sülh sazişi imzalanma mərhələsinə çatmış hesab olunur. Bu mərhələdə isə Ermənistan müstəqil subyekt olduğunu ortaya qoymalıdır. İrəvan siyasi iradə göstərərək, dövlətin maraqları çərçivəsində qərar qəbul edə biləcəksə, deməli, sərhəddə görüş baş tutacaq. Bunun özü qarşıda sülh müqaviləsinin imzalanacağına bir işarə sayılacaq. Əks-təqdirdə yaxın zamanlarda sülhün prespektivinə ümid etməyə dəyməz.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu artıq Azərbaycan və Ermənistan arasında vasitəçilərə ehtiyac qalmadığını bildirdi:** "Üç ildir onların təklifləri ilə keçirilən görüşlərdə heç bir nəticə əldə olunmadı. Bu təşəbbüslər keçmişdə ATƏT-in Minsk qrupunun fəaliyyətini xatırlatmağa başlayıb. Dörd-beş aydan bir baş tutan görüşlərin faydası da yoxdur. Böyük güclər – ABŞ, Fransa, yaxud Avropa İttifaqı, həmin Rusiya görüş təşkil edəndə digərləri mane olmağa çalışırlar, digərləri keçirəndə isə bu tərəf əleyhinə çıxır. İndiki mərhələdə sülh danışıqlarını sürətləndirməyin iki alternativi var. Birincisi, sərhəddə görüşdür. Amma, bu, o demək deyil ki, sabah baş tuta biləcək görüşdə biz dərhal müsbət nəticənin şahidi olacağıq. Əsas vasitəçisiz sülh dialoqunun başlanması, "tet-a-tet" müzakirənin aparılmasıdır. İkinci istiqamət isə Azərbaycan və Ermənistanın birgə işçi qrupunu yaratmasıdır. Bu qrupa hər iki tərəfdən səkkiz-on nəfər hüquqşünas, diplomat, xəritələrlə işləməyi bacaran mütəxəssislər cəlb edilməlidir. Optimal görüş yeri, məkan olaraq Gürcüstanın seçilməsi məqbuldur. Yəni, daimi əsasda müzakirələrə başlanılmalıdır".



* * *

Ölkəsini müstəqil və demokratik görmək arzusundan danışan Paşinyanın bu istiqamətdə müəyyən səylər göstərdiyi hiss olunmaqdadır. Amma bundan ötrü, hər şeydən əvvəl, konkret addımın atılması gərəkdir. Bu mənada, sərhəddə görüşün Ermənistan hakimiyyəti üçün ciddi imtahan olacağını söyləyə bilərik. Çünki həmin ikitərəfli görüşdən sonra İrəvan beynəlxalq rəyə "biz sülh istəyirik" saxta tezisini sırıya bilməyəcək. Mövcud reallıqda iki ölkənin baş nazirlərinin müavinlərinin başçılıq etdiyi işçi qrupların üzvlərinin Qazaxla Noyemberyan arasındakı sərhəd ərazisində görüşməsi mümkündür. Hətta bundan ötrü sərhədin özündə hər şeylə təchiz olunmuş müasir çadırlar açmaq olar. Yəni, Bakının sərhəddə görüş təklifindən boyun qaçırmaq üçün Ermənistanın əlində heç bir bəhanə qalmayıb.

Sənədin imzalanması üçün bir masa arxasında oturub təkbətək görüşün keçirilməsi başlıca şərtdir. Ona görə ki, bu formatlı görüşlər tərəflərdə biri-birinə qarşı etimad formalaşdırır. Ermənistan hakimiyyətində ikitərəfli dialoqun faydalılığına inam yaranmayanadək hətta imzalanacaq istənilən sülh sənədi icrası müşkül kağız parçasından başqa heç nə olmayacaq.

Mövzuya yekun olaraq onu da bildirək ki, ABŞ-ın eyni vaxtda həm Qafqazda, həm də Mərkəzi Asiyada güclənmək niyyətini nəzərə alsaq, Vaşinqton üçün Ukrayna cəbhəsində "məsafədən döyüşdüyü" Rusiyanı Cənubi Qafqazdan kənarlaşdırmaq planı gizli deyil. Fəqət bu regiona Azərbaycanın vizası olmadan daxil olmağın mümkünsüzlüyünü anlayan Ağ Evin başbilənləri Bakı ilə münasibətləri normallaşdırmaq məcburiyyətindədir. ABŞ-nin ATƏT-dəki səfiri Maykl Karpenterin bölgədə sülhlə bağlı dünənki açıqlamasına da məhz bu kontekstdən yanaşmaq daha doğru olar. Səfir Vaşinqtonun Cənubi Qafqazda bütün ölkələrin maraqlarına cavab verən münasibətlərin normallaşması səylərinə dəstək verdiyini vurğulayıb: "Biz Ermənistan və Azərbaycan rəsmiləri arasında görüşlərin keçirilməsi üçün işləri davam etdirəcəyik. Bunu qiymətləndirmək tərəflərin özlərindən asılıdır".

Bütün bu açıqlamaların fonunda ortadakı danılmaz reallıq ondan ibarətdir ki, ABŞ Cənubi Qafqazda Rusiyaya qarşı təsir dairəsini artırmağı düşünür. Onun son vaxtlar bu istiqamətdə, yəni Qafqaz "cəbhəsində" bütün cinahlardan "hücuma" keçdiyini söyləmək olar. Cənubi Qafqazın ən böyük ölkəsi isə Azərbaycandır. Vaşinqton Azərbaycansız Qafqazda möhkəmlənməyin çətin olacağını anlamağa məcburdur. Məhz bu səbəbdən Ağ Ev Bakı ilə öz günahı ucbatından itirməkdə olduğu əlaqələrini bərpa etməyə məhkumdur.

Gələn ay ABŞ Dövlət katibi Antoni Blinkenin köməkçisi Ceyms Obrayenin Bakıya icazəli səfəri gözlənilir. Vaşinqtonun artıq Bakıya qarşı sərgilədiyi yanlış mövqedən çəkinmə niyyəti aşkar hiss olunmaqdadır. Bunun iki ölkə arasındakı münasibətlərin normallaşmasına səbəb olub-olmayacağını Obrayenin səfərindən sonra görəcəyik. Adətən, Vaşinqtonun yüksək ranqlı nümayəndələri bizim bölgəyə ciddi təkliflərlə təşrif buyururlar. Görək bu dəfə hansı diplomatik "məhsulları" gətirəcəklər.

***İmran BƏDİRXANLI***
***XQ***

# 20 il: milli dövlətçiliyin yeni mərhələsinə doğru



## Fəlsəfi-sinergetik təhlil

### VIII məqalə

### Vitse-prezidentlik: uğurlu Azərbaycan nümunəsi

İlham Əliyev postsovet məkanında vitse-prezidentlik institutunu uğurla idarəetməyə daxil edən yeganə liderdir. Digər postsovet ölkələrindən də buna cəhd edənlərin olduğu məlumdur. Lakin onlar uğursuz oldu, müsbət nəticə vermədi, siyasi qarışıqlıq yaratdı. Azərbaycan Prezidenti isə zamanında, müstəqil dövlətçiliyə faydalı olan və idarəetmədə şəffalığı, səmərəliliyi, demokratikliyi daha da gücləndirən kontekstdə vitse-prezidentliyi müasir Azərbaycanın idarə edilməsi sisteminə daxil etmişdir!

Təcrübə göstərir ki, Mehriban xanım Əliyevanın Birinci vitse-prezident statusunda fəaliyyəti müstəqil dövlətçiliyin və demokratik idarəetmənin inkişafı üçün olduqca faydalıdır! Bundan başqa, söhbət faktiki olaraq Azərbaycanda şərti olaraq "vitse-prizedentlik institutu" adlana biləcək hadisədən gedir. Çünki Birinci vitse-prezidentin rəhbərliyi ilə bir neçə vitse-prezident də fəaliyyət göstərməlidir.

İdarəetmə baxımından burada yeni liderliyin vacib bir özəlliyini görmək olar. Prezident idarəetmə mexanizmini daha da təkmilləşdirir və onu faktiki olaraq istənilən böhranlı situasiyada çevik və səmərəli fəaliyyətə hazırlayır. Bununla siyasi müstəqillik baxımından vacib olan iki aspektin prosessuallığı və legitimliyi təmin edilmiş olur.

Birincisi, mövcud siyasi kursun davamlı olaraq reallaşması təmin edilir. Böhranlı vəziyyət yaransa, o halda vitse-prezidentlik qarşıya qoyulan məqsədlərə çatmaq üçün siyasi varislik əsasında idarəetməni davam etdirə bilər.

İkincisi, öncədən bu cür keçidin legitimliyi mövcud olduğundan belə dəyişiklik heç bir siyasi krizis yarada bilməz. Avtomatik olaraq, siyasi-idarəetmə legitimliyi təmin edilmiş olur.

Uğurlu milli liderin fəaliyyətində idarəetmədə bu kimi yeniliyi ziddiyyətsiz daxil etməsi onun liderlik sinerjisinin əhəmiyyətli aspektlərindən biridir. Çünki XXI əsrin gözlənilməz və sürətli geosiyasi, siyasi, təhlükəsizlik və s. dəyişiklikləri fonunda legitim hakimiyyətin davamlı fəaliyyəti məsələsi çox aktuallaşır. Həmin məqam indi dəbdə olan "siyasətin posthəqiqət" mərhələsində daha aktual görünür.

"Posthəqiqət" və ya "postdoğru" anlayışı son illər çox aktuallaşmış, "Brexit" və Donald Trampın prezident seçilməsi ilə siyasi leksikonda ön plana çıxan terminlərdən olmuşdur. Oksford lüğəti hətta onu 2015-ci ildə "ilin termini" adlandırmışdır. Siyasi idarəetmə və təbliğat baxımından burada başlıca məqam ondan ibarətdir ki, toplumda rəy və fikirlərlə manipulyasiya etməklə reallığa uyğun olmayan vəziyyət yarada bilər və bunu normal qəbul edərlər.

Deməli, hər hansı cəmiyyətdə süni manipulyasiyalarla legitimliyin qeyri-legitim obrazını və ya liderin qeyri-lider imicini yarada bilərlər. Bu cür fəaliyyətdə idarəetmə və liderlik sisteminin dayanıqlı və davamlı olması çox vacibdir. Müstəqil dövlətin lideri istənilən situasiyada idarəetməni təmin edə bilirsə, hər bir təbliğati manipulyasiyaya və ictimai rəyin süni dəyişdirilməsinə imkan vermirsə, uğurlu olur. Çünki ictimai rəyin süni dəyişdirilməsi faktiki olaraq "hiperreallıq" (Jan Bodriyar) yaradır ki, bu da kütlənin yanlış təsəvvürlərə qapılmasına imkan verir. Postsovet məkanında nümunə kimi hazırda Ermənistanda, Gürcüstanda və Ukraynada mövcud vəziyyəti göstərə bilərik. Bu ölkələrin hər birində (onlardan ikisi Azərbaycana dostdur) nizamlı olmayan və dayanıqlığının davamlılığı suallar doğuran vəziyyət mövcuddur.

Belə çıxır ki, əslində, idarəetməyə yeni elementlərin və ya onlardan bir neçəsinin daxil edilməsi incə siyasi liderlik tələb edir. Və bu özəlliyin əhəmiyyəti XXI əsrdə daha da artmışdır.

> *Lider həssaslıq nümayiş etdirəndə və insanları birləşdirəndə komanda qalib gəlir.*
>
> *Hivard ŞULTS*

Aydındır ki, vurğuladığımız aspektdə idarəetmənin dayanıqlığı və şəffaflığı legitimlik kontekstində digər şərtlərin də ödənməsini tələb edir. Onların sırasında toplumun birliyi və bütövlüyünü təmin etmək xüsusi yer tutur. Yeni uğurlu liderliyin siyasi sinerjisində bu faktor əsasdır. Hətta, deyə bilərik ki, toplumun birliyi "daxili və xarici siyasətin prioritetlərinin kəsişdiyi aktual siyasi məkan"dır. İlham Əliyev nümunəsində bu məsələ Prezidentin "Dəmir yumruq", "biz birlikdə güclüyük!" və siyasi dialoq proqramları prizmasında daha da aktuallaşmış olur.

### Multikulturalizmin sosial sinerjisi

Tarixdə siyasi liderlərin çox maraqlı və müdrik kəlamları olmuşdur. Onların sırasında yalnız türk dünyasının deyil, bütövlükdə dünyanın diqqətini çəkmiş kəlamları olan Mustafa Kamal Atatürk və Heydər Əliyev də vardır. XXI əsrin çox mürəkkəb, ziddiyyətli və ümumilikdə "idarəolunan xaos" mərhələsində siyasi müdrikliyi çətin bir missiyadır. Üstəlik, müdrikliyi konkret kəlamlarda, tezislərdə və formullarda ifadə edə bilmək ayrıca yüksək şəxsi keyfiyyətlər tələb edir. İlham Əliyev artıq sübut etmişdir ki, yeni müdrik siyasi liderdir. Azərbaycan Prezidentinin bununla bağlı kəlamları çoxdur. Onlardan yalnız ikisinə – məşhur "dəmir yumruq" və "biz birlikdə güclüyük!" kəlamlarına siyasi sinerji kontekstində baxaq.

Öncə onu vurğulayaq ki, İlham Əliyev azərbaycançılıq çərçivəsində multikultural dəyərlərin cəmiyyətdə oturuşması üçün səmərəli proqramlar həyata keçirmişdir. Azərbaycan vətəndaşları, xüsusilə gənclər hiss etmişlər ki, dövlət etnik mənsubluğundan asılı olmayaraq hər kəsə "eyni gözlə baxır". Bu, müasir cəmiyyətlərdə dövlətçilik baxımından çox mühüm faktordur. "Dəmir yumruq" və "Biz birlikdə güclüyük!" kəlamları bu siyasətin birbaşa məntiqi nəticəsidir.

"Dəmir yumruq" 44 günlük Vətən savaşı zamanı ifadə edilmişdir. Onun rəmzi mənası Azərbaycan toplumunun, xalqının yumruq kimi bir ideal ətrafında birləşməsi ilə bağlıdır. Bu ideal Azərbaycan dövlətçiliyi, Azərbaycan müstəqilliyi və azərbaycançılıqdır! Onun da iki aspekti vardır. Birinci aspekt cəmiyyətdə dövlətçilik ətrafında həqiqi həmrəyliyin formalaşmasıdır. İkinci aspekt Azərbaycan konsepti və milli müstəqil dövlətçilik ətrafında hakimiyyət–cəmiyyət (oxu: lider–xalq) birliyinin təminidir.

Bu iki aspekt vəhdət halında Azərbaycanın dövlət, xalq, hakimiyyət və vətəndaş olaraq "dəmir yumruq" kimi birləşdiyini ifadə edir. Dövlət, xalq, hakimiyyət və vətəndaş münasibətləri aspektində "dəmir yumruğun" fəlsəfi-sinergetik mənası olduqca maraqlıdır.

Müasir fəlsəfədə, ümumiyyətlə, sosial mühitdə vəhdət məsələsi çox müzakirə edilir. Xüsusilə, məsələnin dövlətçilik kontekstində qoyuluşu dərin izahlar tələb edir. Əlbəttə, fərqli baxışlar vardır və bu da təbiidir. Lakin real olaraq cəmiyyətdə birliyi təmin etmənin praktiki sübutu artıq konkret fəaliyyət tələb edir. XXI əsrin gerçəklikləri onu da aktuallaşdırır ki, milli lider fəaliyyətinin bütün sahələrinin ahəngdarlığı sayəsində vəhdətə nail olursa, bu, qalıcıdır və uğur sayıla bilər. İlham Əliyev həmin nəticəyə çox çətin, risklərlə dolu sosial-siyasi vəziyyətdə nail oldu.

Liderin xüsusi böhranlı vəziyyətlərdə toplumun bütövlükdə birliyini təmin etməsi onun yüksək liderlik qabiliyyətinin göstəricisidir. Bu məqam, xüsusilə "posthəqiqətlər" dövründə strateji əhəmiyyət kəsb edir. D.Tramp onun öhdəsindən gələ bilmədi. Postsovet məkanı ölkələrində milli liderin toplumu birləşdirə bilməsi məsələsi hələ də müzakirə mövzusudur. Münaqişələrin mövcud olduğu ölkələrdə bu məsələ daha kəskin xarakter almaqdadır.

Azərbaycanda isə dövlət başçısı–lider "dəmir yumruq" ifadəsini işlətdi və bütün cəmiyyət onun doğruluğunu, həqiqiliyini davranışı ilə sübut etdi! Deməli, İlham Əliyev praktiki olaraq "dəmir yumruğ"u yaratmışdır. Bu, Prezidentin siyasi sinerjisinin əsas punktlarından biridir!

İlham Əliyev daha dərinlərdə birliyi motivə edən faktoru da sadə və effektli ritorika ilə Azərbaycan cəmiyyətinə çatdırdı. Bu, vaxtında deyilmiş "Biz birlikdə güclüyük!" kəlamıdır! "Biz birlikdə güclüyük!" kəlamının semantikası "dəmir yumruğ" yaradır. Onlar sintez halında isə liderliyin yeni məqamlarının siyasi sinerjisinə təkan verir. Onların harmoniyasının məzmununda təminedici rol oynayır. Çünki bu kəlamlar, bütövlükdə, cəmiyyətdə müasir çağırışlara cavab verən həmrəylik formalaşdırır. Bu formul hazırda topluma o dərəcədə nüfuz etmişdir ki, heç bir təbliğati manipulyasiya mövcud əhval-ruhiyyəni poza bilməz. Azərbaycan faktiki olaraq müstəqil dövlətin kənardan olan təsirlərə müqavimət formulunu ortaya qoymuşdur! Bu prosesdə həmrəyliyin digər mühüm komponenti olan siyasi dialoq çox ciddi rol oynayır.

### Prezidentin inamlı və səmərəli proqramı

Ümumilikdə "dialoq" məsələsi müasir fəlsəfədə çox aktualdır və ona maraq böyükdür. Cəmiyyətin bütün sferaları arasında birliyə xidmət edən münasibətlərin formalaşmasının yolu dialoqdan keçir.

Multikultural dəyərlərin mövcud olduğu şəraitdə isə dialoq strateji mahiyyət kəsb edir, onun funksional missiyası daha aktual xarakter alır. Bu zaman dialoqun səmərəli və uğurlu formulu önəm kəsb edir. Həmin kontekstdə müasir fəlsəfədə Y.Habermas, N.Luman, M.Haydegger və digərlərinin maraqlı fikirləri vardır. Onlar, bütövlükdə, Qərb cəmiyyətlərində və dövlətlərarası münasibətlərdə inteqrasiya məsələsini aktual sayır və ona nail olmağın üsullarından bəhs edirlər. Lakin hələlik hər kəsin qəbul etdiyi və real olaraq həyata keçən formul tapılmamışdır. Bunun əyani təzahürü Avropa İttifaqının hazırda yaşadığı mövqe birliyində və sosial inteqrasiyada çətin vəziyyətdə olmasıdır. Y.Habermas millətlərüstü inteqrasiyadan danışır, lakin hələ bu nəzəriyyə olaraq qalır. Onun real nəticələri yoxdur!

Azərbaycanda isə İlham Əliyev ardıcıl surətdə və davamlı olaraq daxildə siyasi dialoq modeli konsepsiyasını hazırlamış və onu addım-addım, mərhələli şəkildə reallaşdıran milli lderdir.

Məsələyə bir qədər yaxın keçmişimizdə mövcud olmuş vəziyyətdən baxmaq lazımdır. Azərbaycanda keçən əsrin 90-cı illərinin əvvəllərində siyasi mühitin son dərəcədə radikallaşdığı və hətta kriminallaşdığı məlumdur. Ulu öndər həmin dağıdıcı prosesi dayandırdı və onu hüquqi, sivil siyasi rəqabət müstəvisinə yönəltdi. Bununla yanaşı, postsovet ölkələri təcrübəsi göstərir ki, XXI əsrin gəlişi ilə kənardan müxtəlif bəhanələrlə (məsələn, "rəngli inqilablar" və ya "sovet dəyərləri ən yaxşısıdır" şüarı adı altında siyasi qüvvələrdən "SSRİ-nin bərpası"nı aktuallaşdırmağa çalışanların aktivləşdirilməsi və s.). Bu kimi siyasi tələlərə keçmiş sovet respublikalarından düşənlər oldu və indi də onlar ziddiyyətlər içində vurnuxurlar.

Digər tərəfdən, müstəqilliyini əldə etmiş ölkələrdə siyasi partiyaların dialoqunun təşkili olduqca aktuallaşmışdır. Bu bağlılığa da Azərbaycan təcrübəsinə dərindən nəzər salmaq faydalı olardı.

(ardı var)

*Füzuli QURBANOV,*
*"Xalq qəzeti"nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

---

## Naxçıvan xəbərləri

### Bələdiyyələrin fəaliyyəti müzakirə olunub





**Naxçıvanda bələdiyyə sədrlərinin, mərkəzi və yerli icra hakimiyyəti orqanları rəhbərlərinin iştirak etdiyi müşavirədə özünüidarəetmə qurumlarının fəaliyyətindəki problemlər və onların həlli yolları müzakirə olunub.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bələdiyyələrin işində müşahidə olunan problemləri diqqətə çatdıraraq, onların həllinin vacibliyini qeyd edib. O bildirib ki, Naxçıvan ölkənin ümumi inkişaf tendensiyasının önəmli parçasıdır. Ancaq köhnə, düzgün olmayan idarəetmə qaydası bu inkişaf prosesinin sürətlə aprılmasına mane olur. Ona görə də hər bir qurum öz idarəetmə sisteminə yenidən baxmalı, fəaliyyətində hesabatlılıq və maliyyə şəffaflığını təmin etməlidir. Səlahiyyətli nümayəndə vətəndaşların müraciətlərinə baxılmasında şəffaflığın təmin olunması, qanunazidd hallara qarşı tədbirlərin görülməsi, vətəndaşlarla münasibətdə daha diqqətli olmağın zəruriliyinə də toxunub.

Naxçıvan Muxtar Respublikasının ədliyyə nazirinin müavini Hüseyn Səfərov bələdiyyələrlə işin qurulması qaydaları və bu sahədəki mövcud vəziyyətdən bəhs edib. O söyləyib ki, bələdiyyələr vətəndaşlarla işi düzgün qurmur. Xüsusilə torpaqların icarəyə və mülkiyyətə verilməsi, yerli vergilərin yığılması, yaşayış məntəqələrində təmizliyə riayət olunması və tullantıların idarə olunması ilə bağlı ciddi problemlər mövcuddur.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli bələdiyyələrin fəaliyyətindəki mövcud problemlərin, yol verilmiş nöqsanların aradan qaldırılması ilə bağlı görüləsi işlərdən danışıb.

Sonra bələdiyyə sədrlərinin fikirləri dinlənilib, müraciətlər qeydə alınıb.

Müşavirədə problemlərin həlli istiqamətində müvafiq tapşırıqlar verilib. Bildirilib ki, problemlərin həlli istiqamətində bütün imkanlardan istifadə edilməli və mütəmadi olaraq seçicilər qarşısında hesabatlar verilməli, verilən tapşırıqların icrası üzrə monitorinqlər aparılmalıdır.

### Dövlət qurumları tenderlər elan edib

**Muxtar respublikanın dövlət qurumları infrastruktur layihələri ilə bağlı açıq tenderlər elan ediblər.**

Bildirilir ki, yaxın günlərdə dövlət satınalmalarının vahid internet portalında bir neçə yeni layihənin satınalma elanları verilib. Eyni zamanda bir sıra internet saytlarında da həmin layihələrlə bağlı müvafiq məlumatlar yerləşdirilib. Satınalmalarda iştirak etmək istəyən investorlar https://etender.gov.az/ saytına daxi olub, satınalma şərtləri ilə tanış olaraq, müsabiqədə iştirak edə bilərlər.

Ümumilikdə isə 2023-cü il ərzində Naxçıvan Muxtar Respublikasının dövlət qurumları tərəfindən aqrar sektorun, təhsil, mədəniyyət, səhiyyə sahələrinin, müxtəlif rabitə və digər telekommunikasiya xidmətlərinin hərtərəfli inkişafı istiqamətində 32 sosial-infrastruktur layihəsi üzrə açıq tender elanı verilib. Qısa müddətdə 80-ə yaxın şirkət həmin satınalmalarda iştirak etmək üçün təkliflərini dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim edib.

Hazırda 15-ə yaxın layihə üzrə satınalma müsabiqəsi tamamlanıb, nəzərdə tutulan işlərin həyata keçirilməsi ilə bağlı layihələndirmə və ya tikinti-qurasdırma işlərinə başlanılması planlaşdırılır. Bu layihələr "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın və bu sənədin 2023–2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planınında əksini tapıb. Həyata keçiriləcək layihələr muxtar respublikanın hərtərəfli müasir inkişafına, vətəndaşların həyat səviyyəsinin, sosial vəziyyətinin yaxşılaşdırılmasına, əlverişli biznes mühitinin formalaşdırılmasına, innovativ inkişafa şərait yaradacaq, qədim diyarın simasının əhəmiyyətli dərəcədə dəyişərək tərəqqi çalarları almasında mühüm rol oynayacaq.

*XQ*

# “Azərbaycan hər şeyə sahib olmaq iqtidarında, Ermənistan isə hər şeyi itirmək riski ilə üz-üzədir!”

**“Caliber.az” saytının siyasi təhlilçisi və eksperti Orxan Amaşovun ABŞ Dövlət Departamentinin keçmiş xüsusi müşaviri Pol Qoblla müsahibəsi**

(əvvəli ötən sayımızda)





**– 907-ci düzəlişdən Bakıya təsir aləti kimi istifadə etmək barədə siz nə düşünürsünüz? Bu düzəlişin 90-cı illərdə və 2000-ci illərin əvvəllərində Azərbaycan üçün müəyyən əhəmiyyəti var idi. Amma indi Azərbaycan hərbi potensialını və iqtisadi mövqeyini xeyli artırıb. Necə bilirsiniz, bu düzəliş – ABŞ-ın qəbul etdiyi bu qərar Bakıya təsir etmək üçün effektiv alətdirmi?**

– Bu düzəlişin funksionallığı mənasını itirib. Bundan imtina edib-etməmək məsələsi də böyük əhəmiyyət kəsb etmir. Bizdə hələ də postsovet ölkələrindən miqrasiyaya təsir edən, artıq aktual olmayan tarixi düzəlişlər var. Biz tez-tez görürük ki, siyasət çox iş gördüyümüz üçün deyil, heç kimin təşəbbüsü ələ almaq istəmədiyi üçün dayanır. Düşünürəm ki, 907-ci düzəliş Vaşinqtonla Bakının bir-birini başa düşməsində əsas rol oynayır.

> **– Prezident Əliyev bir dəfə demişdi: o, nəyi və nə vaxt edəcəyini bilir. Siz necə bilirsiniz, o, nəyi, nə vaxt edə bilən adamdırmı?**
> **– Düşünürəm ki, o, bu məsələdə diqqətəlayiq bacarıq nümayiş etdirdi. Zamanla hamımız belə bir fikrə gələ bilərik ki, necəsə fərqli hərəkət edə bilərdik, nəyisə fərqli deyə bilərdik. Amma Əliyevin belə bir fikir söyləməsi faktı onun geosiyasi reallıqlara uyğun düşüncəsini ortaya qoyur və ümid edirəm ki, o, elə bu ruhda da davam edəcək.**

> **– Bu düzəlişin (907-ci) funksionallığı mənasını itirib. Bundan imtina edib-etməmək məsələsi də böyük əhəmiyyət kəsb etmir. Bizdə hələ də postsovet ölkələrindən miqrasiyaya təsir edən, artıq aktual olmayan tarixi düzəlişlər var. Biz tez-tez görürük ki, siyasət çox iş gördüyümüz üçün deyil, heç kimin təşəbbüsü ələ almaq istəmədiyi üçün dayanır. Düşünürəm ki, 907-ci düzəliş Vaşinqtonla Bakının bir-birini başa düşməsində əsas rol oynayır.**

**– Hazırki mənzərə çox mürəkkəbdir. Danışıqlar dayandırılıb. Brüssel prosesinin dayanmasının səbəbi isə onların Qarabağ erməniləri məsələsinə çox önəm verməsidir ki, bu da Bakının xoşuna gəlmir. Moskva platforması da işləmir, çünki Ermənistan ora getmək istəmir. Görünür, yeganə çıxış yolu tərəflər arasında birbaşa danışıqlardır.**

– Bəli, əvvəldən belə idi.

**– Bəli, lap əvvəldən – 90-cı illərin əvvəllərindən. Siz həmişə ikitərəfli danışıqlara inanmısınız. Azərbaycan Gürcüstanda və ya ola bilsin ki, sərhəddə ikitərəfli danışıqlara ciddi yanaşmaq fikrindədir. Bakının mövqeyi ondan ibarətdir ki, biz bütün bu məsələləri regionumuz daxilində həll etməliyik. Bu günlərdə Prezidentin köməkçisi Hikmət Hacıyev “X”-dakı səhifəsində yazıb ki, Azərbaycan sülh müqaviləsinin beşinci variantını göndərib və Ermənistan tərəfdən cavab gözləyir. Amma görünür, Ermənistan ikitərəfli danışıqlarda iştirak etmək istəmir. Ola bilsin ki, mənim şəxsi fikrimdir, səhv edə bilərəm. Amma Ermənistan istəyir ki, danışıqlarda daha kimsə iştirak etsin, məsələn, onu müdafiə edə və dəstəkləyə biləcək Fransa. Mənim sualım belədir: ikitərəfli danışıqların perspektivləri necədir və sizcə, bu prosesə nə mane olur?**

– Artıq sizin qeyd etdiyiniz kimi, mən lap əvvəldən birbaşa danışıqların tərəfdarı olmuşam. Mən həmişə hesab etmişəm ki, problemin həllində beynəlxalq iştirakçıların olması ideyası, çətin ki, bu vəziyyətdə kömək etsin. Bəli, əgər tərəflər buna cəhd etsəydilər, heç nə alınmazdı. Hesab edirəm ki, Azərbaycan və Ermənistanın başqa iştirakçıları cəlb etmədən birbaşa ikitərəfli danışıqların aparılması ilə bağlı tamamilə fərqli baxışları var. Bu, təəccüblü deyil. Ermənistan çox zəifdir, ona görə də haradan imkan varsa, dəstək almağa çalışır. Əgər Azərbaycan Zəngəzur dəhlizini ələ keçirmək istəsəydi, elə sabah bunu edərdi. Doğrudur, bu, beynəlxalq miqyasda çox baha başa gələcəkdi, lakin Rusiya tərəfinin hərbi reaksiyasına səbəb olmayacaqdı. Ancaq mən bunu dəstəkləmirəm.

Realllıq ondan ibarətdir ki, Azərbaycan yerdə faktlar yarada bilər, Ermənistan isə yox. Ona görə də təəccüblü deyil ki, Ermənistan danışıqlara təkbaşına – heç bir dəstək olmadan getmək istəmir. Azərbaycan danışıqlar apara bilər, çünki istənilən halda öz iradəsini yeridə bilər. Bu, Bakı və ya İrəvanın hansısa sui-qəsdi və ya hesablaması yox, sadəcə beynəlxalq geosiyasətin necə işləməsinin sadə məntiqidir.

Əslində, fərdi problemlərin səs-küyündən uzaqlaşmaq üçün münaqişələr haqqında düşünmək lazımdır. Böyük hərbi imkanlara malik olan ölkə ilə, bundan məhrum olan ölkə haqqında düşünmək əslində, faydalıdır. Yaxud birinin iqtisadiyyatı inkişaf edir, digərinin isə yox. Necə bilirsiniz, onlar necə davranmalıdırlar? Məsələn, mən əminəm ki, onlar da Azərbaycan və Ermənistanın davrandıqları kimi davranacaqlar. Bu, hökumətdə işləyən insanlardan asılı deyil. Bu, beynəlxalq sistemin necə işlədiyini göstərən dərin bir strukturdur. Ermənistan və Azərbaycan özlərini başqa cür aparsalar, təəccüblənərdim.

Son illər yazılarımda çatdırmağa çalışdığım şey, geri addım atması və çox uzağa getməməsinə görə Azərbaycanı tərifləməkdir. Necə də ağıllı hərəkət idi. Çünki bu, əks nəticə verərdi. Mən Azərbaycanın gedişlərini təqdir edirəm, çünki hər şeyi bir anda ələ keçirməyə çalışmaqdansa, yavaş-yavaş irəliləyib məqsədlərinə diqqətlə nail ola bilir. Düşünürəm, 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri Stepanakerti (Xankəndi – red.) ələ keçirsəydi, bu 100 min erməninin Ermənistana qaçmasına səbəb olardı ki, bu halda, Bakı üçün nəticələr mənfi olardı. Bundan əlavə, hadisələrin belə inkişafı ilə Rusiya və Amerika Ermənistanı dəstəkləyəcəkdi.

> **“Son illər yazılarımda çatdırmağa çalışdığım şey, geri addım atması və çox uzağa getməməsinə görə Azərbaycanı tərifləməkdir. Necə də ağıllı hərəkət idi. Çünki bu, əks nəticə verərdi. Mən Azərbaycanın gedişlərini təqdir edirəm, çünki hər şeyi bir anda ələ keçirməyə çalışmaqdansa, yavaş-yavaş irəliləyib məqsədlərinə diqqətlə nail ola bilir.”**

**– Prezident Əliyev bir dəfə demişdi: o, nəyi və nə vaxt edəcəyini bilir. Siz necə bilirsiniz, o, nəyi, nə vaxt edə bilən adamdırmı?**

– Düşünürəm ki, o, bu məsələdə diqqətəlayiq bacarıq nümayiş etdirdi. Zamanla hamımız belə bir fikrə gələ bilərik ki, necəsə fərqli hərəkət edə bilərdik, nəyisə fərqli deyə bilərdik. Amma Əliyevin belə bir fikir söyləməsi faktı onun geosiyasi reallıqlara uyğun düşüncəsini ortaya qoyur və ümid edirəm ki, o, elə bu ruhda da davam edəcək.

**– Bu yaxınlarda ABŞ Konqresində keçirilən dinləmələrdə Ceyms O`Brayana Rusiyanın sanksiyalardan yayınmasında Ermənistanın rolu ilə bağlı sual verilib. O`Brayan isə bu suala cavab olaraq sərhədlərinə nəzarət edə bilmədiyini əsas gətirərək, Ermənistanı müdafiə etməyə başlayıb. Xatırlayıram ki, Paşinyandan əvvəlki Ermənistanın sanksiyalardan yayınmaqda İrana kömək etdiyinə dair ehtimallar mövcud olanda, İrəvana qarşı çox yumşaq davrandılar. Amma söhbət Azərbaycana gələndə ton dərhal dəyişir: məsələn, Bakının İran üzərindən yol çəkmək planı süngü ilə qarşılanır. Aydın görünür ki, Vaşinqtonun mövqeyi və ümumiyyətlə, Qərbin ümumi mövqeyi ondan ibarətdir ki, onlar Ermənistanla bağlı hər hansı məsələdə güzəştə gedirlər, ancaq Azərbaycanla bağlı olanda tələblər irəli sürürlər. Mənim mühakimələrimlə razısınızmı?**

– Düşünürəm, hansısa səviyyədə, bəli, bununla razıyam. Ümumiyyətlə, sual verməyə dəyər: niyə məhz belə olur? Amerikalılar tarixən həmişə münaqişədə zəif tərəfin yanında olublar və bu, Amerika təfəkkürü ilə bağlı olub. Biz münaqişələrin zəif iştirakçılarını qurban kimi qəbul edir, onların halına acıyırıq. Bu, təkcə Ermənistana münasibətdə deyil, hər yerdə belə olub. Azərbaycanın gücünü nəzərə alsaq, onu zəif ölkələrdən daha yüksək səviyyədə qəbul etmək lazımdır. Məncə, bu doğrudur. Azərbaycan öz sərhədlərinə Ermənistandan daha yaxşı nəzarət edir. Düşünürəm ki, bunun Amerikanın mövqeyi ilə hər hansı bir əlaqəsi var. Bu, obyektiv reallıqdır. Əgər bu belədirsə, o zaman insanlar, məsələn, guya, sanksiyalardan yan keçən Azərbaycandan mal axınına daha çox tənqidi yanaşacaq, bunu daha çox tənqid edəcəklər. Amma sərhədlərinə nəzarət etməyən zəif dövlət eyni şeyi edəndə, bu adamları az maraqlandırır. Məsələ bundadır. ABŞ-ın Azərbaycana biganə qaldığını düşünmürəm. Düşünürəm ki, Bakıda insanların düşündükləri kimi, Vaşinqton vurğunu Azərbaycandan Ermənistana dəyişib. Mən hesab edirəm ki, Vaşinqton həm Ermənistan, həm də Azərbaycanla yaxşı münasibətlər saxlamaq istəyir və bu, ABŞ üçün vacibdir. Vaşinqton karbohidrogenlərin Xəzər regionundan Qərbə ixracında maraqlıdır, məsələn, “Əsrin müqaviləsi”ni xatırlayaq. Düşünürəm ki, ABŞ siyasəti Fransa siyasətinə bənzəsin.

Gəlin bir şeyə də aydınlıq gətirək: çoxlu sayda konqresmen amerikalı ermənilər tərəfindən seçilib. Konqresdə azərbaycanlıların seçdiyi qanunvericilər çox azdır. Bu, azərbaycanlıların haqqında çox danışdıqları erməni lobbisi deyil, sadəcə, hər şey belə qurulub. Belə hallara dünyanın hər yerində rast gəlmək olar. Bir vaxtlar üzərində işlədiyim Amerikanın Baltikyanı siyasətini başa düşmək çətindir. Yəqin, siz bilmirsiniz ki, ABŞ Estoniya, Latviya və Litvanın müstəqilliyini 1922-ci ildə – inqilabdan 5 il sonra tanıyıb, çünki Henri Kabot Lodja yenidən Senata seçilməyə hazırlaşırdı və Litva əsilli amerikalıların səsinə ehtiyacı var idi. Estoniya, Litva və Latviya 1940-cı ilə qədər Sovet İttifaqı tərəfindən işğal olunana qədər müstəqilliklərini saxlaya bildilər. O zaman Franklin Ruzvelt üçüncü dəfə prezidentlik müddətinə seçilirdi və Litva əsilli amerikalılara ehtiyacı vardı. Çünki onlar Estoniya və Latviya mənşəli amerikalıları üstələyirdilər. Düşünürəm ki, bütün bu məqamlar xüsusi bir qəsdin yox, ümumi modelin bir hissəsidir. Ona görə də bunu başa düşməliyik.

**– Bilirsinizmi, ABŞ Konqresində keçirilən dinləmələrdə Ceyms O'Brayan 20 sentyabr antiterror tədbirlərindən əvvəl və sonra burada yaşamış Qarabağ ermənilərinin taleyi ilə məşğul olacaq xüsusi istintaq orqanının yaradılmasının zəruri olduğunu söylədi. Azərbaycanlıların çoxu deyir ki, yaxşı, araşdırın və hesabat verin: Bəs onda niyə Ermənistandan və Qarabağdan qovulmuş azərbaycanlılarla bağlı oxşar qurum yaratmadınız? Azərbaycan cəmiyyətində belə bir fikir formalaşıb ki, Vaşinqtonun yanaşması ermənilərə fokuslanıb və bu cür ermənipərəst mövqe əks effekt verir.**

– İnsanların niyə belə düşündüyünü anlayıram. Mən səbəbləri başa düşürəm. Demək istərdim ki, Azərbaycan cəmiyyətində mövcud olan tendensiyaya görə, amerikalılar Ermənistan–Azərbaycan prosesinə məxsusi baxırlar. Amerikalıların azərbaycanlılara münasibəti məhz belədir. Mənim fikrim odur ki, bu cür mübahisələrə ABŞ-ın ümumi yanaşması belədir. Onlar, adətən, qurbanların tərəfini tutmağa çalışırlar. Əgər biz 90-cı illərə qayıtsaq və ABŞ Konqresinin bir iclasında özümüzü görsək, yüz minlərlə azərbaycanlının Qərbi Azərbaycandan qovulması ilə bağlı çoxlu tənqidlər eşidərdik. Belə bir dinləmədə hamı narahatlığını ifadə edər və problemi həll etməyə çalışardı. Bunu unutmaq olmaz. İndi isə belə bir tendensiya var ki, heç vaxt belə olmayıb. Yox! Olub. Beş dəqiqə əvvəl baş verənlərə və çoxdan baş verənlərə insanların reaksiyası necə olardı? Bu o demək deyil ki, mən sizinlə razı deyiləm. ABŞ-da müəyyən tendensiya var ki, onlara əsasən iş görülür. Lakin qeyd etmək istəyirəm ki, bütün bunlar anti-Azərbaycan elementləri ilə bağlı deyil, şəraitlə şərtlənir.

> **“Amerika ermənilərə rəğbət bəsləməkdə və dəstəkləməkdə davam edəcək, bundan əlavə Amerikada bir çoxları xristian ölkələrinə müsəlman ölkələrindən daha isti münasibət bəsləyirlər. Bu, həmişə belə olacaq.”**

**– Sizcə bu, özünəməxsus bir ümumi modeldir. Gəlin Rusiyaya qayıdaq. Siz onun Azərbaycan və Ermənistan arasında hərtərəfli və davamlı sülhü təşviq etmək iqtidarında olmadığını qeyd etdiniz, lakin biz onu da müşahidə etdik ki, Rusiya yerlərdə dəyişən şəraitə həssas ola bilər. Məsələn, 2022-ci ilin sentyabrında Azərbaycan şərti sərhəddə mövqeyini xeyli möhkəmləndirdi. Bunu xatırlayırsınızmı? Daha sonra Praqada Azərbaycan və Ermənistanın ərazi bütövlüyü və suverenliyinin qarşılıqlı tanınması haqqında razılaşma əldə olundu. Sonra bu razılaşma Soçidə təsdiqləndi və möhkəmləndirildi. Rusiya, bu mövqeyini onun xoşuna gəlməsə də, başa düşməyə və qəbul etməyə məcbur oldu. Xatırlayıram ki, dediniz: Rusiya hökuməti razılaşmaları yox, bəyannamələri sevir. Bundan çıxış edərək soruşmaq istərdim, sizcə, Bakı ilə İrəvanın Moskva vasitəsilə razılaşa biləcəyi hər şey yenə razılaşma deyil, bəyannamə olacaqmı?**

– Düşünürəm ki, Moskvada hansısa saziş imzalana bilər. Bu yenə bəyannamə olacaq. Ona görə də, ikitərəfli danışıqlar olmadan, Rusiya məsələyə əngəl olmağa çalışacaq. O, nəyəsə son qoya bilər, amma əvvəlcə bu sahədə şəxsi mənafeyi haqqında fikirləşəcək, hamısını da olmasa, sonra mütləq bir şey əldə etməyə çalışacaq. Moskvanın Arazdan keçən marşruta güclü dəstəyi də buna misaldır. Moskva bunu da istəməzdi, amma belə daha yaxşıdır. O, hesab edir ki, Azərbaycan və Ermənistanı barışdıra biləcək möhkəm saziş onlar arasında əməkdaşlığa gətirib çıxaracaq, Ermənistanın iqtisadiyyatını bərpa edəcək, Türkiyəyə öz təsirini Xəzər dənizində və onun hüdudlarından kənarda layihələndirməyə imkan verəcək. Bütün bunlar Rusiya üçün əlverişli deyil. Ona görə də İran marşrutu faydalanmaq üçün yaxşı vasitədir. Moskvanın nöqteyi-nəzərində bu, yaxşı-pis, arzuolunan variantdır.

**– Sizcə, Qarabağda müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin taleyi necə olacaq? O, hələ də oradadır. Düşünürəm, RSK-ların sayı getdikcə azalacaq və onlar ərazini tərk edəcəklər. Amma görünür ki, Azərbaycan başqa beynəlxalq missiyanın Qarabağa gəlməsinin qarşısını almaq üçün onların daha iki il də orada qalmasında maraqlıdır. Siz bu barədə nə düşünürsünüz?**

– Şəxsən mən Rusiya sülhməramlılarının 5 illik müddət bitdikdən sonra Qarabağı tərk edəcəyinə inanıram. Rusiya Ordusu beynəlxalq hüquqa görə sülhməramlı ola bilməz. Onlar tədricən əhəmiyyətini itirəcək və üçtərəfli Bəyanatda göstərilən son tarixə – 2025-ci ilin noyabrına qədər sakitcə oradan ayrılacaqlar. Mən məhz belə də düşünürəm. Mən Bakıda beynəlxalq missiya ilə bağlı necə narahatlıq keçirdiklərini təsəvvür edə bilirəm, lakin düşünürəm ki, bütün bu problemlərin yaxın aylarda çətinlik yaratması sona çatacaq. Azərbaycanın Qarabağ üzərində suverenliyini bərpa etdiyini nəzərə alsaq, yavaş-yavaş sülhməramlıların olmasına maraq aradan qalxacaq. Və zaman keçdikcə sülhməramlı səylərin zəruriliyi haqqında daha az danışacaqlar.

**– İstənilən formada beynəlxalq missiyanın Qarabağda olmasına əsaslı etirazlar var. Təsəvvür edin ki, Qarabağ erməniləri heç bir ilkin şərt olmadan bölgəyə qayıdırlar və orada beynəlxalq missiya var. Belə olan halda Qarabağ erməniləri deyə bilər: Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, Qarabağ üzərində suverenliyini tanıyır, amma biz Azərbaycanın yurisdiksiyasında yaşaya bilmərik. Bəzi azərbaycanlılar isə Azərbaycanda daha bir “Kosovo”nun doğula biləcəyindən ehtiyat edirlər. Siz, bu ehtiyatlanmaları haqlı sayırsınızmı?**

– Qarabağda qalan ermənilərin sayı çox azdır. Və düşünürəm ki, onların sayı azalmaqda davam edəcək. İnanmıram ki, Azərbaycan çoxlu erməni geri qaytara bilsin. Kosovoda kifayət qədər kosovalı qalıb, ona görə də bu bənzətmə indiki halda keçərli deyil.

**– Bizə vaxt ayırdığınız üçün çox sağ olun.**

– Məni dəvət etdiyiniz üçün təşəkkür edirəm. Mənim çox xoşuma gəldi. Gəlin nə vaxtsa bunu yenidən edək!

**– Sizinlə ünsiyyətdə olmaq həmişə xoşdur və ümid edirəm ki, daha bir belə fürsətimiz olacaq.**

– Çox sağ olun!

# Türkiyədə “mavi hab” layihəsi başa çatır

## Bununla qardaş ölkədən Avropaya illik qaz ixracı 63 milyard kubmetr olacaq



**Rusiya Baş nazirinin müavini Aleksandr Novak Rusiya və Türkiyə arasında iqtisadi-ticari əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın yekunlarına dair “Rossiya-24” telekanalına müsahibəsində ölkəsinin Türkiyədə qaz qovşağının yaradılmasında iştirakına dair yol xəritəsinin razılaşdırıldığını və bununla bağlı yaxın vaxtlarda konkret sənədin imzalana biləcəyini deyib. A.Novak daha sonra Türkiyədən Rusiyaya yol xəritəsinin müzakirəsi məqsədilə gələcək nümayəndə heyətinin səfər çərçivəsində “Qazprom”un bu sahədəki fəaliyyətinə diqqət yetirəcəyini də vurğulayıb.**

Xatırladaq ki, cari ilin iyun ayında Rusiyanın “Qazprom” şirkəti tərəfindən yaradılacaq qaz habının konsepsiyası, parametrləri və fəaliyyət prinsipləri Türkiyə tərəfinə təqdim edilib. Eyni zamanda, adıçəkilən şirkətin türkiyəli tərəfdaşlarla birgə qaz habının yaradılması layihəsi də hazırlanıb.

Bu təşəbbüs ilk dəfə Rusiya Prezidenti Vladimir Putin tərəfindən səsləndirilib və Qara dənizin dibi ilə əlavə qaz xətlərinin çəkilməsi və Avropa İttifaqının sərhədində Avropada qazın qiymətinin müəyyənləşdirilməsində alternativ ola biləcək Türkiyə qaz habının birgə yaradılması təklifi irəli sürülüb.

Artıq sözügedən layihənin gerçəkləşməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilib. Məsələn, Türkiyə qanunvericiliyinə qaz habının fəaliyyəti üçün zəruri olan dəyişikliklər edilib. “Qazprom” şirkəti tərəfindən isə həmin layihəyə dair yol xəritəsi Türkiyə tərəfinə təqdim olunub.

Rusiya Prezidenti Türkiyədə qaz qovşağı habının yaradılması təklifini ilk dəfə ötən il oktyabrın 12-də “Rusiya enerji həftəsi”ndəki çıxışında səsləndirib. Türkiyə Prezidenti Ərdoğan Putinin təklifinə çox müsbət yanaşdığını bildirib: “Beynəlxalq qaz kəmərləri qovşağı qısa vaxt ərzində Türkiyədə yaradılacaq. Bunun üçün ən uyğun yer ölkənin Avropa hissəsindəki Trakiya bölgəsidir. Rusiya Prezidenti Vladimir Putinlə birgə energetika nazirlərinə lazımi işləri görməyi tapşırmışıq. Heç bir gecikmə olmayacaq. Bizim əməkdaşlar lazımi danışıqlar aparaşaq dərhal işə başlayacaqlar. Qovşağın təhlükəsizliyinin təşkili ilə bağlı bütün məsələlər həyata keçiriləcək”.

O vaxt “Qazprom” şirkətinin mətbuatda yayılan məlumatında bildirilirdi ki, “Türk axını”nın yeni xətlərində Rusiya istehsalı olan turbinlərdən istifadə olunacağı nəzərdə tutulur. Türkiyəyə nəql ediləcək qaz isə Rusiyanın Baltik dənizi ilə Avropaya çatdırmaq istədiyi həcmdə planlaşdırılır.

Rusiya Baş nazirinin müavini Aleksandr Novak isə “Anadolu” agentliyinə müsahibəsində Türkiyə üzərindən Avropaya qaz ixracı potensialının ildə 63 milyard kubmetr civarında olduğunu deyib. O, bunu Rusiya tərəfindən “Cənub axını” layihəsinin məhz 63 milyard kubmetrlik ötürücülük gücündə olması ilə əlaqələndirib.

Bu məqamda demək yerinə düşər ki, “Cənub axını” kəməri Rusiyanın Ukraynadan kənar ərazilərlə Avropaya qaz nəqli məqsədilə tikilib. Müxtəlif mənelər səbəbi ilə həmin xətt Bolqarıstana deyil, daha az ötürücülük gücü ilə (31,5 milyard kubmetr) Türkiyəyə çəkilməsinə qərar verilib.

Onu da qeyd edək ki, Avropanın illik qaz istehlakının 510 milyard kubmetr olduğu deyilir. Eyni zamanda, Rusiya Ukrayna ilə müharibəyə başlayana qədər bu həcmin 170-180 milyard kubmetrinin bir neçə boru xətti ilə təmin edildiyi, hazırda isə onlardan yalnız birinin – müharibə üzündən qaz nəqli həcminin çox aşağı düşdüyü Ukraynadan keçən xəttin işlək vəziyyətdə saxlanıldığı vurğulanır.

Təbii ki, belə bir halda Avropa üçün qazla bağlı əsas tədarük məsələsində ən səmərəli variant Türkiyədə qaz qovşağı yaradılması layihəsidir. Bu məqamda “Türk axını”, TANAP və TAP, İrandan qardaş ölkəyə çəkilən “İTE” boru xətləri də, necə deyərlər, köməyə çatır.

Ekspertlərin fikrincə, Türkiyə bütün boru xətlərinin tam həcmdə işlədiyi təqdirdə Rusiya, Azərbaycan və İrandan 90-100 milyard kubmetr qaz ala bilər. Bu isə Türkiyəni böyük qaz qovşağına çevirilməsini şərtləndirir.

Türkiyədə qaz qovşağının yaradılması Azərbaycan üçün də mühüm önəm daşıyır. Bu, ilk növbədə, ölkəmizin artan qaz həcmlərini satması üçün əlverişlidir. Digər tərəfdən də Türkiyə TANAP və Bakı–Tbilisi–Ərzurum kəmərləri ilə respublikamızdan qaz alır. Hər iki ölkə arasında qaz ticarəti qarşılıqlı anlaşma və güzəştlər şəraitində həyata keçirilir. Avropa İttifaqının Azərbaycan qazına ehtiyacının yüksək olması TANAP-ın ötürücülük gücünün 30 milyard kubmetrə qədər artırılması üçün əlverişli şərtlər formalaşdırır. Bundan əlavə, Azərbaycan qazını Türkiyə-Yunanıstan sərhədindən İtaliyaya daşıyan TAP-ın genişləndirilməsini də şərtləndirir.

Yeri gəlmişkən, Azərbaycandan qardaş ölkəyə qaz ixracı ilə bağlı müəyyən statistik göstəriciləri də diqqətə çatdırmaq istərdik. Türkiyənin Enerji Bazarını Tənzimləmə Qurumunun hesabatında bildirilir ki, bu ilin yanvar-sentyabr aylarında ölkəmizdən bu dövlətə, ümumilikdə, 7 milyard 890 milyon kubmetr təbii qaz ixrac edilib. Bu, 2022-ci ilin ilk 9 ayı ilə müqayisədə 23,1 faiz çoxdur. Təkcə cari ilin sentyabr ayında Azərbaycan Türkiyəyə 888 milyon kubmetr təbii qaz ixrac edib. Bu isə 2022-ci ilin sentyabr ayı ilə müqayisədə 26 faiz yüksəkdir. Beləliklə, sentyabrda Azərbaycan Türkiyəyə təbii qaz ixrac edən ikinci ölkə olub. Türkiyənin, ümumilikdə, idxal etdiyi təbii qazın 27 faizi Azərbaycanın payına düşüb.

Qeyd edək ki, ötən ilin sentyabr ayında Türkiyə Azərbaycandan 711 milyon kubmetr təbii qaz alıb. Ümumilikdə isə sentyabrda qardaş ölkə 3 milyard 292 milyon kubmetr həcmində təbii qaz idxal edib ki, bu da 2022-ci ilin eyni ayının göstəricisi ilə müqayisədə 3,22 faiz azdır.

Sentyabrda Rusiya Türkiyəyə qaz ixracına görə birinci olub. İlin 9 ayında Rusiyadan Türkiyəyə 1 milyard 903 milyon kubmetr təbii qaz ixrac olunub. Bu, 2022-ci ilin sentyabr ayı ilə müqayisədə 23,53 faiz çoxdur.

Sentyabrda üçüncü yerdə Əlcəzair qərarlaşıb. Bu ölkə həmin ay Türkiyəyə 400 milyon kubmetr qaz nəql edib. Bu, 2022-ci ilin sentyabr ayı ilə müqayisədə 34,76 faiz çoxdur.

Qeyd edək ki, Türkiyəyə Azərbaycanın “Şahdəniz” yatağından hasil edilən təbii qaz nəql edilir. Təbii qaz həcmləri Cənubi Qafqaz Boru Kəməri (Bakı-Tbilisi–Ərzurum) və Trans-Anadolu Təbii Qaz Kəməri (TANAP) vasitəsilə Türkiyə bazarına çatdırılır. Bakı–Tbilisi–Ərzurum kəməri ilə ilk qaz Türkiyə bazarına 2007-ci ildə daxil olub. TANAP vasitəsilə Türkiyəyə kommersiya qazının nəqlinə isə 2018-ci il iyunun 30-da başlanılıb.

***Vaqif BAYRAMOV***
***XQ***

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) ilə Pakistan Xarici Əlaqələr Şurasının nümayəndələri arasında Anlaşma Memorandumunun imzalanma mərasimi keçirilib.**

# Pakistanla iqtisadi əlaqələrimiz də genişlənir

Onlayn görüş zamanı İİTKM-in icraçı direktoru, iqtisadi elmləri doktoru, professor Vüsal Qasımlı iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin əhəmiyyətini xüsusi vurğulayıb. O, qeyd edib ki, bu dövlətlərin beyin mərkəzləri arasında iqtisadi tədqiqatlar sahəsində əməkdaşlığın həyata keçirilməsi münasibətlərin inkişaf etdirilməsinə töhfə verəcəyini qeyd edib. Professor əlavə edib ki, hazırda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İslam Ölkələri üzrə Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzi (SESRIC) ilə “İƏT ölkələrinin iqtisadiyyatı” adlı kitabın nəşri üzrə birgə layihə icra olunmaqdadır. V.Qasımlı Pakistan Xarici Əlaqələr Şurasının tədqiqatçılarını bu layihədə iştirak etməyə dəvət edib.



Mərkəzin rəhbəri, həmçinin Azərbaycanda aparılan iqtisadi islahatlar, beynəlxalq reytinqlərdə ölkənin mövqeyi barədə də ətraflı məlumat verib. Bundan başqa, o, İİTKM tərəfindən icra olunan monitorinq və qiymətləndirmə fəaliyyəti, Azexport.az, EnterpriseAzerbaijan.com, Rəqəmsal Ticarət Qovşağı, Azranking.az barədə ətraflı danışıb.

İcraçı direktor pakistanlı investorların Azərbaycan iqtisadiyyatına maraqlarının böyük olduğunu və xüsusilə işğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji və dayanıqlı infrastruktura yaradılması sahəsində Azərbaycanla əməkdaşlığın daha da genişləndirilməsinin ölkələrin iqtisadi inkişafına öz müsbət töhfəsini verəcəyini qeyd edib.

Görüşdə Pakistan Xarici Əlaqələr Şurasının sədri, səfir Syed Hasan Habib rəhbərlik etdiyi qurumun Azərbaycanla sıx əlaqələrin qurulmasına xüsusi önəm verdiyini və imzalanan Anlaşma Memorandumunun gələcəkdə İİTKM-lə Pakistan Xarici Əlaqələr Şurası arasında birgə əməkdaşlıq üçün zəmin rolunu oynayacağını qeyd edib. O, xüsusilə də Pakistan–Azərbaycan ticarət əlaqələrini inkişaf etdirmək üçün birgə tədqiqatlar sahəsində əməkdaşlıqda maraqlı olduqlarını bildirib.

***XQ***

# Ziyan çəkmiş fermerlərə 6 milyon manat ödəniləcək

**Bu il Azərbaycanda təbii fəlakətlər və digər hadisələr nəticəsində əkin sahələrinə dəyən zərərlər üzrə təqribən 6 milyon manat sığorta ödənişi ediləcək. Bu da ötənilki sığorta ödənişindən 2,6 dəfə çoxdur.**




Bu barədə Aqrar Sığorta Fondundan məlumat verilib. Bildirilib ki, ölkədə fermerlərə 2021-ci ildə 1,7 milyon manat, 2022-ci ildə isə 2,3 milyon manat sığorta ödənişi edilib.

Xatırladaq ki, bu ilin yay fəslində Azərbaycanda temperatur üzrə rekord göstəricilər qeydə alınmasa da, digər hava-iqlim hadisəsi olan lokal leysan yağışlar nəticəsində sel-daşqın hadisələri keçən ilin rekordunu 3 dəfə üstələyərək 147-yə çatıb.

***XQ***

# Dünya Bankı Azərbaycanda “yaşıl keçid”i yüksək qiymətləndirir

## Bu maliyyə qurumu ölkəmizdə 54 layihəyə 4 milyard dollar vəsait ayırıb

**(əvvəli 1-ci səhifədə)**

Son illər planetdə baş verən qlobal iqlim dəyişiklikləri ilə bağlı narahatlıqlar getdikcə artmaqdadır. İqlim dəyişikliklərinin nəticəsi olan təbii kataklizmlərin mənfi təzahürləri ölkələrin sosial-iqtisadi həyatına ciddi təsir göstərir. Bu baxımdan Dünya Bankı Qrupunun Azərbaycanla bağlı açıqladığı İqlim və İnkişaf Hesabatında ölkəmizin iqlim dəyişikliyi ilə əlaqədar ciddi fiziki risklərlə üzləşdiyi qeyd olunur. Bildirilir ki, Azərbaycanın bütün ərazisi, demək olar ki, həm quraqlığa, həm də su qıtlığına məruz qalır və belə ekstremal iqlim şəraiti səbəbindən onların tezliyinin və intensivliyinin artacağı gözlənilir. “Ölkənin təbii sərvətləri torpağın deqradasiyası, səhralaşma və ifrat otarılma nəticəsində zədələnir və bu, kənd təsərrüfatına mənfi təsir göstərir. Eyni zamanda, neft-qaz hasilatı da torpağın deqradasiyasına və su ehtiyatlarının çirklənməsinə təsir göstərib”,– deyə hesabatda bildirilir.




Sənəddə qlobal səylərin tempindən asılı olmayaraq, dekarbonizasiyaya investisiyaların sürətləndirilməsinin Azərbaycanın marağında olması vurğulanaraq qeyd edilir ki, bu səylər, həm də iqtisadiyyatın şaxələndirilməsini nəzərdə tutan milli məqsədlərə uyğundur. Bununla yanaşı, Dünya Bankının Cənubi Qafqaz üzrə direktoru Rolande Pryce bildirib ki, Azərbaycana dair İqlim və İnkişaf Hesabatında ölkəyə hədəflərin müəyyən edilməsindən iqtisadiyyatı və əhalini iqlim dəyişikliyinin mənfi təsirlərindən qoruya biləcək tədbirlərin həyata keçirilməsinə keçid üçün praktiki yol təqdim olunur. Onun sözlərinə görə, Azərbaycan iqlim dəyişikliyi üzrə Paris Sazişini imzalasa da, hələ ki, ölkə üzrə emissiyaların xalis sıfır səviyyəsinə çatdırılması ilə bağlı üzərinə hər hansı öhdəlik götürməyib. Bununla belə, Azərbaycan 2030-cu ilə qədər istixana qazı emissiyalarını 1990-cı il səviyyəsindən 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaltmaqla bağlı milli hədəflər müəyyənləşdirib. Dekarbonizasiya üzrə öhdəliklərini gücləndirməsinə baxmayaraq, Azərbaycanın hələ də öz milli hədəflərinə çatmaq trayektoriyasına qədəm qoymadığını vurğulayan bankın Cənubi Qafqaz üzrə direktoru deyib ki, milli iqtisadiyyatın strukturunu nəzərə alsaq, ölkədə dekarbonizasiya ilə bağlı çağırışlar əhəmiyyətli miqyasdadır.

Bankın ölkəmizlə bağlı hesabatında daha sonra qeyd olunur: “Energetika və su təchizatı da daxil olmaqla “yaşıl keçid” üçün vacib olan sektorlarda dövlət müəssisələri üstünlük təşkil edir və onlar ölkənin işçi qüvvəsinin yarısına malikdirlər. Dekarbonizasiya üzrə dəqiq kursun müəyyənləşdirilməsi və həyata keçirilməsi üçün iqtisadi diversifikasiya və daha dinamik özəl sektor tələb olunur”. Yeri gəlmişkən, sözügedən hesabatda qeyd olunan dekarbonizasiya və dayanıqlılıq tədbirləri üçün qlobal iqtisadiyyatın “xalis sıfır” emissiyalara keçid alacağı gözlənilən 2060-cı ilə qədər, təxminən, 44 milyard ABŞ dolları və yaxud ÜDM-in təxminən 3,2 faizi qədər böyük investisiyalar tələb olunacaq. Bu xərclərin əhəmiyyətli bir hissəsi kommersiya və özəl sektorun maliyyələşdirilməsi hesabına təmin olunmalıdır.

Dünya Bankının hesabatında, həmçinin Azərbaycan üçün dayanıqlı və xalis sıfır emissiyalı inkişafın təmin edilməsi üçün strateji yol xəritəsi müəyyən edilib. Bildirilir ki, Azərbaycan zəngin bərpaolunan enerji resurslarına – külək və günəş enerjisinə malikdir və onlar ixrac məqsədli “yaşıl hidrogen” və elektrik enerjisi istehsal etmək və enerji istehsalı, sənaye və nəqliyyat sahələrində daxili məqsədlər üçün istifadə edilə bilər. Bunun üçün, elektrik enerjisi infrastrukturuna əhəmiyyətli dövlət sərmayəsi və bərpaolunan enerji istehsalına özəl sərmayə tələb olunacaq ki, bu da dövlət-özəl tərəfdaşlıq vasitəsilə təmin edilə bilər.

Hesabatda o da bildirilir ki, kənd təsərrüfatı Azərbaycanın qeyri-neft iqtisadiyyatı üçün mühüm sahələrdən biridir. Aqrar sahə ÜDM-in 8 faizindən az hissəsini əhatə etsə də, ümumi məşğulluğun 36 faizi məhz bu sektorun payına düşür. “Bununla belə, qeyd olunan sektor təkcə ekstremal hava şəraitinə deyil, həm də ölkədə mövcud su çatışmazlığına çox həssasdır. Sektorun temperaturların artması və su əlçatanlığının azalmasına qarşı müdafiəsi iqlim dəyişikliyinə davamlılığı artırmaq və emissiyaları azaltmaqla məhsuldarlığı yaxşılaşdırmaq üçün suvarma səmərəliliyinin artırılmasını və iqlimə uyğun rasional kənd təsərrüfatı təcrübələrinin tətbiqini zəruri edir”,– deyə sənəddə qeyd olunur.

Bütövlükdə isə, Dünya Bankı Qrupunun hazırladığı Azərbaycana dair İqlim və İnkişaf Hesabatı ölkəmizin gələcək inkişaf istiqamətlərinin, prioritet sahələrin müəyyənləşdirilməsi baxımından olduqca vacib sənəd hesab oluna bilər. Təsadüfi deyil ki, Beynəlxalq Maliyyə Korporasiyasının Cənubi Qafqaz üzrə regional menecer İvana Fernandes Duarte bildirib ki, hesabatda qeyd olunan imkanlardan istifadə Azərbaycana gələcəkyönümlü iqtisadiyyat qurmaqda və əhalini iqlim dəyişikliyindən qorumaqda kömək edəcək.

Yeri gəlmişkən, Dünya Bankının bu ilin aprel ayında açıqladığı hesabatda 2026-cı ilə kimi Azərbaycanda qeyri-neft sektorunun orta hesabla 2,5 faiz artacağını bəyan edib. Bank həmçinin, kənd təsərrüfatı üzrə artımın real ÜDM-də payının 2023-cü il üzrə 3,2 faiz, 2024 və 2025-ci illər üzrə isə 3 faiz proqnozlaşdırdığını açıqlayıb. Bununla yanaşı, ölkəmizdə sənaye üzrə artım cari ildə 0,5 faiz, 2024-cü ildə 1 faiz, 2025-ci il üzrə isə 1,2 faiz müəyyən edilib.

Qeyd edək ki, Azərbaycan dünyanın ən nüfuzlu maliyyə institutlarından sayılan Dünya Bankı ilə 1992-ci ildən əməkdaşlıq edir. Ötən müddətdə bank tərəfindən ölkəmizdə infrastruktur, humanitar, kənd təsərrüfatı, ekologiya, mədəni irsin qorunması, məcburi köçkünlərin sosial problemlərinin həlli və bir sıra digər sahələrdə mühüm əhəmiyyət daşıyan 54 layihənin maliyyələşdirilməsinə hökumət zəmanəti ilə təqribən 4 milyard dollara yaxın vəsait ayrılıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Qarabağı əsarətdə saxlamış xuntanı xortlatmaq cəhdləri

(əvvəli 1-ci səhifədə)

Ermənistanın xüsusi tapşırıqlar üzrə səfiri Edmon Marukyanın bir müddət öncə “Nyus.am”a müsahibəsində səsləndirdiyi fikirlər də bunu təsdiqləyir. Müsahibə zamanı Qarabağın keçmiş qondarma



rejiminin “dövlət institutlarının” saxlanması məsələsinə münasibətini açıqlayan Marukyan bildirmişdi ki, Ermənistanda bunu etmək mümkün deyil: “Ermənistan Respublikası öz ərazisində digər ölkələrin dövlət qurumlarını saxlaya bilməz. Yeganə istisna yalnız xarici ölkələrin akkreditasiyadan keçmiş diplomatik nümayəndəliklərinə aiddir. Ermənistanın milli təhlükəsizliyi kontekstində respublikamızın ərazisində belə institutların formalaşdırılması və saxlanılması düzgün deyil. Haradasa mühacirətdə olan hökumətlər var və qoy olsunlar. Amma Ermənistanın bununla heç bir əlaqəsi yoxdur”.

Ermənistan parlamentinin sədri Alen Simonyan isə jurnalistlərə müsahibəsində demişdi ki, onların Qarabağda dövlət yaratmaq məqsədi (?) yoxdur. O, qondarma rejimin “qurum”larının yenidən formalaşdırılması cəhdlərini Ermənistanın təhlükəsizliyinə birbaşa zərbə hesab etdiyini bildirmiş və deputat həmkarlarını da bu mövqedə olmağa çağırmışdı. Simonyan Qarabağdan Ermənistana könüllü köçən şəxslərin mövcud problemlərini Ermənistan rəhbərliyinin həll etməli olduğunu da vurğulamışdı.

Alen Simonyan noyabrın 28-də isə jurnalistlərə bildirmişdi ki, Ermənistan Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tam olaraq tanıyır: “Biz son il yarım ərzində bunu, bəlkə də, səkkiz dəfə bəyan etmişik”. O, həmçinin qeyd etmişdi ki, Ermənistan Respublikası üçün Qarabağ məsələsi mövcud deyil. Spikerin sözlərinə görə, bu gün Ermənistan üçün əsas məsələ Azərbaycanla sülh müqaviləsinin imzalanmasıdır.

Sonuncu dəfə bu istiqamətdə fikirlərini Ermənistan prezidenti Vaaqn Xaçaturyan dilə gətirib. Xaçaturyan jurnalistlərin suallarını cavablandırarkən suala sualla cavab verib: “Qarabağın “dövlət qurumları” Ermənistanda nə edəcəklər, onlar hansı funksiyanı yerinə yetirəcəklər? “Artsax”ın olmaması səbəbindən onun “dövlət institutları”nın da Ermənistanla, əslində, heç bir əlaqəsi yoxdur. Biz diqqətlə izləyəcəyik ki, Ermənistanda hansısa “mühacirətdə olan Artsax hökuməti” fəaliyyətə başlamasın”.

Göründüyü kimi, Hayastan hökuməti qondarma rejimin hansısa “strukturları”nın İrəvanda fəaliyyət göstərməsinin Azərbaycanın haqlı narazılığına səbəb olacağını anlayır. Onlar başa düşürlər ki, bunun baş verməsi nəticədə iki ölkə arasında yeni gərginliyə səbəb ola bilər.

Ermənistanın “MediaHub” internet televiziyası bununla bağlı İrəvan sakinlərinin fikirlərini öyrənib. Narek Davidyan buna ehtiyac olmadığını bildirib: “Fikrimcə, buna ehtiyac yoxdur. Buna görə də Ermənistanda hansısa digər “hökumət” yaratmaq lazım deyil. Bu, necə ola bilər? Belə çıxır ki, dövlət içində yeni dövlət yaradılır? Mən buna qarşıyam”.

Bedros Gevorkyan deyib ki, bu ideyanı dəstəkləmir: “Ermənistanda hökumət var. Bir dövlət daxilində digəri ola bilməz. Bu, mümkün deyil, başa düşürsünüzmü? İndi Ermənistan hökumətinin əsas vəzifəsi Qarabağdan köç etmiş erməniləri evlə təmin etmək, maddi yardım göstərmək və digər problemlərinin həllinə çalışmaq olmalıdır”.

Bununla belə əks fikirdə olanlar, yəni, separatçı rejimə “süni nəfəs” verilməsinin tərəfdarı olanlar da tapılıb. Bu isə revanşizm tərəfdarlarının hələ də köhnə əyyamda qaldıqlarından xəbər verir. Parlamentdəki “Şərəfim var” müxalifət fraksiyasının katibi Tiqran Abramyan “Facebook” səhifəsində yazıb: “2019-cu ildə “Qarabağ Ermənistandır və nöqtə” qışqıranlar 2022-ci ildə “Qarabağ Azərbaycandır!” deməyə başladılar.

Nikol Paşinyan bir neçə gün əvvəl Qarabağın hələ 2016-cı ildə təhvil verildiyini söylədi. Onun bir neçə komanda yoldaşı isə bu yaxınlarda daha da irəli gedərək Ermənistanın və Qarabağın 100 il əvvəl təslim edildiyini qeyd etdilər. Diqqətəlayiqdir ki, Ermənistan Respublikasının prezidenti postunu tutan Qarabağın təslimçisinin başqa bir şəriki Hayastanın 1991-ci ildə bölgəni Azərbaycanın bir hissəsi kimi tanıdığını söyləməklə özü-özünü tamamilə üstələyib. Qarabağ haqqında danışan bəzi hökumət nümayəndələri onun Azərbaycana məxsusluğunu şübhə altına almadıqlarına dair “prinsipial” yanaşmalarını vurğulamaq üçün “qürurlu mövqe” tuturlar. Yeri gəlmişkən, bunlar bir neçə il əvvəl Ağdamı “Tiqranakert” adlandıran, onun ermənilərin vətəni olduğunu qışqıran həmin adamlardır. Hakimiyyət “Artsaxı dəfn etdi”, amma təbii ki, bundan xilas ola bilmədilər. İndi isə hansı mövqe tutacaqlarına qərar verə bilmirlər ki, onların yalanları cəmiyyətin ən azı bir hissəsinə yerisin”.

Mövcud xüsusda yazıçı, rejissor və bəstəkar Vaqram Saakyanın fikirləri maraq doğurur. O qeyd edib ki, Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu birdəfəlik anlamaq lazımdır: “Ermənistanda bəzi insanlar var ki, hələ də Qarabağın Azərbaycanın tərkib hissəsi olmayacağını bildirirlər. Belə çirkin simaların olması Ermənistan üçün rüsvayçılıqdır. Dünyanın heç bir ölkəsində bu cür yaramazlar yoxdur. Belə axmaq sözlərlə özünü nə qədər aldatmaq olar?! Əgər insana bədbəxtlik üz verirsə və o, özünü məğlub hiss etmirsə, onu məhv olmaq gözləyir. Başa düşün ki, sizin özünüzü necə hiss etməyiniz dünyanın heç bir ölkəsinin lideri üçün maraqlı deyil. Ermənistanda millət hələ də formalaşmayıb. Azərbaycanla münasibətlərdə 2020-ci ildən sonra tamamilə başqa mənzərə yaranmışdı. Biz müharibəni uduzmuş ölkə idik, amma hakimiyyət özünü qalib kimi aparırdı. Aydın idi ki, ermənilər üçün hər şey kədərli olacaq. Elə də oldu”.

Ancaq Ermənistanda radikal revanşistlərin nə deməsindən, hansı “hökuməti” yaradıb-yaratmayacağından asılı olmayaraq, tarixin təkərini geri döndərmək olmaz. Qarabağ hər zaman Azərbaycanın ayrılmaz tərkib hissəsi olub. Ölkəmiz 2020-ci ildə beynəlxalq hüquqa uyğun olaraq tarixi ədaləti bərpa edib. Beynəlxalq münasibətlər üzrə gürcü ekspert Laşa Dzebisaşvilinin sözləri bu mənada diqqəti cəlb edir: “Azərbaycan Qarabağla bağlı dövlət siyasətini planlaşdırmağı, onu subordinasiya və konsolidasiya etməyi bacardı. Müvafiq olaraq maliyyə, hərbi, informasiya, mədəniyyət və təhsil sahələrində tədbirlər planı hazırlandı. Sadəcə olaraq strateji fürsəti gözləmək lazım idi. O zaman planlaşdırılan və sonra reallığa çevrilən bütün bu işlər öz bəhrəsini verməli idi. Azərbaycan bir daha göstərdi ki, planlaşdırma həmişə yaxşıdır”.

Bəli, gürcü politoloq səmimi şəkildə həqiqəti söyləyib. Ermənistanın indiki sülhsevərliyi havadan əldə olunmayıb. Bu, ilk növbədə Azərbaycanın sistemli, planlaşdırılmış işinin nəticəsidir. Ermənistanın baş naziri Nikol Paşinyanın mayın 22-də keçirdiyi mətbuat konfransında ölkəsinin Qarabağ da daxil olmaqla 86,6 min kvadratkilometrdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirməsi də səbəbsiz deyildi. Bu, da “dəmir yumruğ”un nəticəsi idi.

Yeri gəlmişkən, N.Paşinyan artıq Türkiyə ilə bağlı da jestlər edir. Bugünlərdə buna nümunə olacaq hadisə baş verib. Belə ki, Nikol son həftələrdə hökumət binasında aparılan təmir işləri ilə əlaqədar Ermənistan prezidentinin iqamətgahında rəsmi görüşlər keçirirdi. Baş nazirin mətbuat xidmətinin noyabrın 28-də dərc etdiyi fotoşəkillər hökumət binasının, ən azı, bir iclas zalının təmirinin başa çatdığını sübut edir. Həmin zalın divarında Ermənistanın ən hündür dağ zirvəsi Araqatsın böyük tablosu asılıb ki, bu da N.Paşinyanın 2023-cü il mayın 22-də keçirilən mətbuat konfransında səsləndirdiyi ideyanı həyata keçirmək qərarına gəldiyini göstərə bilər. Həmin vaxt Paşinyan demişdi: “Vətənpərvərlik modellərindən danışanda başa düşürük ki, həqiqətən də, çox ciddi və mühüm problemlər var. Məsələn, mən heç birimizin Araqats dağına sevgi ifadə etdiyini eşitməmişəm və bu, mənim üçün həqiqətən problemdir. Mən sizin heç bir evinizdə Araqats dağının şəklini görməmişəm, halbuki o, Ermənistan Respublikasıdır. Etiraf edirəm ki, mənim evimdə də yoxdur”. İndi Paşinyanın Türkiyə ərazisində yerləşən Ararat dağının deyil, Ermənistanın öz ərazisində yerləşən Araqats dağının tablosu fonunda xarici qonaqları qəbul etməsi baş nazirin rasional davranışına nümunə sayıla bilər.

**Səxavət HƏMİD**
**XQ**

### Ekspert rəyi



**Yeganə HACIYEVA, politoloq**

– Ermənistanda hansısa qüvvələr Qarabağda 30 ildən artıq mövcud olmuş separatçı xunta rejiminə “süni nəfəs” verərək onu yaşatmağa çalışırlar. Düşünürəm ki, bu, separatçıların şəxsi təşəbbüsü deyil. Zənnimcə, müvafiq işlərin aparılmasına Ermənistan hakimiyyəti tərəfindən göstəriş verilib. Onlar üzdə buna qarşı olduqlarını bildirirlər. Göstərmək istəyirlər ki, guya, bu prosesin əleyhinədirlər. Burada rəsmi İrəvanın bir neçə məqsədi var. Paşinyan hökuməti başa düşür ki, Qarabağdan gedənlər separatizm ideyası ətrafında birləşməsələr, ona qarşı müxalifətçilik ətrafında birləşəcəklər. Bu da hökumət üçün risklər yaradır. Ona görə də Paşinyan və komandası Qarabağdan gedənlərin separatizm ideyası ətrafında birləşmələrini məqbul sayırlar.

# Baş Prokurorluğun Astara görüşü

**Noyabrın 29-da Astara şəhərində “Heydər Əliyev və müasir dövlət quruculuğu” adlı işgüzar konfrans keçirilib.**




Rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə çıxış edən Baş Prokurorluğun idarə rəisi Murad Dadaşov Ulu öndər Heydər Əliyevin mövcud iqtisadi inkişafın və hərtərəfli tərəqqinin əldə olunmasındakı rolundan bəhs edib. Bildirilib ki, Heydər Əliyevin müasir dövlət quruculuğu siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Çıxışında işgüzar tədbirin Astara şəhərində təşkilindən məmnunluğunu ifadə edib.

Konfransda, həmçinin Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, rayon prokuroru Əli Əliyev, Milli Məclisin deputatları Rəşad Mahmudov və Ziyafət Əsgərov, Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Anar Eyvazov və digərləri fenomenal şəxsiyyət Heydər Əliyevin gənclər siyasəti, ordu quruculuğu və insan hüquqlarına verdiyi dəyər, Ulu öndərin xilaskarlıq missiyası və zəngin dövlətçilik irsi mövzularında danışıblar.

Sonda dövlət başçısının 2003-cü ildən başlayaraq, yürütdüyü məqsədyönlü siyasət və bunun nəticəsində torpaqlarımızın işğaldan azad olunması ilə bağlı tarixi missiyasına həsr olunmuş “İlham” sənədli filmi nümayiş etdirilib.

**XQ**

**Ermənistanın Azərbaycana təcavüzünün bütün dövrü ərzində xalqımızın məruz qaldığı ağrı-acıları qərbli tərəfdaşlarımızdan heç kim görmədi. Gördülərsə də, görməzliyə vurdular. Nə Xocalı kimi bəşəriyyət əleyhinə cinayət xarakteri daşıyan faciəmizə analoji reaksiya verildi, nə şəhər və kəndlərimizin yer üzündən silinməsinə, nə də ərazilərimizin minalarla doldurulmasına. Erməni diasporunun çirkli pulları 30 il ərzində qərbli tərəfdaşlarımızın gözünü elə kor elədi ki, hələ də özlərinə gələ bilmirlər.**

# Biz “xəbərsiz”lərin yaddaşını necə təzələyirik?



**Paşa ƏMİRCANOV**
**pasha.emircanov@mail.ru**

Baxın, Azərbaycan ərazilərinin ermənilər tərəfindən çirkləndirilməsindən “Human Rayts Votç” təşkilatı heç indinin özündə də xəbər tutmayıb. Amma Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə ayrı-ayrı beynəlxalq təşkilatların tribunasından, xarici ölkə başçıları ilə görüşlərdə bəyan edib ki, işğal illəri ərzində ərazilərimiz minalarla həddən artıq çirklənib. Onun bu ilin 20 sentyabrında, lokal xarakterli antiterror tədbirlərindən sonra xalqa müraciətində bildirilirdi ki, İkinci Qarabağ müharibəsi başa çatandan sonra bu günə qədər 300-dən çox Azərbaycan vətəndaşı mina terrorunun qurbanı olub. Bu minalar İkinci Qarabağ müharibəsindən sonra Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz olaraq daşınıb və müxtəlif yerlərdə basdırılıb. Bu ölüm qurğuları 2021-ci ildə Ermənistanda istehsal olunub.

Amma bütün dünyada özünü insan haqlarının müdafiəçisi elan etmiş, necə deyərlər, qarşısına çıxan bir çox ölkəyə, əsasən də Azərbaycana bu xüsusda iradlar tutan “Human Rayts Votç”un bundan xəbəri yoxdur. Bunu həmin beynəlxalq qeyri-hökumət təşkilatının BMT-dəki direktoru Luis Çarbonau (Louis Charbonneau) elan edib. O, XXI əsrdə Azərbaycanın üz-üzə olduğu ekoloji fəlakətdən, Ermənistanın 30 illik işğal dövründə ölkəmizdə buraxdığı dəhşətli mirasdan, eləcə də mina terrorundan məlumatsız olduqlarını iddia edib: “Biz bu məsələdən xəbərdar deyilik. Mən bununla bağlı heç bir araşdırma tapa bilmirəm, amma həmkarlarımdan soruşacağam”.

Ancaq hesab edirik ki, “Human Rayts Votç”un bütün bu münasibəti riyakarlıqdan, ikiüzlülükdən, ikili standartlardan başqa bir şey deyil. Çünki o, Ermənistanın Azərbaycana qarşı təcavüzü, işğal olunmuş ərazilərdə mədəni, dini abidələrimizin dağıdılması, əhalinin evlərinin kütləvi şəkildə sökülüb Ermənistana daşınması, təbii sərvətlərimizin oğurlanması, eləcə də işğal zonalarımızın minalarla çirklənməsi barədə çox yaxşı məlumatlıdırlar. Ən azı, Azərbaycan Prezidentinin bu barədə BMT Baş Assambleyasının sessiyalarındakı çıxışında mina problemimiz barədə geniş söhbət açıb, ermənilərin mina xəritəsini Azərbaycana verməkdən imtina etdiyi barədə fikirlərini beynəlxalq ictimaiyyətə çatdırıb.

Əslində, Azərbaycanın son 30 ildə qarşılaşdığı erməni təcavüzü və onun dəhşətli nəticələrindən təkcə “Human Rayts Votç” kimi beynəlxalq təşkilatlar deyil, bir çox Qərb ölkələri də zaman-zaman “xəbərsiz” olub. Vaxtilə ABŞ kimi dünya ağalığı iddiasında olan bir dövlət də Ermənistanın Azərbaycana qarşı ərazi iddiasından “xəbərsiz” olmuş, ermənilərə müqavimət göstərdiyimizə, ərazilərimizin bütövlüyünü qorumaq istədiyimizə görə 1992-ci ildə bizə qarşı 907-ci maddə tətbiq etmişdi. Eyni zamanda, ABŞ Dövlət katibinin köməkçisi Ceyms O`Brayn Konqresin Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin Avropa üzrə alt komitəsinin dinləmələrində ölkəmizlə bağlı qərəzli fikirlər səsləndirərkən də guya erməni işğalından “xəbərsiz” olmuş, Azərbaycanı işğalçı hesab etməyə çalışmışdı. Buna görə də 907-ci maddənin yenidən işə salınmasını, Azərbaycanla münasibətlərin “əvvəlki kimi ola bilməyəcəyini” bəyan etmişdi.

Amma Prezident İlham Əliyev noyabrın 27-də ABŞ Dövlət katibi Antoni Blinkenlə telefon söhbəti zamanı bu cür qərəzli fikirlərin Azərbaycan–ABŞ münasibətlərinə ciddi zərər vurduğunu qeyd etməsindən sonra Vaşinqtondakı tərəfdaşlarımızın hər şeydən yaxşı xəbərdar olduğu üzə çıxdı. Və yalnız Azərbaycan liderinin ciddi tənqidlərindən sonra Blinken münasibətlərin normallaşdırılması məsələsini qaldıraraq, Ceyms O`Braynın Azərbaycana səfərinə icazə verilməsini xahiş etdi. Prezident İlham Əliyev təkliflə bir şərtlə razılaşıb ki, bu səfərdən sonra Azərbaycanın yüksək səviyyəli rəsmilərinin ABŞ-a səfərlərinə qoyulan əsassız qadağa aradan qaldırılsın. Dövlət katibi Blinken bunu qəbul edib.

ABŞ-ın “xəbərsiz” olduğu daha bir məsələ – ermənilərin sülh müqaviləsini imzalamaqdan qaçmasıdır. Prezident İlham Əliyev Ermənistanın sülh təklifimizi 70 gün gecikdirdiyini deməsindən sonra Vaşinqtonun da yadına düşdü, Ermənistanın da. Ermənistan parlamentinin spikeri Alen Simonyan elə həmin gün bəyan etdi ki, İrəvan yaxın 15 gün ərzində Azərbaycanla sülh sazişi imzalaya bilər. Bax, məsələlərdən “xəbərsiz” olanların yaddaşını belə təzələyirik...

**Paşa ƏMİRCANOV**
**XQ**

# 40 rayon “Kənddən şəhərə” məhsul çıxaracaq

**Kənd Təsərrüfatı Nazirliyi 2-3 dekabr tarixlərində “Kənddən şəhərə” həftəsonu yarmarkası təşkil edəcək.**




Bu barədə XQ-yə verilən məlumatda bildirilir ki, yarmarkanın keçirilməsində əsas məqsəd yerli fermerlər üçün alternativ satış kanalı yaratmaq, həmçinin şəhər sakinlərini təbii və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir. Budəfəki yarmarkada, ümumilikdə, 40 rayondan 60 fermer iştirak edəcək. Fermerlər 80-ə yaxın çeşiddə təbii kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər.

Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 (metronun “Gənclik” stansiyasının yanı) ünvanında keçiriləcək yarmarkada satışa çıxarılan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Belə ki, yarmarkada Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar laboratoriyanın xidmətlərindən faydalana biləcəklər.

Fermerlər yarmarkada ödənişsiz olaraq piştaxta, tərəzi, soyuducu və digər lazımi ləvazimat və avadanlıqlarla təmin olunacaqlar. Həmçinin, məhsulların daşınmasında çətinlik çəkən fermerlərə logistik dəstək göstəriləcək məhsulları təsərrüfatlarından birbaşa yarmarka keçirilən ünvanlara qədər daşınacaq.

# AMEA-da yeniləşmə davam edir





**Azərbaycan Milli Elmlər Akademiyasının növbəti ümumi yığıncağında ölkənin baş elmi qurumunun fəaliyyəti, yeniləşməsi ilə bağlı tədbirlər müzakirə edilib, müvafiq qərarlar qəbul edilib.**

Akademiyanın prezidenti, akademik İsa Həbibbəyli "AMEA-da yeniləşmə prosesləri: struktur islahatlarından elmi-tədqiqatların yenidən təşkilinə, elektron hərəkata və beynəlxalq elmi qurumlarda təmsil olunmağadək" mövzusunda məruzə ilə çıxış edib.

Elm və təhsilin inkişafı ilə bağlı ən mühüm hadisələrdən birinin Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixli fərmanı olduğunu bildirən akademik İsa Həbibbəyli həmin sənədin icrasından irəli gələn məsələlərin həlli məqsədilə AMEA-nın Rəyasət Heyətinin və AMEA-nın Ümumi yığıncağının müvafiq qərarlar qəbul etdiyini, kompleks tədbirlər həyata keçirdiyini söyləyib.

Akademiya rəhbəri ölkə başçısının AMEA-nın yeni Nizamnaməsini təsdiq etməsinin 80 ilə yaxın şərəfli bir inkişaf yolu keçmiş və bütün dövrlərdə ölkənin sosial-iqtisadi və mədəni-mənəvi inkişafına mühüm töhfələr vermiş Elmlər Akademiyasının müasir dövrdə, ölkəmizin dünyada və regionda geosiyasi və iqtisadi arxitektonikanın müəyyənləşməsində əsas faktora çevrildiyi bir vaxtda yeni tərəqqi mərhələsinə qədəm qoyması baxımından mühüm əhəmiyyətə malik olduğunu deyib.

Bildirilib ki, AMEA-da başlanan və sürətlə davam etdirilən "Elektron Akademiya" hərəkatının həyata keçirilməsi üçün aparılan elmi-təşkilati işlər struktur islahatlarının miqyasını daha da genişləndirib. Hazırda Milli Elmlər Akademiyası özünün yeniləşmə hərəkatı mərhələsini yaşayır. Mühüm yeniliklərdən biri AMEA Rəyasət Heyəti aparatının strukturunda daxili imkanlar hesabına Elektron akademiya şöbəsinin yaradılmasıdır.

Həyata keçirilən islahatların mühüm istiqamətlərindən birini isə beynəlxalq əlaqələrin müasir tələblər səviyyəsində yenidən qurulması təşkil edir. Həyata keçirilən tədbirlər nəticəsində AMEA Asiya Elmlər Akademiyaları və Cəmiyyətləri Assosiasiyasına (AASSA), Avrasiya Universitetlər Birliyinin (EURAS) və Beynəlxalq Elmi Şuranın rəsmi üzvlüyünə, AMEA-nın "Elm" Nəşriyyatı isə Avropa Elmi Redaktorlar Assosiasiyasına üzv kimi qəbul edilib.

Müzakirələrdə Elm və təhsil naziri Emin Əmrullayev, Türkiyənin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun başqanı, professor Dərya Örs, akademiklər Gövhər Baxşəliyeva, Rasim Əliquliyev, AMEA-nın müxbir üzvü Misir Mərdanov çıxış ediblər.

Məruzə və çıxışlarda qeyd olunanları nəzərə alaraq, ümumi yığıncaq son bir ildə AMEA-da həyata keçirilən çoxşaxəli islahatları qənaətbəxş hesab edib və müvafiq tapşırıqlar verib. Ümumi yığıncaqda "Azərbaycan Milli Elmlər Akademiyasına seçkilərin təşkili və keçirilmə qaydası haqqında Əsasnamə" təsdiq edilib.

Yığıncaqda təşkilati məsələlərə də baxılıb. Nobel mükafatı laureatı Əziz Səncər AMEA-nın fəxri üzvü seçilib. Bundan əlavə, akademik İsmayıl Hacıyev AMEA-nın Naxçıvan Bölməsinin, akademik Fuad Əliyev isə AMEA-nın Gəncə Bölməsinin sədri vəzifəsinə seçiliblər.

Sonda AMEA-nın Elm Tarixi İnstitutunun, AMEA-nın nəzdində "Elm və Texnologiya Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin, AMEA-nın Mərkəzi Nəbatat Bağının, AMEA-nın Təmir-tikinti və quraşdırma idarəsinin, AMEA-nın təsərrüfat hesablı Avtobazasının, AMEA-nın Mineral Xammalın Kompleks Emalı üzrə Təcrübə İstehsalatlı Xüsusi Konstruktor Texnoloji Bürosunun və AMEA-nın "Selen" Elmi İstehsalat Birliyinin ləğv edilməsinin rəsmiləşdirilməsinin başa çatdırılması haqqında qərarlar qəbul olunub.

***Tahir AYDINOĞLU***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# NATO Ukrayna ilə bir az da yaxınlaşır

**NATO xarici işlər nazirlərinin noyabrın 28-də Brüsseldə başlayan iclasının gündəliyi aktual və problemli məsələlərdən ibarət olub. Yaxın Şərqdəki münaqişədən tutmuş, il yarımdır alyansa qoşulmağa çalışan İsveçə qədər məsələlər müzakirə edilib. Ancaq prioritet mövzu, əlbəttə ki, Ukrayna olub. Qərb diplomatları ənənəvi olaraq Kiyevi dəstəkləyəcəklərinə söz veriblər. Ancaq bu dəstəyin necə göstərilməsi barədə yekdil fikrin də olmadığı iddia edilir. Doğrudur, NATO-nun baş katibi Yens Stoltenberq əmindir ki, burada iki fikir ola bilməz. O bildirib ki, müharibənin sülh yolu ilə nizamlanmasını yalnız Ukraynaya hərbi dəstəyin davam etdirilməsi ilə yaxınlaşdırmaq olar. Tarixdə ilk dəfə keçirilən NATO-Ukrayna sammitində də məhz belə nikbin mesajlar səsləndirildi.**




Belə görünür, NATO-nun baş katibi Yens Stoltenberq üçün başa çatmaqda olan il asan keçməyəcək. Bunu, xüsusən, noyabrın 28–29-da bloka daxil olan ölkələrin xarici işlər nazirlərinin iclasının gündəliyindəki problemli məsələlər toplusu göstərdi. Mövzular arasında İsrail və HƏMAS arasındakı qarşıdurmanın Qərb siyasətçiləri arasında qarışıq hisslərə səbəb olduğu Yaxın Şərqdəki münaqişə, Çinin artan təsiri, Qərbi Balkanlarla qarşılıqlı fəaliyyət perspektivləri, nəhayət, İsveçin Şimali Atlantika blokuna üzvlüyü məsələsi var. Ümumilikdə, İsveç məsələsi Yens Stoltenberq üçün travmatik oldu. Çünki İsvüç bir ildən çoxdur ki, NATO-ya üzv olmağa çalışır, ancaq Türkiyə və Macarıstan Stokholmun öhdəliklərini yetinə yetirməyinə görə razılıq vermədiklərindən məsələ öz həllini tapmır. Cənab Stoltenberq iyulda Vilnüsdə keçiriləcək sammitdə Stokholmun bloka qoşulacağına ümid edirdi. Oktyabr ayında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İsveçin alyansa qoşulması ilə bağlı protokol imzalasa da, sənəd Türkiyə parlamenti tərəfindən ratifikasiya olunmamış qalır.

Bununla belə, NATO-nun diqqət mərkəzində yenə Ukraynadır. Kiyevin müttəfiqləri "lazım olduğu qədər" tərəfdaşını dəstəkləməyə hazır olduqlarını təkrarlamaqdan yorulmasalar da, 2023-cü ilin sonuna kimi əlavə yardım perspektivlərinin azalacağının proqnozu verilir. Məsələn, bir neçə aydır ki, ABŞ Konqresi Kiyev üçün 61 milyard dollar məbləğində əlavə maliyyələşdirmə paketini təsdiq edə bilmir. Aİ-də Avropa diplomatiyasının rəhbəri Jozep Borrelin Brüsselin Kiyevə hərbi yardım üçün dörd il ərzində 21,9 milyard dollar ayırması ilə bağlı fikri etirazla qarşılanır. Bu hadisələr fonunda Yens Stoltenberq müttəfiqləri ilə eyni masa arxasında Ukrayna istiqamətində gələcək planları müzakirə etməli olub. Buna baxmayaraq, noyabrın 28-də Yens Stoltenberq ruh düşkünlüyü hiss etdirməyərək, alternativ ssenarilərdən danışmayıb. Onun fikrincə, NATO-nun missiyası heç bir şəkildə dəyişməyib və buna görə də bütün müttəfiqlər "sadəcə, seçilmiş kursa sadiq qalmalıdırlar: "Bizim öhdəliyimiz Ukraynanı silahla təmin etməkdir".

Bununla bərabər, NATO baş katibi əmin edib ki, Avropa da daxil olmaqla, sülh danışıqlarına nail olmaq üçün Ukraynaya silahların çatdırılması əhəmiyyət kəsb edir. "Biz onu dəstəkləməyə davam etməliyik. Ukrayna döyüş meydanında nə qədər güclüdürsə, danışıqlar masası arxasında bir o qədər güclü olacaq. Əgər biz Ukraynanın müstəqilliyini qoruyub saxlamasını təmin edən sülh yolu ilə həll istəyiriksə, buna nail olmağın ən yaxşı yolu ona hərbi dəstək verməyə davam etməkdir". Hazırkı mənzərənin deyildiyi kimi qədər tutqun olmadığına misal olaraq o, Ukraynaya bir neçə milyard avro dəyərində yeni yardım paketləri elan edən Almaniya və Hollandiyanın qərarlarını göstərib və görüşlərin ilk gününün nəticələrinə həsr olunan mətbuat konfransında bildirib ki, müttəfiqlər Kiyevə silah tədarükünü ləngitməməyə və davam etdirməyə razılaşıblar. Brüsseldə Ukrayna–NATO Şurasının xarici işlər nazirləri səviyyəsində keçirilən tarixi ilk iclasında da NATO-nun baş katibi Ukraynaya həm alyansa qoşulmaq səyləri baxımından, həm də döyüş meydanında mövcud hərbi vəziyyətlə bağlı dəstəyin müzakirəsinin vacibliyini bəyan edib.

BBC məlumat verir ki, NATO–Ukrayna Şurasının iclasında təsdiq edilmiş illik proqram çərçivəsində islahatların həyata keçirilməsinin gedişi ilə bağlı NATO ölkələrinin xarici işlər nazirləri tərəfindən monitorinqin yaradılması qərara alınıb. "NATO-ya üzv dövlətlər Ukraynaya prioritet islahatlarla bağlı tövsiyələr veriblər. NATO–Ukrayna Şurası Ukraynanın 2024-cü il üçün illik milli proqram təqdim etməsini alqışlayır və onun həyata keçirilməsini səbirsizliklə gözləyir. NATO xarici işlər nazirləri mütəmadi olaraq uyğunlaşdırılmış milli proqramın həyata keçirilməsində irəliləyişləri qiymətləndirəcəklər", – deyə növbəti iclasın yekunlarına dair press-relizdə deyilir. İclasda NATO baş katibi bir daha deyib ki, alyans Rusiyanı doğru qiymətləndirməlidir: "Gərgin döyüşlər görürük və daha çox hava və raket hücumlarına hazır olmalıyıq. Ona görə də vacibdir ki, bizim Ukrayna ilə həmrəyliyimiz təkcə sözdə deyil, həm də əməldə nümayiş etdirilsin". Nümunə kim, cənab Stoltenberq Ruminiyada F-16 pilotları üçün təlim mərkəzinin açılmasını və Hollandiyadan 2,1 milyard avro dəyərində maliyyə yardımını qeyd edib. O, alyansdan Ukraynaya davamlı və gücləndirilmiş dəstəyin vacibliyini vurğulayıb.

Bundan başqa, NATO baş katibi önəmli mesajlar da səsləndirib. O, NATO–Ukrayna Şurasının iclasından sonra bildirib ki, Ukrayna NATO-ya əvvəlkindən daha yaxındır. Y. Stoltenberq bəyan edib ki, NATO ölkələri gələn il üçün enerji təhlükəsizliyi, innovasiyalar və qarşılıqlı əlaqəni əhatə edən iddialı iş proqramını təsdiqləyiblər. Xarici işlər nazirləri, həmçinin Ukraynanın alyansa üzvlük yolunu müzakirə edib və Ukraynanın prioritet islahatları, o cümlədən korrupsiya ilə mübarizə, qanunun aliliyinin gücləndirilməsi, insan və azlıqların hüquqlarının dəstəklənməsinə dair tövsiyələr veriblər. "Ən əsası odur ki, Ukrayna suveren, müstəqil, demokratik dövlət kimi qalib gəldi. Bu, böyük nailiyyətdir – böyük qələbədir". O, "Ukraynanın NATO-ya əvvəlkindən daha yaxın olduğunu" vurğulayaraq, "Ukraynaya üzvlük yolunda dəstəyimizi davam etdirəcəyik" deyib. Bununla yanaşı, o vurğulayıb ki, "Rusiya qonşu ölkələrdə siyasi təsirini itirir, 300 mindən çox itki verib, adi silahlı qüvvələrinin əhəmiyyətli hissəsini itirib və iqtisadi təzyiq altındadır".

Təbii ki, Rusiya NATO rəhbərliyinin dediklərini qəbil etmir. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib ki, "NATO qarşıdurma aləti kimi yaradılmış bir ittifaqdır". Onun fikrincə, blokun əsas məqsədi Rusiyanı "inkişafdan saxlamaqdır" və buna görə də "nəyin icad edilməsindən asılı olmayaraq, alyansın əsas məqsədi məhz bundan ibarətdir". Cənab Peskov hesab edir ki, bu cür planlar naminə alyans "Rusiyaya qarşı mübarizədə ritual qurban kimi Ukrayna xalqının qırğınından" əl çəkmir. İstənilən halda, NATO–Ukrayna münasibətlərinin inkişafının Qərbin Rusiya ilə donmuş vəziyyətdə olan münasibətlərini təzyiq altında saxlayacağı şübhə doğurmur.

***S.ELAY***
***XQ***

Epidemioloji durum

**Ümumdünya Səhiyyə Təşkilatı 2015-ci ildən etibarən Azərbaycanda rəsmi olaraq qızılca və məxmərək xəstəliklərinin eliminasiyasını (endemik halların qeydə alınmaması) elan edib. 2014 və 2018-ci illərdə ölkədə qızılca infeksiyasının 2 kiçikmiqyaslı alovlanmasına baxmayaraq, həyata keçirilən əks-epidemik və profilaktik tədbirlərlə qısa müddətdə yoluxmalar dayandırılıb.**



2023-cü ilin aprel ayından qonşu ölkələrdən gətirilmə qızılcanın əhali arasında yayılma halları qeydə alınıb. Aparılmış tibbi statistikanın nəticələri göstərir ki, ötən dövrdə ölkə ərazisində əsasən, uşaqlar arasında 300-ə yaxın qızılcaya yoluxma baş verib. Onların yalnız 35 nəfəri yaşlı insanlar olub. Hadisələr təhlil edilərkən məlum olub ki, yoluxanların 95 faizi peyvənd təqviminə uyğun vaksin olunmayanlardır. Bu da, əksər hallarda əsassız əks-göstərişlər və peyvənddən imtina ilə izah olunub.

# Virus yoluxmaları ciddi nəzarətdədir

## Lakin peyvəndi gözdən salmaq olmaz



Bildirilir ki, yaranan vəziyyətlə əlaqədar məktəblərdə, uşaq evlərində, sanatoriyalarda uşaqların sıx təması nəticəsində infeksiyaların yayılması üçün daha əlverişli mühitin olmasını nəzərə alaraq, tibb müəssisələri tərəfindən profilaktik peyvənd işi gücləndirilib. Yaşa görə peyvəndlərdən kənarda qalan uşaqların müəyyən edilməsi və təcili vaksinasiyaya cəlb olunmasına nəzarət artırılıb. Yoluxma olan yerlərdə əks-epidemik tədbirlər görülür, xəstələrlə təmasda olanlar müəyyən edilir və 21 günlük müşahidə aparılır.

Bunlardan əlavə, epidemioloji vəziyyəti nəzərə alaraq, ölkə ərazisində orta və yaşlı əhalinin profilaktikası məqsədi ilə vaksinasiya (qızılca–parotit–məxmərək) tətbiq olunmasına başlanıb.

Azərbaycan Texniki Universitetində 8 tələbədə qızılca xəstəliyi aşkar edilməsinə gəldikdə isə Səhiyyə Nazirliyi bildirib ki, noyabr ayında universitetdən cəmi 1 nəfər qızılcaya şübhəli şəxsin məlumatı daxil olub. Müayinələr diaqnozun yanlış olduğunu aşkarlayıb.

TƏBİB-in yaydığı açıqlamada bildirilir ki, qızılca xəstəliyinə yoluxmaların bu tipli artımları ÜST tərəfindən proqnozlaşdırılmışdır. Belə ki, hazırda Avropa regionunda da yoluxma sayları payız-qız aylarında artıb. Bunun əsas səbəbi peyvəndlənmə yaş dövrü COVID-19 pandemiyasına təsadüf edən uşaqların məhdudlaşma tədbirlərilə bağlı vaksin almamalarıdır.

Açıqlamada qeyd edilib ki, hazırda yoluxmalar daha çox məktəb və bağça yaşlı uşaqlar arasındadır. Bu yoluxma uşaqlıq dövrünün virus mənşəli, xüsusi müalicə və stasionara ehtiyacı olmayan, ev şəraitində izolyasiya ilə sağaldılan xəstəlikdir. Əlavə edilir ki, qızılcaya yoluxmaqdan, baş verə biləcək ağırlaşmalardan, onun gələcək fəsadlarından qorunmaq üçün vaksinasiya olduqca vacibdir. Qızılca əleyhinə vaksin milli peyvənd təqviminə 1994-cü ildə daxil olub və hazırda bütün ailə sağlamlıq mərkəzlərində ödənişsiz şəkildə aparılır.

Ötən həftə Mingəçevirdə məktəblilər arasında hepatit A virusuna yoluxma ilə bağlı xəbərlər verildi. Təsdiqlənmiş hepatit A diaqnozu ilə 5 xəstə barəsində Gigiyena və Epidemiologiya Mərkəzinə təcili bildiriş vərəqəsi daxil olub. Onlardan 4-ü qız, 1-i isə oğlan olmaqla, 6, 7, 9 və 11-ci sinif şagirdləridir.

**Yayılan viruslarla bağlı təcrübəli pediatr Vaqif Qarayev XQ-yə açıqlamasında dedi:**

– Qızılca pandemiyadan öncə çox yayılmışdı. Avropanın bir sıra ölkələrində olduğu kimi, Azərbaycanda da yoluxma artmışdı. COVID-19 özündən zəif virusları sıxışdırdı. Yalnız qızılca yox, hər mövsümdə gördüyümüz digər viruslar da yox oldu. Ötən il qızılcaya yoluxanlar az da olsa müşahidə edildi. Bu il isə həddən artıq çoxdur. Sosial şəbəkələrdə xəstə uşaqların şəkillərini yerləşdirirlər, peyvənd barədə inamsızlıq yaradırlar. Amma bir vacib məqamı deyim ki, COVID-19-dan da əvvəl, dünyada vaksin əleyhinə bir hərəkat var.

Heç bir elmi mənbəyə əsaslanmayan məlumat paylaşırlar. "Peyvənd iflic etdi, öldürdü, heç bir faydası yoxdur"– kimi tamamilə əsassız fikirlər səsləndirirlər. Anlamaq istəmirlər ki, qızılcadan qorunmağın yeganə yolu peyvənddir. Uşaqlar iki dəfə peyvənd olunmalıdır: 1 yaşında və 6 yaşında. İndi xəstəlik yayılıb, artıq poliklinikalar valideynləri məcbur edirlər ki, uşaqlarını peyvəndləməyə gətirsinlər.

**Həkim qızılcanın ağır fəsadlarından da söz açdı:**

– Belə ağırlaşmalara qızılca pnevmoniyası deyilir və müalicəyə çətin tabe olur. Qızılca meningiti var ki, uşağı kar, kor edə bilir. Dəfələrlə görmüşəm, "istəmirəm, vurdurmuram" – deyən valideyn sonra oturub ağlayıb ki, uşağıma kömək et. Göyöskürək deyilən bir xəstəlik də var. Pandemiyadan əvvəl çox yayılmışdı, amma indi müşahidə edilmir. AKDS vaksini difteriya, tetanus və göyöskürək xəstəliklərinin əleyhinə olan peyvənddir. Uşağı boğula-boğula gətirən valideyndən soruşanda ki, "niyə peyvənd vurdurmamısan", deyir: "bilmirəm".

90-cı illərdə I Qarabağ müharibəsi ilə bağlı uşaqlar ölkənin hər yerinə səpələndilər və peyvəndsiz qaldılar. Həmin vaxt difteriyanın epidemiyası tüğyan edirdi. Ölümlə nəticələnə bilən həmin xəstəliyin qarşısı peyvəndlərin hesabına alındı. Rumıniyada virus yayılmışdı, ÜST onlara pulsuz vaksin vermədi, çünki bu ölkədə vaksinin əhəmiyyətini əhaliyə başa sala bilməmişdilər.

**Müsahibimiz Mingəçevirdə məktəblilər arasında hepatit A (sarılıq) virusuna yoluxma hadisəsinə də toxundu:**

– Hepatitlər arasında ən təhlükəlisi C-dir. Çünki vaxtında müalicə olunmasa, qara ciyərin sirrozu başlayır. Hazırda müşahidə edilən hepatit A daha çox çirkli sudan, zərərli qida maddələrindən, natəmizlikdən keçir. Misal üçün, bir su şəbəkəsində hepatit virusu varsa, o sudan istifadə edən əhali yoluxa bilər. Hansı rayonda 1 nəfərdə olsa yayılır və epidemiya baş verir. Digər hepatitlərə nisbətən A-nın həm gedişi yüngüldür, həm də cilovlanması asandır.

Mingəçevirdə baş verən hadisə zamanı alovlanmanın qarşısı tez alındığından ciddi fəsad olmadı. Bizdə uşaq doğulan kimi, ona hepatit B peyvəndi vurulur. Bu, məcburidir. Amma qeyd edim ki, vaksin sağlam uşağa vurulmalıdır. Avropada, Amerikada elə alimlər var ki, hətta qızdırmanın fonunda belə peyvənd etməyin mümkünlüyünü deyirlər. Amma mən uzun illərin təcrübəsinə əsaslanıb qızdırmalı uşağa peyvənd vurmaram, əks-təsir yarana bilər.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

“Şərq qadını” – 100

# Milli mətbuatımızın “ağbirçək” nəşri

## “Azərbaycan qadını” jurnalının 1 əsrlik yubileyi tarixi fakt kimi qeyd edilir

**1923-cü ilin noyabr ayından Azərbaycanda və müsəlman Şərqində ilk qadın ədəbi, ictimai və siyasi jurnalının nəşrə başlaması həmin dövrdə böyük əks-səda doğurub. Ayda bir dəfə işıq üzü görən bu qadın hərəkatı carçısının ilk adı “Şərq qadını” olub və nəşrə Ayna Sultanova redaktorluq edib. Gülarə Qədirbəyova, Pəri Həsənzadə kimi qadın fəallar da bu jurnalda çalışıblar. Hər nömrəsi maraqla qarşılanan dərgi elm sahəsində zəkası, zəhmət meydanında hünəri ilə seçilən, milli mədəniyyəti təmsil edən, bədii yaradıcılıq uğurları qazanan qadınlarımızı tanıtma tribunası kimi çıxış edib.**



Şərqdə qadın mıtbuatının dan ulduzu kimi parlayan jurnalda qadınların hüquqları uğrunda mübarizə, qadın klublarının və məktəblərin təşkili, ana və körpələrin mühafizəsi, uşaq bağçalarının yaradılması, sənətkarlıq kooperativlərinin aktual mövzuları sistemli şəkildə işıqlandırılırdı. Jurnal təkcə Azərbaycanda deyil, həm də Özbəkistan, Türkmənistan, Tacikistan, Gürcüstan, Tatarıstan, Dağıstan, İran, Türkiyə, Əfqanıstan, Hindistan və başqa ölkələrdə oxunurdu. “Şərq qadını” 1938-ci ilin fevralından etibarən “Azərbaycan qadını” adı ilə çıxıb.

Üzqabığındakı şəkilləri göz oxşayan, səhifələri müxtəlif publisistik janrlarda maraqlı yazılarla süslənən bu nəşr Azərbaycanda ədəbi məfkurənin yayılmasında, qadın yazıçı və şairlərin yetişməsində də mühüm rol oynayıb. Yazıçı Xalidə Hasilovanın baş redaktor olduğu dövrlərdə jurnal əl-əl gəzib. Şəfiqə Əfəndizadə, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Ələviyyə Babayeva, Əzizə Cəfərzadə, Xanımana Əlibəyli və başqalarının bir sıra əsərləri ilk dəfə burada dərc edilib. Məmməd Səid Ordubadi, Mir Cəlal, Mirzə İbrahimov, Səməd Vurğun İlyas Əfəndiyev, Rəsul Rzanın da təqdim etdikləri nümunələr “Azərbaycan qadını” jurnalının səhifələrində yer alıb.

1973-cü ildə jurnalın 50 illk yubileyi dövlət səviyyəsində qeyd edilib. Yubiley mərasimində dünyada ilk qadın kosmonavt Valentina Tereşkova da iştirak edib. Jurnalın bəzi nömrələri həm Azərbaycan, həm də rus dillərində nəşr olunub. Amma SSRİ-nin dağılması ilə müşayiət olunan siyasi, iqtisadi, və sosial böhran ölkədə çap edilən dövri nəşrlərin əksəriyyəti kimi, bu jurnaldan da yan ötməyib – dövriliyi azalıb, bir müddət çapı dayandırılıb. Yalnız 90-cı illərin ortalarında “Azərbaycan qadını” nəşrini bərpa edə bilib, nəşrə əvvəlcə Flora Xəlilzadə, ardınca Fatma Abdullazadə redaktorluq edib. 2009-cu ildən jurnal yeni poliqrafik format və tərtibatda işıq üzü görməyə başlayıb.

Jurnalın səhifələrində hər zaman çoxsaylı maraqlı yazılar bir-birini əvəz edib. Məsələn, buraxılışların birində Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya həsr olunan “Zirvəyə doğru” sərlövhəli material diqqət çəkir. Məqalədə deyilir: “O, daim yoldadır. Yeni-yeni zirvələrə aparan yolda. Bu enişli-yoxuşlu yolla addımlayaraq o, çox gözəl bilir ki, qarşıda yeni üfüqlər və yeni zirvələr olacaqdır. Onun üçün əslində fəth olunan hər zirvə yeni məqsədə, yeni amala, yeni qələbəyə çatdıran yolun başlanğıcıdır”. – Göründüyü kimi, oxucunu daha işıqlı sabahlara kökləyən belə yazılar, sözün əsl mənasında, nikbinlik və fərəh yaradır.

Təəssüf ki, geniş populyarlığı və gözəl ənənələri olan “Azərbaycan qadını” jurnalının nəşri bir neçə ildir ki, dayandırılıb. “Şöhrət” ordenli Əməkdar jurnalist Flora Xəlilzadə bizimlə söhbətində bunu ürək ağrısı ilə təsdiqlədi: “Ölkəmizin əhalisinin yarıdan çoxunu qadınlar təşkil edir. Əksəriyyətimiz bu jurnalda dərc olunan mətbu sözümüzün gətirdiyi rəğbətdən, məhəbbətdən qədərincə bəhrələnmiş, “Azərbaycan qadını”nın sayəsində tanınmış, sevilmişik. Bu gözəl dərgi nə qədər insanın taleyindən keçib, ailələrimizə, ana-bacılarımıza nə qədər sevinc bəxş edib... Ancaq bu gün Azərbaycan mətbuatı tarixinin 100 yaşlı “ağbirçək” nəşri olan bu jurnalın çıxmaması təəssüf doğurur. Çox istərdik ki, “Azərbaycan qadını” yenidən media aləminə qayıtsın. Buna bizim ruhumuzun ehtiyacı var”.

*Əli NƏCƏFXANLI*
*XQ*

# Yeni media məkanının təhsil və məşğulluq çağırışları



**Dünən Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə “Yeni media mühitində təhsil və məşğulluq imkanları” – “MEDİAlab” layihəsinin hesabat konfransı keçirilib.**

Açılış mərasimində Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov dünyada rəqəmsal texnologiyaya sürətli keçid şəraitində media məkanında da yeni bilik və bacarıqlara yiyələnən kadrların hazırlanmasının zəruriliyini söyləyib. O qeyd edib ki, bu məqsədlə gerçəkləşdirilən MEDİAlab layihənin əsas məqsədi təhsil prosesində ənənəvi medianın rəqəmsal mediaya inteqrasiyasının dəstəklənməsi, bu sahədə kadr potensialının artırılması, media subyektləri və ali təhsil müəssisələri arasında qarşılıqlı fəaliyyət və əməkdaşlığın genişləndirilməsidir. Bu layihəyə tərəfdaş universitetlərin 1000-ə yaxın tələbəsi cəlb edilib. Bu gün imzalanan Çoxtərəfli Əməkdaşlıq Memorandumu isə başlanmış prosesin dəstəklənməsi və ümumi yanaşmanın uyğunluq göstəricisidir.

Azərbaycan Respublikası Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli bildirib ki, bu gün media ölkənin inkişafında, cəmiyyətlə dövlətin ortaq fəaliyyətində çox ciddi təsisata çevrilib. Texnologiyanın, sosial kommunikasiyanın inkişafı isə bu prosesdə medianı yeni müstəviyə çıxarıb. Belə bir şəraitdə media sahəsində yeni çağırışları cavablandırmağı bacaran kadrların hazırlanması və məşğulluğunun təmin edilməsi fərqli tələblər irəli sürüb. “MEDİAlab” layihəsi məhz bu hədəfə yönəlmiş uğurlu başlanğıcdır.

Medianın İnkişafı Agentliyinin şöbə müdiri Ləman İsgəndərova layihə haqqında ətraflı məlumat verərək, onun gənclərin yaradıcı düşüncəsini inkişaf etdirmək, müasir media çağırışlarına uyğun yeni ideyalar formalaşdırmaq üçün əlverişli mühit yaratmağa xidmət etdiyini söyləyib.

Sonra “MEDİAlab” layihəsi çərçivəsində keçirilən tədbirləri əks etdirən videoçarx nümayiş etdirilib. Medianın İnkişafı Agentliyi və “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin birgə təşkilatçılığı ilə “Kreativ Media – Bakı” mövzusunda keçirilən müsabiqəsinin nəticələri açıqlanıb, qalib seçilən 20-yə yaxın gəncə mükafatlar verilib.

Sonda layihənin tərəfdaşları olan ali təhsil müəssisələrinin əlaqələndirici şəxslərinə fəal iştiraklarına görə təşəkkürnamələr təqdim olunub.

*T.RÜSTƏMLİ*
*XQ*

Köşə yazısı

**İkinci Qarabağ müharibəsindən əvvəl cəbhə bölgələrinə yaxın kəndlərdə yeniyetmələrin də, uşaqların da əsgərləşdiyini görəndə qəlbimiz dağa dönürdü. O vaxtlar əli silah tutanların hamısının döyüş əzmi məcrasını aşırdı, hamı “Hər birimiz Vətən üçün bir əsgərik!” çağırışını ürəkdolusu yaşayırdı. Bu, Vətənin çağırışı idi.**

# Yaşa, yaşa, qalib Azərbaycan əsgəri!



*Rəşid FAXRALI,*
*şair-publisist*

Vətən müharibəsindən 2 gün əvvəl Beyləqanda ezamiyyətdə idik. Təlim başa çatmışdı. Zabitlər qürurla əsgərlərə baxırdı; tapşırıq yerinə yetirilmişdi. Söhbətləşirdik. Əsgərlərdən birinin baxış la rını bürüyən narahatlıqda bir doğmalıq görmüşdüm. Sözarası “Bu nə könül qübarıdı, igid əsgər?” soruşmuşdum. Əsgər yoldaşlarına baxmışdı. Bu baxışlarda çırpınan, sezilən, duyulan niyyət idi. Əsgər səmimi sualımı səmimiyyətlə cavablamışdı: “Həmişə səngərlərdən döyüşə başlamaq istəmişik. Əmr verilməyib. Kaş bu təlimdən sonra döyüşə başlamaq əmri veriləydi”. Əsgərin dedikləri döyüş əzmini ifadə edirdi. Qürurlanmışdıq. Üç il əvvəl – sentyabrın 27-də düşmənin hücumunun qarşısını alanların sırasında həmin əsgər də olub, digərləri də. Hamısı qətiyyətlə döyüşüblər. Əminliklə həmin günün könüllər dünyasını nurlandıran işığını görürəm. Mən də səsimi səslərə qatıb deyirəm: Yaşa, yaşa, Azərbaycan əsgəri!..

Ermənistan Azərbaycandan işğal etdiyi ərazilərdə yaratdığı sədləri möhkəmləndirirdi, havadarlarının siyasi və hərbi yardımlarına sığınıb danışıqlardan yayınırdı, bu vəziyyəti siyasi (və hərbi) nəhayətsizliyə yönəltməyə niyyətliydi ki, Azərbaycanın torpaqları hesabına ikinci erməni dövləti yaratsın. Bunun üçün qurduğu sədləri sərhədlərə çevirməyəmi niyyətli idi? – Azərbaycanda isə azərbaycançılıq, vətənsevərlik, dövlətçiliyə, dövlətə sədaqət, döyüş əzmi, qələbə ruhu səngərlərə sığışmırdı, döyüş növbətçiliyindən döyüş üzünə can atırdı. Zamanında əsgər olmuş oğulların – şəhidlərimizin ruhu deyirdi: “Döyüşün, əsgər qardaşlarım!”. Harayların qanadları yorulmurdu...

İkinci Qarabağ müharibəsi başlandı. Azərbaycan Ordusunun hissələri əks-hücum əməliyyatı ilə düşmənin niyyət sədlərini çığnayıb keçdi, inadını qırdı, inamını çiliklədi, ümidini sındırdı. Düşmənin şikəst səsi daşlara çırpılanda “Qarabağ şikəstəsi” Azərbaycan əsgərini döyüşlərə aparırdı.

Vətən müharibəsiydi, Vətənin müharibəsiydi. Hər yan döyüşürdü, Azərbaycan əsgərinin döyüşləri yad gözünə heyrət idi, “Ana!”, “Vətən!”, “Ana Vətən!” deyənlərə “Heyratı”ydı, min illərin adı ilə Azərbaycan döyüşürdü...

Şuşa–Laçın yolunda düşmənlə qarşılaşanda komandir döyüş əmri verib. Bu döyüşün sonunda Şuşa vardı, Şuşadan o yanda – işğalı son nəfəsinə bürmələyəcək Qələbə. Şuşa üçün döyüşürdülər, ürəklərdən keçib Şuşanın dağlarına çatmış niyyəti gerçəkləşdirmək üçün döyüşürdülər. Bu döyüşü son döyüş bilib döyüşürdülər. Yolu keçmişdilər.

Ağaclığa çata-çatda döyüşçülərdən biri yaralanıb. Sağ qoluna, ayağına güllələr dəyib. Tərpənməyə heyi qalmayıb. Döyüşçülərdən biri bunu hiss edincə atışa-atışa ona yaxınlaşıb. Əsgərin yaralarını sarıyıb. Qan kəsməyəndə, kimisə köməyə çağırmaq istəyib. Azca dikələndə yaralının pıçıltısını eşidib: “Sağ ol, qardaş!”. Təşəkkür biçimli vida kəlmələri döyüşçünün gözlərindən yaş dərib, yaralının sarğısını isladıb...

Vətən müharibəsində şəhid anası döyüşən ordunun əsgərlərinə ünvanladığı məktubda yazmışdı: “Döyüşün, oğlum, qalib gəlin. Qələbənizdən sonra qarşıma çıxan ilk qalib əsgəri şəhid oğluma əvəz bağrıma basacam...”. Əminəm ki, həmin Ana əhdini yerinə yetirib, göz yaşları yanağını közə döndərə-döndərə qarşısına çıxan əsgərlərin hamısına “Sağ ol, oğlum, sağ ol, Azərbaycanımın əsgər balası!” deyib. Anaların səsi Ananın səsiylə doğmalaşıb. Bu doğmalaşma 8 Noyabrın qürurunun, sevincinin bayrağına dönüb: Ömrümüzə işıq oldu Zəfər günü!..

2023-cü il oktyabrın əvvəllərində müharibəyə aparan yollardan birinin yolçusuydum. Maşınımız dayananda xatırladım ki, 3 il öncə bir qədər aralıda döyüşə gedən əsgərlərlə uşaqların necə doğmalıqla sağollaşdığını görmüşdüm. 7-8 yaşlı uşaq hərbi səhra geyimli əsgərin boynunu qucaqlamışdı. Səsi bütün aydınlığıyla eşidilirdi: “Sağ ol, əsgər qardaşım! Gedin, qalib gəlin!”

2020-ci ilin 8 noyabrında “Mən azərbaycanlıyam!” deyənlər də, Azərbaycana ehtiramı olan dövlətlərin vətəndaşları da, dünyəvi niyyətlərlə yaşayanlar da var səsləriylə demişdilər: Yaşa, yaşa, Azərbaycan əsgəri!..

2023-cü il 19 sentyabr antiterror tədbirləri 2020-ci ilin 27 sentyabr–8 noyabr döyüşlərinin məntiqi davamı oldu. Vətənə sevginin coşğusu, coşğunun harayları göy üzünün tülünə döndü: Yaşa, yaşa, Azərbaycan əsgəri! Eyni ovqat bu ilin 20 sentyabrında da yaşandı. 8 noyabrda Xankəndidə hərbi paradın yaşatdığı qürur bu qürurları elə gözəl tamamladı ki!...

Ruhumuzun dolaşdığı yerlər əsgərlərimizin nəfəsi ilə isinəndə də deyiləcək: Yaşa, yaşa, Azərbaycan əsgəri!..

XQ-nin kitab rəfi

# Dünya ədəbiyyatından yeni tərcümələr

**AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin şöbə müdiri, şair Sərraf Talıbın dünya ədəbiyyatından etdiyi tərcümələrindən ibarət “Sonuncu sağlıq” adlı kitabı işıq üzü görüb.**

Kitabın redaktoru və “Ön söz”ünün müəllifi tanınmış yazıçı və tərcüməçi Nəriman Əbdülrəhmanlıdır. Topluya dünyanın görkəmli yazıçı və şairlərindən Anna Axmatova, Boris Pasternak, İosif Brodski, Qabriel Qarsiya Markes, Aqata Kristi, Uilyam Folkner, Çingiz Aytmatov, Nodar Dumbadze, Tatyana Tolstaya, Odisseas Elitis, Nadin Qordimer, Çarlz Bukovski, Tomas Elliot, Ezra Lumis Paund, Emili Dikinson və Ay Tsinin şeir və nəsr əsərləri daxil edilib. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitabda hər müəllifin yığcam tərcümeyi-halı da təqdim olunub.

Qeyd edək ki, sözügedən kitab şair, tərcüməçi, publisist Sərraf Talıbın son 3 ildə nəşr olunan sayca 3-cü kitabıdır.




*Ə.ƏLİYEV*
*XQ*



## ASAN könüllüləri səhnədə

***“ASAN Könüllüləri”nin təşkilatçılığı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dəstəyi ilə “ASAN Teatr III” layihəsi baş tutub.***

Bu barədə “ASAN xidmət”dən mətbuata verilən məlumata görə, Azərbaycan Respublikası Gənclər Fondunun “İdeyanı reallaşdır” fərdi qrant müsabiqəsinin qalibi olan layihə çərçivəsində 4 tamaşa səhnələşdirilib.

Tamaşalarda yazıçılarımız Sabit Rəhmanın “Xoşbəxtlər”, Mirzə Fətəli Axundzadənin “Sərgüzəşti-vəziri-xani-Lənkəran”, Nəcəf bəy Vəzirovun “Daldan atılan daş topuğa dəyər” və Üzeyir Hacıbəylinin “Arşın mal alan” əsərləri səhnələşdirilib. Səhnə işlərində 30 ASAN könüllüsü və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 10 tələbəsi iştirak edib.

*XQ*

Sənət çələngi

# İncə ruhlu xanımların axşamı

**Beynəlxalq Muğam Mərkəzində (BMM) əlvan bir çələng halında təqdim olunan “İncə sənət” adlı proqramda şair, nasir, musiqiçi və rəssam qadınların yaradıcılıq nümunələri təqdim olunub.**



Qonaqlar əvvəlcə BMM-nin foyesində istedadlı rəssam Mehriban Şəmsədinskayanın daxili aləminin rəngarəngliyini, ecazkarlığını əks etdirən əsərləri ilə tanış olublar. Sonra şeir, musiqi hekayətlərinə meydan verilib. P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının məzunu Nazxanım Dadaşova (piano), Əməkdar artist Ceyla Seyidova (skripka), YARAT Müasir İncəsənət Məkanını təmsil edən söz ustası Ülviyyə Axundova duyğu və düşüncələrini bölüşüblər.

Yüksək vokal diapazonu – soprano səsli Nigar Cəfərova, Elnarə Məmmədova və Gülsüm Xəlilova fərqli ifaları ilə Avropa və Azərbaycan bəstəkarlarının əsərlərini təqdim edərək seyrçilərə unudulmaz anlar bəxş ediblər.

*XQ*

# Lənkəran Dövlət Universiteti

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

Tender 1 lot üzrə keçirilir.

LDU-nun H.Z.Tağıyev küçəsi 118 nömrəli ünvanda yerləşən yataqxana və tədris binasının həyətində tikiləcək 5 mərtəbəli laboratoriya binasının layihə -smeta sənədlərinin hazırlanmasının satın alınması.

Tender iştirakçıları https://www.etender.gov.az dövlət satınalmalarının vahid internet portalına (portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. İxtisas uyğunluğunun müəyyənləşdirilməsində analoji işlərdə təcrübəyə, maliyyə vəziyyətinə və müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

İştirak haqqının ödənilməsi yalnız Asan ödəniş vasitəsilə həyata keçirilə bilər.

Müsabiqədə iştirak etmək üçün portal vasitəsilə müsabiqəyə daxil olduqdan sonra Asan ödəniş et düyməsini sıxaraq aidiyyatı keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

İştirak haqqı 100.00 (bir yüz manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (sənədin originalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa notarial təsdiq edilməsi mütləqdir).

Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifi təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (arayış 2023-cü ilin dekabr ayı əzrində verilmiş olmalı və malgöndərənin öz öhdəliklərini yerinə yetirmək üçün potensial imkana malik olmasını təsdiq etməli, həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).

İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2022-ci il üçün).

İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin originalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); bank arayışı 2023-cü ilin dekabr ayı əzrində verilmiş olmalıdır.

Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması (iddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığının, təcrübəsinin və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim olunmalıdır. (büdcə və fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatları).

Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması; malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışının və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti (sənədin notarial qaydada təsdiqlənməsi mütləqdir).

Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (statistika komitəsindən alınmalıdır. Sənədin originalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər, sənəd elektron formada alınıbsa notarial təsdiq edilməsi mütləqdir).

Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənədi malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır. (əgər sənəd elektron formada alınıbsa notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin dekabr ayı əzrində verilmiş olmalıdır.

Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənədi malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır. (əgər sənəd elektron formada alınıbsa notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin dekabr ayı ərzində verilmiş olmalıdır.

Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məhkumluq haqqında arayış (DİN və ya ASAN xidmət mərkəzlərindən).

Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə.

Digər müvafiq sənədlər (əsas şərtlər toplusunda müəyyən edilmiş müvafiq sənədlər).

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasıın Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 20 dekabr 2023-cü il saat 17.00-a, tender təklifi və bank təminatını isə 28 dekabr 2023-cü il saat 17.00-a qədər portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 29 dekabr 2023-cü il saat 17.00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə portal vasitəsilə tanış ola bilərlər.

Qeyd-tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 Saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxsi

## "Cəbrayıl rayonunun Horovlu kənd yaşayış məntəqəsində qeyri-yaşayış obyektlərinin tikintisi" işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsindən əldə edə bilərlər.

Əlaqələndirici şəxs satınalmalar şöbəsinin baş məsləhətçisi Zaur İbrahimov.

E-mail: zaur.ibrahimov@shzbti.gov.az

Telefon- + 994512078998.

İştirak haqqı 1500,00 (bir min beş yüz manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat – "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxs

VÖEN- 5200287501

BANK-"KAPİTAL BANK" ASC-nin 28 may filialı

Kod- 200123

VÖEN- 9900003611

M/h: AZ37NABZ01350100000000001944

H/h- AZ31AIIB380300D9447648156112

S.W.İ.F.T. : AIIBAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- Tenderdə iştirak etmək üçün ərizə.
- İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.
- Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 50 bank günü ərzində qüvvədə olmalıdır).
- Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).
- Tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri.
- Malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19).
- Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- İddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir).
- Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.
- Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiq olunmuş surəti təqdim edilməlidir).
- Kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları.
- Baş podratçı kimi son 3 il (2020-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ümumi məbləği 20 (iyirmi) milyon manatdan az olmayan, müraciət edənin hissəsi isə ən azı 10 (on ) milyon olan (müraciət edən müqaviləni birgə müəssisənin üzvü kimi icra etmişdirsə) və oxşar işi əhatə edən (oxşarlıq: layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) ən azı 5 (beş) sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və istismara qəbul və icazə aktları təqdim edilməlidir.
- Son üç ( 2020-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək) ərzində tikinti- quraşdırma işləri üzrə ən azı 20 (iyirmi) milyon manat dövriyyə tələb olunur, həmçinin TMV-nin 1.6-cı bəndində tələb olunan digər tələblər.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 10 yanvar 2024-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 18 yanvar 2024-cü il saat 16.00-a qədər Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətində 19 yanvar 2024-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

# BİLDİRİŞ

"Azəristiliktəchizat" ASC-nin Bakı şəhərinin Xətai rayonu, Xudu Məmmədov küçəsi 3 nömrəli ünvanda yerləşən 6 saylı rayon istilik qazanxanasının ərazisində köməkçi tikilinin layihələndirilməsinin satın alınması məqsədilə 2023-cü il oktyabrın 20-də elektron portal vasitəsi ilə keçirilmiş açıq tenderinin nəticələrinə əsasən "Məkan-İnşaat" MMC qalib elan edilmiş və həmin MMC ilə 2023-cü il noyabrın 27-də müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

# ELAN

Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün taksi xidmətinin satın alınması məqsədilə portalda yerləşdirilmiş tender satınalmalar komissiyasının 28 noyabr 2023-cü il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Satınalmalar komissiyası***

# BİLDİRİŞ

Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC tərəfindən elan olunmuş 2024-cü il üçün Bakı şəhəri ərazisində dövlət mənzil fonduna aid binaların əsaslı təmirinin satın alınması, 2024-cü il üçün Bakı şəhəri ərazisində səkilərdə, həyətlərdə, park və bağlarda təmir, yenidənqurma və abadlıq işlərinin satınalınması və 2024-cü il üçün mənzil-kommunal xidmətlərinin göstərilməsinin təmin edilməsi məqsədi ilə tələb olunan müxtəlif növ mallaların alınması üçün keçirilən açıq tenderlərdə hər üç müsabiqə üzrə iştirak haqqı 2000 (iki min) manat məbləğində dəyişdirilmişdir.

Avroliqa həyəcanları

# "Qarabağ"ın Norveç döyüşü

## *Bizdən – dəstək, komandadan – qələbə...*

**Bu gün uzaq və soyuq Norveçin Molde şəhərində eyniadlı yerli klubla Azərbaycan çempionu Ağdamın "Qarabağ" komandası arasında keçiriləcək UEFA Avropa Liqasının "H" qrupunda 5-ci tur görüşünün çox mühüm əhəmiyyəti hər kəsə məlumdur. Bu oyun ağır döyüş xarakteri daşıyacaq. Başqa cür ola da bilməz. Ortada pley-off mərhələsinə vəsiqə var. Molde sınağının xoşbəxt qalibi onu özünə təmin edəcək və pərəstişkarlarının sevinci yerə-göyə sığmayacaq.**



Matç ərəfəsində rəqiblər hərəyə 6 xalla turnir cədvəlinin ikinci-üçüncü mövqelərində mehriban qonşular kimi yanaşı addımlayırlar. Üstünlük sentyabrda Norveç təmsilçisini Bakıdan vətəninə məğlubiyyətlə (1:0) yola salmış "Qarabağ"ın tərəfindədir. Ölkə çempionumuz şəxsi görüşün nəticəsinə görə cədvəldə rəqibini qabaqlayır. Amma ikinci yerin taleyi məhz bugünkü oyunda qəti həll oluna bilər. Molde sınağının qalibi yekun cədvəlində finişə "Bayer" Leverkuzendən sonra ikinci çatacaq.

Əgər tərəflərin bir-birinin müqavimətini qırmaq cəhdləri baş tutmasa və onlar meydanı "dinc" nəticə ilə tərk etsələr, təqvimdə dekabrın 14-nə təyin edilmiş son tur qarşısında "Qarabağ" özünü daha inamlı hiss edəcək. Bu halda Qurban Qurbanovun komandası yenə cədvəldə ikinci pillədə olacaq. Üstəlik də, iki həftədən sonra vida turunda "Molde"ni Leverkuzendə qrupumuzun da, Almaniya Bundesliqasının da məğlubedilməz lideri "Bayer" ilə görüş gözləyirsə, Ağdam komandası Bakıda, Tofiq Bəhramov adına Respublika Stadionunda artıq qrupda hər şeydən əli üzülmüş kimi görünən İsveçin "Hekken" klubunu qəbul edəcək.

Bununla belə, bütün hallarda ümidi axırıncı tura saxlamayıb, hər şeyi elə bu gün qəti şəkildə həll etmək "Qarabağ"ın azarkeşlərinin ürəyindən olar. Yeri gəlmişkən, bir məqamı xüsusi qeyd edək. "Molde" – "Qarabağ" qarşılaşmasına ölkəmizdə maraq hədsizdir. Son günlər yayılan məlumata görə erməni işğalından azad edilmiş ərazilərdə, Laçın şəhərindəki kinoteatrda futbol həvəskarları üçün oyunu böyük ekranda izləmək imkanı yaradılacaq. Bu çox yaxşı təşəbbüsdür və hamımıza oyundan xoş əhvalla, qələbə sevinci, ya da ən azı, heç-heçə ilə ayrılmağı arzulayaq.

Dünən səhər Norveçə yola düşən "Qarabağ" Avroliqada qrup sınaqlarından şərəflə çıxıb, öz tarixinə daha bir parlaq səhifə yazmaq üçün, şübhəsiz, əlindən gələni edəcək. Komandanın bu məqsədinə də çatıb, pley-off mərhələsində mübarizə aparmaq hüququ qazanmağa gücü çatar.

Bir maraqlı məqam da yada düşür. "Neftçi" öz tarixində SSRİ çempionatlarında ilk və yeganə medalına – bürünc mükafata məhz 30 noyabrda (1966-cı il) sevinmişdi. İndi həmin unudulmaz gündən 57 il ötür. Bu gün də noyabrın 30-dur. Deməyim odur ki, bu tarix futbolumuz üçün uğurlu gündür.

Elə "Qarabağ"ın Azərbaycan Premyer Liqasının 14-cü turunda "Sabah"a qalib gələrək (2:1), yenidən turnir cədvəlində adət etdiyi vahid lider mövqeyinə yüksəlməsi də yaxşı əlamətdir.

Moldedə oyunun Bakı vaxtı ilə gecəyarısı, 00:00-da başlayacağını da xatırladıb, onu izləməyə hazırlaşaq.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# Mingəçevirdə zəlzələ: tələfat və dağıntı olmayıb

**Mingəçevirdə baş vermiş zəlzələ nəticəsində hər hansı dağıntı və ya xəsarət barədə Fövqəladə Hallar Nazirliyinə (FHN) məlumat daxil olmayıb.**




Bu barədə XQ-yə FHN-dən məlumat verilib. Qeyd edilib ki, Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə daxil olmuş ilkin məlumata əsasən, noyabrın 29-da yerli vaxtla saat 19:49-da Mingəçevir ərazisində 4.5 bal gücündə zəlzələ qeydə alınıb. Zəlzələ Mingəçevir, Gəncə, Yevlax və Goranboy ərazilərində 4–3 bala qədər hiss olunub.

**XQ**

# Ermənistan Beynəlxalq Ədalət Məhkəməsinin qərarını kobud şəkildə pozur

**Ermənistanın Xarici İşlər Nazirliyi bir daha mədəni abidələrin qorunması məsələsi ilə spekulyasiya etməyə çalışmışdır. Ermənistan tərəfi Azərbaycan ərazilərinə UNESCO missiyasının göndərilməsindən danışmaqdansa, belə bir missiyanı öz ərazisində qəbul etməlidir.**

Bu barədə Qərbi Azərbaycan İcmasının açıqlamasında bildirilir.

Açıqlamada, həmçinin deyilir: "İcma Ermənistan hökumətindən Azərbaycan mədəni irsini, o cümlədən İrəvan şəhərinin tarixi Təpəbaşı məhəlləsini dağıtmağı dərhal dayandırmağı və dağıtmış olduğu Azərbaycan mədəni abidələrini bərpa etməyi tələb edir. Bərpa zamanı abidələrin orijinallığının və autentikliyinin təmin edilməsi üçün Qərbi Azərbaycan İcmasının bu prosesdə yaxından iştirakı zəruridir".

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 261 (30377) 30 noyabr 2023-cü il, cümə axşamı


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

## 2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Hadisə

# Fərasətsiz oğru

**Türkiyənin Mardin vilayətinin Qızıltəpə rayonunda evə girən oğru ilə ev sahibi arasında maraqlı anlar yaşanıb. Belə ki, oğru ev sahibi gəldiyi zaman təlaşa düşüb və nə edəcəyini bilməyib. Nəticədə, özünü itirərək qapını onun üzünə kilidləyib.**



Ev sahibinin şikayəti ilə hadisə yerinə polis əməkdaşları gəliblər. Qapı önündə gözləyən qonşular oğrunu döyməyə cəhd etsələr də, polislər buna imkan verməyib və onu nəzarətə götürüblər.

Qeyd edək ki, hadisə ilə bağlı araşdırma aparılır.

***Fidan YAQUBLU***
***XQ***

İdman xəbərləri

# Güləş üzrə dünya çempionatının ilk günündə 6 medal



**“Sərhədçi” İdman Mərkəzində hərbçilər arasında keçirilən güləş üzrə 36-cı dünya çempionatına Azərbaycan komandası uğurla start verib.**

Yığmamızın üzvləri yarışın ilk günündə 4 qızıl, 1 gümüş, 1 bürünc medal qazanıblar. Belə ki, sərbəst güləşçilərimizdən Əli Rəhimzadə (65 kq), Hacı Əliyev (70 kq), Turan Bayramov (74 kq) və İbrahim Yusubov (92 kq) qalib adına layiq görülüblər. Qadın güləşçilərimiz Elnurə Məmmədova (50 kq) 2-ci, Nərgiz Səmədova (55 kq) 3-cü yerləri tutublar.

Qeyd edək ki, “Sərhədçi” İdman Mərkəzində dünən start götürən yarış dekabrın 3-də başa çatacaq. Azərbaycan bu nüfuzlu turnirdə 26 güləşçi ilə təmsil olunur.

## “Qəbələ” yenidən uduzdu



**“Qəbələ”nin 19 yaşadək futbolçulardan ibarət komandası UEFA Gənclər Liqasında növbəti oyununu keçirib.**

Yığma turnirin II mərhələsində Yunanıstanda “Olimpiakos”la üz-üzə gəlib. Görüşdə 0:4 hesabı ilə məğlub olan komandamız mübarizəni dayandırıb.

Qeyd edək ki, “Qırmızı-qaralar” Qəbələdə təşkil olunan ilk oyunda rəqibə 0:3 hesabı ilə uduzublar. Komandamız I təsnifat mərhələsində isə Macarıstanın “Puşkaş Akademiya” klubuna qalib gəlib – 1:1, 1:0.

## Kimlər daha güclü olub?



**Bakıda Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş güc idman növləri üzrə üçüncü turnir keçirilib.**

Yarışda 150-dən artıq idmançı “strict curl”, “deadlift” və “log lift”də mübarizə aparıblar. Müxtəlif yaş kateqoriyası üzrə təşkil olunan yarışa sağlamlıq imkanları məhdud idmançılar da qatılıblar.

Əli Tayirov (60 kq), Ayxan Həşimov (67,5 kq), Xansu Müslimov (82,5 kq), Sənan Şükürov (90 kq), Səbuhi Tağızadə (100 kq), Mikayıl Cəfərov (110 kq) və Surət Pirnəzərov (125 kq) “strict curl” yarışlarında qalib adını qazanıblar.

“Deadlift” üzrə Tacir Məcdunov (70 kq), Sadiq Kamilov (80 kq), Roman Əhmədov (90 kq), Ziyad Cabarov (100 kq), Seymur Quliyev (110 kq) və Nicat Xosrovzadə (110 kiloqramdan yuxarı) birinci yeri tutublar. “Log lift”də isə ən yüksək nəticə ilə Vadim Yelenov (80 kq), Sahib Bağırov (95 kq) və Cavid Abbasov (110 kq) fərqləniblər.

***Leyla SABİRQIZI***
***XQ***

Texnologiya yenilikləri

**Böyük Britaniya süni intellekt sistemlərini kiberhücumlardan qorumaq üçün dünyanın ilk qlobal təlimatlarını dərc edib. Yeni təlimatlar süni intellekt texnologiyasının təhlükəsiz şəkildə inkişaf etdirilməsini təmin etmək məqsədi daşıyır.**

# Süni intellekti qoruyaq



Dünən Londonda keçirilən açılış tədbiri 100-dən çox beynəlxalq tərəfdaşı bir araya toplayıb. Tədbirdə ABŞ, Kanada, Almaniya, Böyük Britaniya və s. ölkələrdən olan aparıcı kiber agentliklərin nümayəndələri iştirak ediblər.

Təhlükəsizlik qaydalarını təsdiq edən dövlətlər bunlardır: Avstraliya, Kanada, Çili, Çexiya, Estoniya, Fransa, Almaniya, İsrail, İtaliya, Yaponiya, Yeni Zelandiya, Nigeriya, Norveç, Polşa, Koreya Respublikası, Sinqapur, Birləşmiş Krallıq, Amerika Birləşmiş Ştatları.

***Ayan SƏMƏDQIZI,***
***tələbə-jurnalist***

# Kosmosdan Yerə siqnal gəlib...

**“Psyche” kosmik gəmisi NASA-nın eyni adlı metal asteroidini tədqiq etmək üçün başladığı təcrübələr çərçivəsində infraqırmızı lazerdən istifadə etməklə ilkə nail olub. Belə ki, “Psyche” bu yaxınlarda keçirdiyi təcrübədə DSOC (Deep Space Optical Communications) şirkətinin xüsusi avadanlıqları vasitəsilə 16 milyon kilometr məsafədən Yerə ilk dəfə siqnal ötürə bilib. Bununla da bir daha sübut edilib ki, lazer kosmik rabitə sistemi mövcud radiotezlik texnologiyasından dəfələrlə daha səmərəli ola bilər.**



Plana görə, DSOC texnologiyası Ay fəzasından kənarda yüksək sürətli rabitəni təmin edə biləcək. Lazer şüalarının üstünlüyü ondan ibarətdir ki, onlar daha çox məlumatın daha sıx dalğalara “toplanmasına” imkan verir. Lazer şüasında fotonlar eyni dalğa uzunluğunda, eyni istiqamətdə hərəkət edir. Eyni zamanda, görünməmiş sürətlə ötürülən işıq dalğalarına böyük miqdarda məlumat yığılır.

Araşdırmaya görə, fotonların kosmik gəmidən Yerə getməsi təxminən 50 saniyə çəkib.

***L.QURBANOVA***
***XQ***

Turizm

# Dünya Azərbaycana gəlir

**Bu ilin yanvar–oktyabr ayları ərzində Azərbaycana 186 ölkədən 1 milyon 723 mindən çox turist gəlib ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 30,3 faiz çoxdur.**



Qeyd edək ki, ölkəmizi ziyarət edən turistlərin 30,7 faizi Rusiya, 17,9 faizi Türkiyə, 7,7 faizi İran, 5,1 faizi Hindistan, 3,5 faizi Cənubi Koreyanın və digər ölkələrin payına düşür.

Yeri gəlmişkən, bu ilin 10 ayı ərzində Azərbaycandan xaricə səfər edən şəxslərin sayı da təxminən 30 faiz yüksəlib.

***XQ***

Sağlamlıq

# Kəklikotu – ruhun qidası

**Kəklikotu və onun faydalı xüsusiyyətləri insanlara qədim zamanlardan məlumdur. Qədimdə bu otu “ruhun gücü” adlandırıblar. Kəkliotu, həqiqətən, insanın əhvalını yaxşılaşdırmaq, depressiya və streslə mübarizə etmək xüsusiyyətlərinə malikdir.**



**Kəklikotu ilə dəmlənən çayın çoxlu müsbət təsirləri var:** Çay qurdları və mikrobları öldürür, ağrıları azaldır, nəfəs yollarını təmizləyir. Onun çox gözəl bəlğəmgətirici xüsusiyyəti var. Eyni zamanda, immun sistemini möhkəmlədir, orqanizmi tonuslaşdırır, yorğunluğu azaldır, gümrahlıq bəxş edir.

Kəklikotu çayı soyuqdəymə zamanı xəstənin vəziyyətini yüngülləşdirir, kişilərdə potensiyanı yaxşılaşdırır, böyrəkləri təmizləyir, sistit zamanı kömək edir.

Bu çay qadınlarda laktasiyanı (südün ifrazı ) artırır, arıqlamağa kömək edir və dərini təmizləyir.

Dadlı və faydalı kəklikotu çayını hazırlamaq üçün, sadəcə, adi qara çay dəmlədikdə çaydana 1 çay qaşığı quru kəklikotu əlavə etmək lazımdır.

Həkimlər, faydalı xüsusiyyətləri ilə yanaşı, mədə xorası, qalxanvari vəzi və ağır ürək xəstəliklərində, həmçinin hamiləlik zamanı kəklikotulu çayı içməyi tövsiyə etmirlər.

***Z.HÜSEYNLİ***
***XQ***

Hava




***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən noyabrın 30-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.***

Mülayim cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 6-11°, gündüz 13-17° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunundan 759 mm civə sütununa enəcək, nisbi rütubət 40-50 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 11-16° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq.

***Q. QASIMOV***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

Asəf Həsənov Fikrət Əzizova qardaşı

ELŞAD ƏZİZOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi rayonundan Rafil Hüseynov Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsi müdirinin müavini Fikrət Əzizova qardaşı

ELŞAD ƏZİZOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4756
SİFARİŞ 3119
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır
00:00